# SÜLEYMAN SANİ AXUNDOV

# QARACA QIZ

**Könül AYDIN Nəhmətova**
**“QARACA QIZ”IN TALEYİ**
**(“Qaraca qız” povesti 3 variantda)**

**Bakı, 2016**

**Elmi redaktor: Əkrəm Bağırov**
***filologiya üzrə fəlsəfə doktoru***

**Rəyçilər: Möhsün Nağısoylu**
***AMEA-nın müxbir üzvü, professor***

**Məhərrəm Qasımlı**
***Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, filologiya üzrə elmlər doktoru, professor***

**Güldəniz Qocayeva**
***filologiya üzrə fəlsəfə doktoru***

**Ərəb əlifbasından transfoneliterasiya edən və ön sözün müəllifi: Könül Nəhmətova**
***filologiya üzrə fəlsəfə doktoru***

**Süleyman Sani Axundov. Qaraca qız. (Könül AYDIN Nəhmətova. "Qaraca qız"ın taleyi) Bakı, 2015, səh.**

*Kitabda S.S.Axundovun "Qaraca qız" povestinin üç variantı: 1913-cü ildə "Məktəb" jurnalının 1-22-ci nömrələrində dərc edilmiş variantı,"Zərafət"(1927) adı ilə nəşr olunan hekayələr toplusundakı və "Qaraca qız"(1934) kitabçasındakı çap nüsxələri ilk dəfə olaraq geniş oxucu auditoriyasına təqdim olunur. Əsərin dəyişdirilmə səbəbi və mərhələlərlə aparılan təhrif prosesi araşdırmaçı tərəfindən nəzərdən keçirilmiş, nüsxələr arasındakı fərqlər müəyyənləşdirilmişdir. Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmaqla yanaşı, elmi və pedaqoji aiditoriyanın mütaliəsi üçün xüsusi tövsiyə olunur.*

## SÜLEYMAN SANİ AXUNDOV - 140

***...Türklük və İslam dairəsində qalxınmaq istiyoruz.***

***Biz arzu ediyoruz ki, bizim qalxınmağımıza baxıldığında "Türklər, Müslümanlar nə gözəl qalxınıyorlar" denilsin, yoxsa "Türklər, müslümanlar irtidad ediyor, firəngləşiyorlar" denilməsin.***

***ƏLİ BƏY HÜSEYNZADƏ***



## "QARACA QIZ"IN TALEYİ: ƏSƏR NECƏ DƏYİŞDİRİLDİ?

İlkin mənbələr əsasında aparılan ciddi ədəbiyyatşünaslıq araşdırmaları elmi ictimaiyyəti belə bir faktla üz-üzə qoyur: Hələ sovet hakimiyyətinin ilk illərindən etibarən yalnız şəxsiyyətlər deyil, həm də sənət və yaradıcılıq nümunələri milli-mənəvi siqlətinə görə represiyaya məruz qalmışıdr. Azərbaycan sovet ədəbiyyatı yaratmaq siyasəti yeni əsərlərin mövcud ideologiyaya tabe etdirilməsi ilə kifayətlənməyib, klassik əsərlərə də ciddi müdaxilələr etdirməklə məzmununun dəyişdirilərək idealoji təhriflərə məruz qoyurdu. Maraqlı bir faktdır ki, Cəfər Cabbarlının "Sevil" dramında həyat həqiqəti idealoji təbliğata qurban verilərək əlyazmasından o yana keçə bilməmişdir[1]. Mirzə Fətəli Axundovun, Hüseyn Cavidin, Əbdürrəhim bəy Haqverdiyevin və o cümlədən, XX əsrin əvvəllərində özünü uşaq yazıçısı, pedaqoq kimi təsdiqləmiş, gələcək nəslin yetişməsində xüsusi fəaliyyəti olan S.S.Axundovun əsərləri belə talehsizliklə üzləşmişdir. S.S. Axundovun "Qaraca qız" povesti daha çox təzyiqə, təhrifə məruz qalan əsərlərdən biridir. Əsər tam 100 illik nəşr tarixi müddətində Azərbaycan klassik uşaq ədəbiyyatımızın nadir inciləri sırasına daxil olsa da, elmi tədqiqi istiqamətində rastlaşdığımız laqeydlik təəccüb doğurmaya bilmir. Azərbaycan sovet ədəbiyyatşünaslığında aparılan tədqiqatlar nə qədər anlaşılandırsa, müstəqillik dövrü ədəbiyyatşünaslığımızda müşahidə etdiyimiz laqeydlik başa düşülən deyil. Halbuki əsərin böyük dəyişikliklərə məruz qalması haqqında hələ 1968-ci ildə Nadir Vəlixanov mümkün olduğu qədər elmi ictimaiyyəti məlumatlandırırdı. N.Vəlixanov ədəbiyyat tarixçiliyimizin yaddaşına bir mesaj ötürmək məqsədi ilə yazırdı: "Müəllif Hüseynqulu ağanın tənbəlliyinə işarə etsə də, onun sinfi təbiətinə səciyyəvi olmayan müsbət keyfiyyətlərini vermişdi. Bunu nəzərə alaraq ədib sonrakı nəşrdə Hüseynqulu ağanın tipik olmayan bir sıra müsbət

---

[1] Seyid Hüseyn Cəfər Cabbarlı barədəki xatirələrinin bir yerində deyir: "Cəfər "Sevil" pyesinin temasını da mənim üçün nağıl etmişdi. İstər Balaş, istər Sevil indi olduğu şəilkdə deyildi. Sevil tamamilə başqa cür, axıra qədər avam və çadrada qalan bir qadın idi ki, əsərin son pərdəsində Balaş etdiyi bir israfçılıqdan sonra həbsə alındıqda ondan boşanıb küçəyə qovladığına baxmayaraq yenə onun görüşünə gəlirdi. Cəfər Sevili ilk variantında axıra qədər avam və Balaşa sadiq saxlamaq istəmişdi."

keyfiyyətlərini atmışdır.” Yaxud “Əsərin ilk nəşrində Hüseynqulu ağanın səciyyəsi müəyyən qədər idealizə edilmişdi. O, çox vaxt Qaraca qızın müdafiəçisi kimi çıxış edirdi.” Tədqiqatçı belə mühim fərqləri diqqətə çatdırmaqla S.S.Axundovun milli-mənəvi dəyərlərimizə münasibətinin əslini işıqlandırmağa çalışırdı. Alim uşağın təlim və tərbiyə məsələsini yad mentalitetə uyğunlaşdırmağın da tənqidini povestin əsas ideya istiqamətlərindən biri kimi vurğulayırdı: “S.S.Axundov “Qaraca qız” hekayəsində Mariya İvanovnada təqdirəlayiq bir sifət göstərməmişdi. Mariya İvanovna uşaq psixoligiyasından xəbərsiz olduğundan və ya buna əhəmiyyət vermədiyinə görə Ağca xanımın tərbiyəsi ilə məşğul ola bilmirdi”.

Əflatun Saraçlı da əsərin dəyişdirilməsinə münasibətsiz qalmayıb, ötəri bir cümlə ilə də olsa da, bu məsələyə toxunmağı özünə borc bilirdi. Nadir Vəlixanov “Süleyman Sani Axundov” monoqrafiyasını siyasi və coğrafi müstəqilliyimizi təkrar qazandığımız dönəmdə təkmilləşdirərək əsərin dəyişdirilmə səbəblərini daha obyektiv qiymətləndirməyə nail olub. S.S.Axundovun yalnız “Qaraca qız” əsəri deyil,  digər əsərləri də dəyişikliklərə məruz qalıb. Nadir Vəlixanov “Süleyman Sani Axundov (elmi bioqrafiya)” adlı monoqrafiyasında milli-mənəvi dəyərlərimizin aşılanması istiqamətində aparılan bu siyasətin ədəbiyyatımıza vurduğu zərərdən təəssüflə danışırdı.

Nadir Vəlixanovun elmi tədqiqatı sayəsində yalnız “Qaraca qız” əsərinin deyil, “Nurəddin” əsərinin də üzərində dəyişikliklər edilməsi haqqında məlumatlanırıq. Tədqiqatçıya görə, Süleyman Sani sonralar “Qorxulu nağıllar”ı “Məktəb” jurnalından götürüb çap etdirərkən onların üzərində yaradıcılıq işləri də aparmışdır, lakin fikrimizcə, bu dəyişiklikləri birmənalı olaraq “yaradıcılıq işi” kimi qiymətləndirmək doğru olmaz.  “Nurəddin” hekayəsinin ilk nəşri ilə (“Məktəb” jurnalı, 1912-ci il, N-9-22) sonrakı nəşrlər arasında bəzi fərqlər vardır. Ədib 1936-cı ildə əsərlərini çapa hazırlayarkən bu hekayədə müəyyən dəyişikliklər edib. Məsələn, ilk nəşrdə məktəbli Fatma atası Hacı Səmədə deyir ki, “müəllimimizin əmrinə görə, gərək sabaha bir elə nağıl düzəldəm ki, ondan belə bir məna çıxsın: “Yaxşılıq eylə, at dəryaya, balıq bilməsə də, xalıq bilər”. Bu cümlədəki “xalıq” sözü Allaha işarə idi. Ədib sovet döv-

ründə yeni görüşlərlə əlaqədar olaraq həmin atalar sözünü "yaxşılıq elə, əvəzini görərsən" şəklində yazmışdır.

İlk nəşrində Hacı Səməd Hacı Nəsirin övladı olmasını da "Allah-təalanın kəraməti" ilə bağlayır. Əsərin sonrakı nəşrində isə ədib həmin sözlərin əvəzinə "axırda bunların bir oğlu oldu" yazırdı.

Hacı Nəsir Rəhimə yaxşılıq etmişdi. Bunun əvəzində Rəhim Nurəddinə ("İlk nəşrdə Nurəddinin adı Nurələddin kimi verilir. Bu, müəllifin həmin obrazın işıqlı, düşüncəli olduğunu onun adında da nəzərə çatdırılması ilə əlaqədardır." – N,Vəlixanov. (*Tədqiqatçı bu yazılış fərqinə xüsusi bir məna versə də, ərəb dilinin fonetika bəhsinə istinadən deyə bilərik ki, ərəb dilində orfoqrafik cəhətdən "Nurələddin" olan kəlmənin orfoepiyası "Nurəddin"dir*[2]. – **K.N.**)) "kibrit" qutusu irilikdə "Quran" gətirir. Həlimə də "Quranı öpüb" oğlu Nurəddinin boynundan asır. Əsərin 1936-cı il nəşrində isə Rəhim Nurəddinə Quran yox, Sədinin "Gülüstan" kitabını yadigar verir. Bu dəyişikliklər 30-cu illərdə vulqar sosiologizmin təsiri ilə olmuşdur və əsərə müsbət təsir göstərməmişdir". Göstərilən nümunələr də bu dəyişikliklərin "yaradıcılıq işi" olmasından deyil, yazıçının öz əsərinin ilkin ideya istiqamətlərini sovet konyukturasına uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalmasından xəbər verir.

S.S.Axundovun "Qorxulu nağılları"ı içində ən çox dəyişikliyə məruz qalmış "Qaraca qız" povestinin müasir ədəbiyyatşünaslıqda, xüsusilə uşaq ədəbiyyatı tarixçiliyində layiqincə tədqiqatına təsadüf edə bilmədiyimizi təəssüflə qeyd etmək məcburiyyətindəyik. Lakin araşdırmalar müəyyən qədər iş görüldüyündən xəbər versə də, geniş elmi, pedaqoji ictimaiyyətin diqqətinin

---

[2] Ərəb dilində (əl) artiklı ayrı-ayrı sözlərin əvvəlində, həm də söz birləşmələrinin tərkibində işlənir. Ərəb dilindən fars dilinə keçmiş (əl) artiklı ilə düzələn söz birləşmələrinin düzgün oxunması üçün şəmsi və qəməri hərfləri tanımaq və bilmək şərtdir. Belə ki, (əl) artiklı ilə düzələn söz birləşməsinin ikinci tərəfi şəmsi hərfi ilə başlanarsa, (əl) artiklının (lam) hərfi tələffüz olunmur və ikinci tərəfin ilk hərfi təşdidlə (şiddətlə) tələffüz olunur.Məsələn:
Nurəddin, Şəmsəddin, İmadəddin... (Təhminə Rüstəmova. Fars dili. Bakı, "Nurlar", 2012, səh. 50-51.)

çəkməməsi də təəccüb doğurur. Xüsusilə lap son dövr araşdırmamızda mühüm faktlara rast gəldik ki, təəccübümüzün artmasına səbəb oldu. "Qaraca qız"ın ilk dəfə bizim tərəfimizdən transfoneliterasiya olunub dərc edildiyini zənn etdiyimiz ilk variantı 1997-ci ildə Xeyrulla Məmmədov tərəfindən hazırlanaraq "Hikmət xəzinəsi" adlı bədii əsərlər toplusunda nəşr olunubsa da, təhsil mütəxəssislərinin və ədəbiyyatşünasların diqqətindən kənarda qalmaqda davam edib. Bu faktın özü səssiz-səmirsiz ciddi bir problemin varlığından danışır ki, bu da araşdırmaların elmi, həmçinin pedaqoji ictimaiyyətə inteqrasiyasının zəifliyidir. Əgər elmi yeniliklər akademik nəşrlərdən kənara çıxıb kütləviləşməyəcəksə, bu tədqiqatların nə anlamı ola bilər?!...

Xeyrulla Məmmədov da "Qaraca qız" əsərinin üzərində apalılmış dəyişikliyin onun ideya istiqamətinə kəskin təsirindən danışmağı özünə borc bilərək yazırdı: "Ədib 1936-cı ildə[3] əsərlərini kitablarında çapa hazırlayarkən "Qaraca qız" üzərində yenidən işləmiş, hekayənin mülkədarlığa qarşı çevrilmiş tənqidi pafosunu artırmaq məqsədilə bir sıra əlavələr və ixtisarlar etmiş. Beləliklə, əsərin yeni variantı yaranmışdır. Əsasən siyasi mülahizələrdən, motivlərdən irəli gələn bu yaradıcılıq əməliyyatları "Qaraca qız"ın birinci jurnal variantında müsbət planda təsvir edilmiş Hüseynqulu ağa və Pəricahan xanım surətlərinin mənfi istiqamətdə səciyyələndirilməsi ilə nəticələnirdi. Bu isə öz növbəsində oxucularda köhnə cəmiyyətə və onun əsas sütunlarından birini təşkil edən mülkədarlığa qarşı nifrət hissinin qüvvətlənməsinə xidmət göstərmişdir.

Artıq 60 ildir geniş Azərbaycan oxucusu "Qaraca qız"ın ədibin "Əsərləri"nin 1936-cı il nəşrinə daxil edilmiş variantını mütaliə edir. Bir sıra mülahizələrdən irəli gələrək biz "Hikmət çələngi" məcmuəsinə birinci "Məktəb" jurnalında dərc edilmiş variantını daxil etməyi məqsədəuyğun hesab edirik".

Bu günə qədər elmi tədqiqatlarda "Qaraca qız" əsərinin 1936-cı ildə dəyişdirildiyi haqqında bəhs olunur. Lakin biz "Qaraca qız" povestinin üzərində aparılan dəyişikliyi iki mər-

---

[3] Əsər "Zərafət" (1927), "Qaraca qız" (1934) kitablarındakı dəyişikliklərə məruz qaldıqdan sonra "Seçilmiş əsərləri"nə (1936) daxil edilib.

halədə müşahidə edirik.  Əsər ilk dəfə 1927-ci ildə S.S.Axundovun "Zərafət" adlı hekayələr kitabına daxil edilərkən dəyişdirilib. Əsərin üzərində yazıçı özü işləmişdir. Lakin bu "təshih"lər sovet idealoji aparatını razı salmamış, növbəti nəşrdə bir daha qayçıya məruz qoyulmuşdur. Növbəti dəfə isə 1934-cü ildə "Azərnəşr"in Tədris-pedaqoji şöbəsi tərəfindən "Qaraca qız" kitabçasının tərtibi zamanı aparılıb. Hər üç nəşr arasındakı fərqlərin idealoji səbəblərdən yarandığını açıq görmək mümkün olduğu üçün yazıçının bu işə məhz təhrik edilməsi qənaətinə gəlirik.  Son iki nəşr nüsxələri arasında bir sıra incə və mühüm fərqlər görürük. 1936-cı ildə "Seçilmiş əsrlər"in təkrar çapında artıq son dəyişikliyə möhür vurularaq bir əsrə yaxın ədəbiyyat tariximizin yaddaşına köçürülür və bu günə kimi uşaq ədəbiyyatımızın qızıl fonduna daxil olan "Qaraca qız" kimi mükəmməl  bir əsər millətin öz keçmişinə nifrət ruhunda tərbiyəsinə yönəldilir. Xüsusilə orta məktəb ədəbiyyat dərsliklərində əsərin ixtisar olunaraq əsas süjet xətti əsasında tədris edilməsi idealoji məqsəd daşıyırdı.

Füzuli Əsgərli uşaq ədəbiyyatı tarixçiliyi ilə məşğul olan bir sıra müasir ədəbiyyatşünaslarlarımızdan fərqli olaraq "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" əsərində "Qaraca qız"ın taleyinə elm və təhsilimiz tərəfindən göstərilən laqeydliyə öz münasibətini ifadə edir: "...Lakin ümumtəhsil orta məktəb üçün dərslik tərtib edən müəlliflər hansı səbəbdənsə sovet siyasi ideologiyasına xidmət etmiş əsərin hələ də ikinci variantından istifadə edir. Əslində isə, bu gün yeni nəslə keçmiş dövrlər haqqında tarixdə yamaq kimi görünməyən gerçək bilgilər verməklə onların dünyagörüşünü genişləndirmək, realist təsvirin gücü ilə cəmiyyət hadisələrinin mahiyyətini, inkişaf yolunu düzgün anlamaq üçün ciddi cəhd göstərilməlidir". Maraqlıdır ki, Füzuli Əsgərlinin də araşdırmasında "Qaraca qız" əsəri həm XX əsrin əvvəllərinin, həm də sovet ədəbiyyatının nümunəsi kimi nəzərdən keçirilirsə də, təhlilini son variant əsasında apardığını qeyd edir. "Qaraca qız" əsərinin ilkin variantının təqdim və təhlilə bu qədər ehtiyacı olduğu halda alimin belə mühüm işə səthi yanaşması da bu istiqamətdə atılan addımların hələ bir müddət də davamsız və zəif ola biləcəyindən xəbər verir.

Bu gün əsərin ixtisarlarının yer aldığı dərsliklərə nəzər saldıqda hiss etməmək mümkün deyildir ki, müəlliflər özləri də əsərin hansı formada təqdimi üzərində düşünürlər. Orta məktəb şagirdləri üçün yazılan ədəbiyyat dərsliklərində "Qaraca qız" povestinin 1934-cü ildə dəyişdirilib nəşr edilən variantı əsas götürülməklə süjet xəttini izləyən epizodlar təfərrüatlarlardan təmizlənərək hekayə adı ilə tədris proqramına daxil edilmişdir. On illərlə "Qaraca qız" povesti janr və ideya baxımından yanlış təbliğ olunur. Son illərdə IV sinif "Azərbaycan dili" dərsliyinə daxil edilən "Qaraca qız" bir daha "qayçıya" məruz qalır. Bu dəfə artıq dərslik müəllifləri haqlı olaraq milli kimliyimizə atılan böhtanın, milli varlığımıza kölgə salan yalanların qarşısını almaq üçün bəy-mülkədar zülmünü əks etdirən epizodları əsərin mətnindən kənarlaşdırırlar. Lakin bu dəyişikliyin də "Qaraca qız" əsərinə bir dəyər qazandırdığnı söyləmək mümkün deyildir. Bədii əsər təhriflərə uğradıqca mahiyyətini itirməyə məhkumdur. Azərbaycan dili dərsliyinin "Dostluq" bölməsinə daxil edilən "Qaraca qız"ın üzərində bir əsrə yaxın aparılan siyasət, sözsüz ki, əsəri öz ilkin mənşəyindən uzağa saldıqca bəsitləşdirmək, mənasızlaşdırmaq kimi təhlükəli aqibətlə nəticələndirməkdədir. Ədəbiyyatımızın məruz qaldığı bu təcavüzün qarşısını yalnız əsərin ilkin variantını bərpa etməklə almaq mümkündür.

Süleyman Sani Axundovun "Qaraca qız" əsərinin yazıçının öz iradəsi daxilində yazılmış və "Məktəb" jurnalının 2013-cü il, 1-22-ci nömrələrində yayınlanmış variantının 1927 və 1934-cü ildə "Qaraca qız" povestinin süjet və fabula baxımından dəyişdirilməsi əsərin ideya istiqamətinə cddi təsir göstərib. Hətta ilk variantında romantik-idealist bir əsər kimi qələmə alınan povest ikinci mərhələdən etibarən realist əsərə çevrilib.

Hazırda "Qaraca qız" adı ilə məşhur olan povestin orijinalından nə qədər fərqli olduğunu diqqətə çatdırmaq üçün əsərin çap nüsxələri arasındakı fərqləri mümkün olduğu qədər təqdim edirik. Povestin hər üç variantının dil və üslub xüsusiyyətlərini saxlamaqla tam mətnini geniş oxucu auditoriyasına təqdim etməyi məqsədəuyğun hesab edirik.

# “QARACA QIZ” ƏSƏRİNİN ORTA MƏKTƏBDƏ TƏDRİSİNƏ DAİR

**“Qaraca qız” niyə hələ də orta məktəb ədəbiyyat dərsliklərində tədris edilməlidir?** Əlbəttə ki, bu suala cavab tapa bilən pedaqoq əsərin uğurlu təhlilinə və şagirdlərə doğru izahına nail ola bilər. Qarşıya qoyduğumuz sualın hələ ki konkret cavabı pedaqoji, hətta deyərdik ki, elmi ictimaiyyətə məlum deyil. Ona görə də məsələyə bir neçə istiqamətdə nəzər salmalı olacağıq:

**1.*Yalnız ona görə mi ki, “Qaraca qız” uşaq ədəbiyyatı fondumuzun klassik nadir incilərindədndir?*** Xeyr, əgər belə olsaydı, bu məntiqlə Azərbaycanın görkəmli hekayə ustası Seyid Hüseyn Sadıqzadənin IV sininf “Oxu” dərsliyində bir neçə il ardıcıl olaraq tədris edilən “Ağ at və ağ çuxa” əsəri son illərdə dərslikdən çıxarılmazdı. Halbuki bu əsər də şagirdlərin milli-mənəvi tərbiyəsində xüsusi rol oynaya biləcək nadir klassik bədii-tarixi əsərlərdən biridir. Bununla yanaşı, hətta sovet hakimiyyəti illərində, məsələn, bizə məlum olduğuna görə, 1965-ci ildə yazıçının “Kor kişinin arvadı” hekayəsi orta məktəb dərsliklərində tədris edilirdi. Görəsən, bəs Seyid Hüseynin bədii irsinin orta məktəb dərsliklərində yer almasına hansı xüssusiyyətləri mane olmağa başladı?

***2. ... Yaxud, ona görə mi ki, “Qaraca qız” əsəri müəllifin “Qorxulu nağıllar” seriyasına daxil olan bədii nəsr nümunələrinin içində məktəblilərin təlim-tərbiyəsinə əhəmiyyətli dərəcədə təsir edə biləcək ən mükəmməl əsəridir?*** Amma son dövr IV sinif “Azərbaycan dili” dərsliyinə əsərin daxil edilmiş hissələrində Hüseynqulu ağa obrazının görünməməsi bunu demir...

***3. ...Və nəhayət, pedaqoji aspektdən ən məntiqsiz görünə biləcək sonuncu aksioma ilə üz-üzəyik: Sadəcə, “Qaraca qız” əsərinin ədəbiyyat dərsliklərində tədrisinin qədim bir tarixçəsi var və biz də bu ənənədən kənara çıxa bilmirik...*** Bunun da inkarı üçün tutarlı dəlillər gətirə bilərik: səbəb bu olsaydı, ibtidai sinif “Oxu” dərsliklərinin uzun illər bəzəyi olan Abdulla Şaiq, Abbas Səhhətin bədii irsi son illərdə sıxışdırılmazdı. Bu məqamda özümüzü təkzib etməyə də hazırıq, Səməd Vurğunun “Vaqif” dramının XI sinif “Ədəbiyyat” dərsliyində tədrisi timsalında... Amma

təcrübəli müəllim bu aksioma qarşısında yeni bir sualla müraciət edər, ilk növbədə, özünə: “Qaraca qız” əsəri bu gün niyə də tədris olunmasın? Göründüyü kimi, ilk qoyduğumuz sualın cavabı məhz ona alternativ sualla tapıla bilər. Nəinki hər bir orta məktəb ədəbiyyat müəllimi, hətta Azərbaycanın geniş ictimaiyyəti “Qaraca qız”ın məzmunu ilə yaxından tanışdır. Əsəri tam olaraq və sözün həqiqi mənasında oxuyan oxucu faizi çox olmasa da, eyni adlı kinofilmin ssenarisi (1966-cı il) əsərin məzmununa kiçik fərqlərlə yaxın olduğundan bu fikri qətiyyətlə söyləyə bilirik. Hər bir oxucuya və izləyiciyə məlumdur ki, əsərin məzmunu idealoji xarakter daşıyır və bu yanaşma sovet ədəbiyyatının sosial bərabərsizlik kimi mühim ideya istiqamətlərindən birini xarakterizə edir. Elə isə qarşımıza daha bir sual çıxır: Sosial bərabərsizliyin təbliği gələcək nəslin yetişməsində nə qədər “əhəmiyyətlidir”?! Bu sualın cavabı artıq özündədir və buna ritorik sual deyilir...

Sovet ədəbiyyatının ilk quruculuq dönəmində əsas strateji vəzifələrindən biri Azərbaycan xalqını öz milli-tarixi kimliyindən imtina etdirməsi, ona nifrət ruhu aşılaması idi. “Qaraca qız” əsərində bəyliyin, mülkədarlığın “ifşası” orta məktəb dərsliklərinə əsərdən ixtisar edilərək daxil edilmiş hissələrlə uzun müddət “uğurla” həyata keçirilirdi. Bəs bu gün necə? Öz milli-tarixi keçmişimizə nifrət ruhunu şüursuz surətdə gələcək nəslə “aşılamaq” təhsilimizin qarşısında duran mühüm məsələlərdəndirmi? Düşündükcə bu kimi kəskin suallar qarşımıza çıxacaqdır və nəticədə bizi çıxılmazlıqla üz-üzə qoya bilər. Çünki Süleyman Sani Axundovun “Qaraca qız” və yaxud digər “qorxulu nağıllar”ının orta məktəb dərsliklərindən çıxarılması Azərbaycan uşaq ədəbiyyatının tədrisi sahəsində böyük bir boşluqla nəticələnər. Elə isə nə etməli? Uşaq ədəbiyyatı tariximizin nadir əsərlər fonduna daxil olan belə bir bədii sənət nümunəsindən imtinamı etməli və ya, bu bir mükəmməl sənət nümunəmizdir deyə, düşmən idealogiyayamı övladlarımızın ruhunu təslim etməli? Bu sualların cavabını tapmaq üçün əlimizdə olan əsərlə kifayətlənə bilməyəcəyik deyə, onun tarixi-ədəbi həyatına nəzər salmaq artıq qaçılmaz, hətta deyə bilərik ki, gecikmiş zərurətə çevrildi.

**“Qaraca qız” kimi “qorxulu nağıl”da kiçik oxucunun psixi təhlükəsizliyi: əsərin ilk çap variantı əsasında**

Süleyman Sani Axundovun “Qorxulu nağıllar” seriyasından olan əsərlər haqqında düşünərkən belə bir paradoksla qarşılaşırıq: bu əsərlərin dərc edildiyi ümumi başlıqla (“Qorxulu nağıllar”) məzmunu arasındakı təzad həmin əsərlərə qorxunun deyil, ümidin, işığın hakim olmasıdır. Amma bu paradoks bu günə qədər ədəbiyyat tariximizə məlum olan “Qaraca qız” əzərində itir, “Nurəddin” əsərində zəifləyir... Bu fərqin səbəbi isə artıq araşdırmamızı izləyən oxucuya məlumdur: “Qaraca qız” əsərinin kompozisiyasında, süjet və fabulasında  ciddi dəyişikliklər aparılmış, “Nurəddin” əsərində isə mühüm bir motivasiya (Allaha inam və çətinliklri qədər kimi qəbul edib səbir göstərmək) aradan qaldırılmışdır. Bu dəyişikliklərin nəticəsi isə həmin əsərlərin  şagirdlərin yaddaşında öz dəhşətləri ilə (xüsusilə ölüm faktorunun çılpaq həqiqət formasında fiktiv dünyaya köçürülməsi ilə) silinməz iz salmasıdır.

Əslində isə, S.S.Axundov yazıçı, pedaqoq olmaqla yanaşı, həm də təcrübəli bir psixoloq idi. Uşaq ədəbiyyatının əsas kriteriyalarından da öz iradəsincə çıxmamışdır. Fikirlərimizi “Qaraca qız”ın 1913-cü ildə “Məktəb” jurnalında dərc edilmiş nüsxəsi əsasında izah edəcəyik.

“Qaraca qız” hissə-hissə  “Məktəb” dərgisininn hər nömrəsində “Qorxulu nağıllar” adlı ümumi başlıq altında dərc edilirdi. Bu, müəllifin kiçik oxucusunu mütaliəyə cəlb etmək fəndi idi. Məlumdur ki, kiçik yaşlı uşaqların diqqətini ibrətamiz hekayələrdən daha çox həyəcanlandırıcı əsərlər çəkir. Zəlzələ, Yasəmənin ölümü, Yusifin ayının pəncəsində həlakı kimi qorxulu səhnələrin kiçik dostlarına ağır zərbələr vurmasını önləmək üçün müəllif əsərin ekspozisiyasında bunun bir hekayə olmasına oxucusunu inandırmaq üçün hadisəni Hacı Salehin dilindən nağıl edir.

“Qaraca qız” əsərində diqqətə alınmalı əsas psixoloji məqamlardan biri də ailədaxili münasibətlərdir. Burada yazıçı ailədaxili uyumsuzluğun təsvirinin uşağın tərbiyəsinə mənfi təsir göstərməsinə qarşı bütün qüvvəsini səfərbər edirdi:

*“Hüseynqulu ağa ilə arvadı Pəricahan xanımın xasiyyətləri biri-birinə dutmayırdı. Pəricahan xanım gimnaziya təhsilində cəmi*

*Avropa adətlərini götürüb öz milli adətləri xoşuna gəlməyirdi. Hətta öz ana dilindən öylə ikrah etmişdi ki, bu dil ilə danışmaq da istəməyirdi və labüd qalıb danışanda da yarı rus, yarı türki kəlimələrini qarışdırıb danışmaqla qulaq asanları özünə güldürürdü.*

*Hüseynqulu ağa isə Avropa qaydalarını sevməyib, öz ata və baba adətlərini çox istəyirdi; hətta Pəricahan xanım nə qədər çalışdı isə də, ondan çərkəsi paltarı çıxarıb, Avropa libası geyindirə bilmədi. Pəricahan xanım Hüseynqulu ağanın evinə gələndən sonra köhnə qulluqçuları dəyişdirib evin hər bir qaydasını Avropa səliqəsinə saldı. Hüseynqulu ağa bu tazə qaydaları sevmədiyi üçün vaxtının çoxunu kənddə qalıb şəhərdə az-az görünürdü. Çox danışıqdan sonra axırda Pəricahan xanımı razı edib kənddə öz mülklərinə köçürtdü. Bunun üçün də Hüseynqulu ağa nəhayət dərəcədə şad oldu, çünki şəhər yaşayışını o, əsla sevməyirdi"*

Ailənin belə bir uyumsuzluğuna baxmayaraq, Hüseynqulu ağanın qadının hörmətini əsərin sonuna qədər qoruyub saxladığını, hər tərs gələn münasibətlərdə ona imkan olduğu qədər güzəştə getdiyini müşahidə edirik. Gələcək nəslin ailəyə, böyüyə hörmət çərçivələrində yetişməsi üçün ailədaxili münaqişələrin həllini romantik üslubla verən yazıçı kiçik oxucusunun saf zehniyyətini də zədələməsin deyə həyat gerçəklərindən qaçmağa çalışmışdır. Lakin Hüseynqulu ağanın nəzərində ailəyə hörmətdən daha yuxarıda duran yeganə bir prinsip insan haqqını tapdamamaqdır. Qaraca qızın sığınacağa ehtiyacını təmin etmək üçün Hüseynqulu ağa hətta öz qızının tərbiyə və sağlamlığı ilə bağlı məsələlərdə könlünü incitmək istəmədiyi Pəricahan xanımın Qaraca qıza qəddarlığının qarşısını öz hökmü ilə alır. Burada da müəllif kiçik oxucusuna və həmçinin onun təlim və tərbiyə gördüyü mühitə mühüm psixoloji mesajlar verirdi.

Əsərdə şagirdin qarşılaşdığı ən önəmli psixoloji anlardan biri Qaraca qızın ölüm səhnəsidir. Müəllif artıq Qaraca qızla özdəşləşən, doğmalaşan oxucusunu belə bir ağır finala hazırlamaq üçün intuitsiya motivindən istifadə edirdi:

*"Amma bir gecə heç nə söyləməyib qəmgin olaraq yerinə girdi.*

- *Qızım, neyçün kefsizsən, bir şey olmamış ki?*

*- Yox, baba!*

*- Bəs neyçün qəmginsən?*

*- Özüm də bilməyirəm, baba!*

*- Gözlərini yum, yuxula, qızım!*

*- Yuxum gəlməyir, baba, yürəyim sıxılır!*

*- Qoy sənin üçün nağıl söyləyim, qızım, bəlkə yuxun gələr!*

*Piri kişi Qaraca qızın başını sığallayıb başladı:*

*- Qızım, biri var imiş, biri yox imiş, Bir padşah var imiş. Bu padşahın dünyada övladsızlıqdan başqa bir qəm və qüssəsi yox imiş...*

*- Baba, bən ölsəm, ağlarmısan?*

*- Allah eləməsin, qızım, öləsən, neyçün öləsən?*

*- Baba, bən ölsəm, bəni o Göy təpədə basdırınız! Oranı bən çox sevirəm: Oradan hər yer görünür; orada hər cür çiçək bitir. İmdi o çiçəklərin hamısı solmuşdur. Biz bu gün orada oynayırdıq.*

*Sən neyçün ölürsən, qızım? Sən yaşayıb, bən qoca babanı o dediyin təpədə basdıracaqsan; Sonra böyükləşib ora gedəcəksən, uşaqların olacadır1 Sonra bənim kibi qocalıb qarı olacaqsan! Nəvələrinə vəsiyyət edəcəksən ki, bəni Göy təpədə Piri babanın yanında basdırınız. İmdi, qulaq as, qızım, nağılın dalını söyləyim!"*

Qarşıda gözlənilən fəlakətli hadisənin nəqlinin ekspressiv təsirini azaltmaq məqsədilə verilmiş bu epizodla da müəllifin peşəkarlığı sayəsində azyaşlı oxucu psixoloji sarsıntıdan sığortalanmış olurdu.

Qeyd etdiyimiz bütün bu mühüm psixoloji motivlər 1927-ci ildə əsərdən "təmizlətdirilərək" kiçik oxucunun mənafeyinə deyil, mövcud siyasi hakimiyyətin siyasi ehtiraslarına tabe etdirildi. Əslində isə, "Qaraca qız" əsəri şagirdlər üçün bütün motivasiyaları, ideya istiqamətləri ilə ideal bir sosial əxlaq konsepsiyası idi.

**Araşdırma sonucu gəldiyimiz nəticə: qarşıya qoyulan suallar cavabsız deyil.**

2011-ci ildə Azərbaycan dili və ədəbiyyat fənlərini tədris etdiyim Sabunçu qəsəbəsi, 67 nömrəli tam orta məktəbdə VI sinif şagirdlərinə "Qaraca qız" əsərini təhlil etmək zərurəti qarşısında qaldığım zaman öncə özümə bir sual verdim: "Qaraca qız" niyə hələ də orta məktəb ədəbiyyat dərsliklərində tədris edilməlidir?"

Axı mövzunu nə üçün izah etməli olduğumuzu bilmədən necə təhlil edə bilərdik?! Buna görə də dərs dediyimiz şagirdlərin dünyagörüşünü doğru formalaşdırmaq məsuliyyəti bizi sürətlə araşdırmaya təhrik etdi. Bu məsuliyyət "Qaraca qız" əsərinin üç fərqli çap nüsxəsinin üzə çıxarılması və bu nüsxələr arasındakı fərqlərin müəyyənləşdirilməsi kimi mühüm və geniş bir tədqiqat əsərinin ərsəyə gəlməsi ilə nəticələndi.

Yuxarıdakı təhlillərimizdən göründüyü kimi, "Qaraca qız" bu gün də inkarolunmaz bir klassik nəsr nümunəsidir və həqiqətən də, şagirdlərin təlim və tərbiyəsinə əhəmiyyətli təsir göstərə biləcək xüsusiyyətlərə malikdir. Ortada bir fakt qalır: Süleyman Sani Axundovun "Qaraca qız" əsəri haqqında apardığımız araşdırma elmi və kütləvi mətbuatda ("Azərbaycan müəllimi" qəzeti, "Ədəbiyyat qəzeti", "Azərbaycan dili və ədəbiyyatın tədrisi" jurnalı, "Kurikulum" jurnalı), saytlarda ("A24", "Sənət.az", "Tezxəbər", "Manera.az") nə qədər əksini tapsa da, əsərin kütləvi nəşri hələ heç kimi maraqlandırmayıb. Fikrimizcə, Süleyman Sani Axundovun "Qorxulu nağıllar" seriyasına daxil etdiyi bütün əsərlərin sovet hakimiyyətindən öncə "Məktəb" jurnalında dərc edilmiş variantları yenidən oxunmalı, dəyişdirilmiş olanları nəşrə hazırlanmalıdır. Yalnız bu işlərin tamamlanmasından sonra S.S.Axundovun uşaq ədə-biyyatı yaradıcılığı haqqında obyektiv nəticələrə gəlmək mümkün olar.

Araşdırmalar nəticəsində üzə çıxan problemlərin həlli istiqamətində mühüm bir məsələni də diqqətdən qaçırmaq doğru deyil. "Qaraca qız" əsərinin orta məktəb dərsliklərində dəyişdirilməsi kimi ciddi bir təklifə qarşı alim və pedaqoqlar tərəfindən veriləbiləcək bir neçə məntiqli sualla üz-üzə qala biləcəyimizi düşünürük və hətta dar bir elmi auditoriyada qəfil bu suallarla qarşılaşdığımız üçün cavabını da həmin anda ilk ağıla gələn məntiqlə cavablandırmalı olduq. Həmin cavabları özlüyümüzdə bir daha düşünüb qarşıda geniş auditoriyadan ala biləcəyimiz sualları öncədən cavablandırmağı lazım bilirik:

**1. Bu variantlar arasında sənətkarlıq baxımından hansı daha mükəmməldir?**

Məlum olduğu kimi, Süleyman Sani Axundovun yaradıcılığını, əsasən, romantik əsərlər təşkil edir. "Qaraca qız" da ilkni

variantında romantik bir povest olaraq qələmə alınıb. Müəllifin qarşısında duran acı həyat həqiqətləri elə bir fiktiv dünyaya köçürülməli idi ki, kiçik oxucusu bu həqiqətlərdən kəskin yaralanmasın, psixoloji travma almasın. Həmçinin yazıçı uşaqlar üçün yazdığı əsərlərini "Qorxulu nağıllar" ümumi başlığı altında toplamaqla kiçik oxucularının mütaliəyə marağını öncədən stimullaşdırmağa çalışırdı. Bilindiyi kimi, həyəcan kiçik oxucuların mütaliəyə marağının ən mühüm motivasiyalarındandır. Qeyd etdiyimiz fəndlər müəllif tərəfindən müstəqil mövqeyi sayəsində uğurla həyata keçirilib və "Məktəb" jurnalında dərci zamanı da böyük təqdirlə qarşılanıb. Hətta dövrün pedaqoqları tərəfindən uşaq ədəbiyyatını necə yazmalı tövsiyələrində ən yaxşı nümunə kimi göstərilib. "Məktəb" jurnalının 1913-cü il, 22-ci nömrəsində əsərin sonunda belə bir qeyd var ki, fikrimizin təsdiqi üçün də əhəmiyyətlidir: "Bu hekayə möhtərəm mühərririn nə qədər məharətli və qüdrətli hekayənəvis olduğunu bildirir. Bu hekayəni diqqətlə mütaliə buyuranlar görərlər ki, burada millətimizin bir çox siniflərinin məişəti və əhval-ruhiyyəsi çocuqların anlaya biləcəyi açıq və sadə bir dil ilə bəyan edilmişdir. Milli hekayə belə olur. Bir çox hekayə yazmaq həvəsində olan olan cavanlarımız möhtərəm Süleyman Sani cənablarını təqlid edərlərsə, qazanclı çıxacaqlarına şübhə edilməsin gərəkdir". Həqiqətən də, "Qaraca qız" öz dövründə yalnız uşaq bədii nəsri nümunəsi kimi deyil, dil və üslub xüsusiyyətlərinə görə də hadisə idi.

Arxa çevirə bilməyəcəyimiz başqa bir həqiqət də var ki, bədii əsərin önündə duran problem təfərrüatlardan təmizlənmiş və hədəfə birbaşa yönəldilmiş şəkildə realistcəsinə həllini tapdığı zaman sənətkarlıq və ekspressiv təsir baxımından udub. Lakin burada uduzan uşaq psixologiyası və milli-tarixi həqiqətlərimiz olur. Bu isə, zənnimizcə, orta məktəb ədəbiyyat dərsliklərinin təlim və tərbiyə, hətta estetik tərbiyə siyasətinə tərs mütənasibdir. Yəni milli-mənəvi dəyərləri sənət faktoruna qurban vermək keyfiyyət kimi dəyərləndirilə bilməz və bu tendensiya milli təfəkkürümüzün davamı üçün də faydalı deyil.

**2. Əgər əsəri Süleyman Sani Axundov özü "təshih" edibsə, bəlkə sonuncu variantı daha məqsədəuyğun hesab edib?**

“Qaraca qız” əsərinin müəllifin özü tərəfindən sovet hakimiyyəti illərində dəyişdirilməsi faktlarla öz təsdiqini tapır. Biz isə bunu iki mühüm mərhələdə müşahidə edirik (1927, 1934-cü illərdə). Müəllif ilk “təshihi” zamanı bir sıra bədii detalları, motivasiyaları saxlamağa cəhd etmişdirsə də, ikinci dəfə bunları da “təmizləmək” məcburiyyətində qalmışdır. Bu məqamları nəzərdən keçirdikcə belə qənaətə gəlirik ki, əsərin dəyişdirilməsi müəllifin öz iradəsi daxilində olmayıb, siyasi-idealoji aparatın təhriki ilə həyata keçirilib.

Qarşılaşa biləcəyimiz suala ən tutarlı cavabımız isə əsərin sovet hakimiyyətindən öncə 1913-cü ildə Süleyman Sani Axundovun “Məktəb” jurnalında ilk yazdığı orijinal formada dərc etdirməsidir. Əgər əsərin orijinalı yalnız əlyazması şəklində olsaydı və öncə də işıq üzü görməsəydi, o zaman bu kimi sualların cavabını vermək çoxistiqamətli və geniş müzakirələr tələb edərdi.

İlkin mənbəyə istinad olunmuş ciddi araşdırmalar nəticəsində belə bir qənaətə gəlirik ki, Azərbaycan uşaq ədəbiyyatının qızıl fonduna daxil olan “Qaraca qız” əsəri bu gün də öz aktuallığını, əhəmiyyətini itirmədiyindən onun ilkin variantını orijinal kimi tanıyaraq bərpa etməklə orta məktəbdə tədris edilməsi məqsədəuyğundur. “Qaraca qız” əsəri bundan sonra uşaq ədəbiyyatı tarixçiləri tərəfindən gecikdirilmədən ilkin variantı əsasında təhlilə cəlb olunarsa, tədris proqramlarına daxil edilmək kimi mühüm problemin həlli istiqamətində daha bir ciddi addım atılmış olar.

**Könül Nəhmətova**
**filologiya üzrə fəlsəfə doktoru**

## S.S.AXUNDOVUN "QARACA QIZ" POVESTININ ÜÇ ÇAP NÜSXƏSI ARASINDAKI FƏRQLƏR

**"Qaraca qız" əsərinin proloqu ("Məktəb", 1913, №1). 1927-ci ildə "Zərafət" hekayələr kitabında əsərdən çıxarılıb:**

Axşam çay süfrəsində əyləşən zaman Hacı Səməd qızı Fatimənin başını sığallayıb dedi:

- Qızım, söylə görək məktəbdən nə tazə xəbər gətirmisən?

Fatimə:

- Ata, bu gün dərs arasında həyətdə dəstə-dəstə olub qar ilə oynayırdıq. Gövhər, Zeynəb və Səltənət bir dəstə olub, qardan adam yapırdıq. Nabat da istədi biz ilə oynasın, mən razı oldum, amma yoldaşlarım razı olmadı. Nabat çox çirkin və gözləri də çəp olmağa görə heç kəs onun ilə dostluq etmiyordu; ələlxüsus, Gövhər onu sevmiyordu. Nabat kənarda durub bizə məzlum-məzlum baxıyordu. Birdən Gövhərin ayağı sürüşüb yerə yıxıldı və başı daşa dəyib qanadı. Bunu görcək hamıdan tez Nabat Gövhəri qucaqlayıb gözləri yaşlı dedi:

- Ağlama, bacım, qoxma, heç zad olmaz.

Gövhər bunu görüb dedi:

- Ah, sən nə gözəl yoldaşmışsan! Mən bilməmişəm, əfv et! Bunu deyib Nabatı qucaqladı və öpdü. Bu ittifaq bizə çox artıq təsir etdi.

Hacı Səməd dedi:

- Qızım, insanın zahirinə baxma, batininə bax! Türkdə bir məsəl var, deyərlər ki, "Ətə baxma, dona baxma, içindəki cana bax!" İndi Qaraca qızın hekayəsini söylərəm, özün görərsən. Atalarından bunu eşitcək bacı və qardaş sevinə-sevinə nağıla müntəzir dayandılar. Hacı Səməd ruznaməni yerə qoyub çeşməyi gözlərindən çıxartdı və başladı:..."

**"Məktəb" jurnalında var. 1927-ci ildə saxlıanılıb, 1934-cü ildə "Qaraca qız" kitabından çıxarılıb:**

"Bilirdi ki, bu görünən kənd erməni kəndidir və Yusif də oraya içməyə gedir."

**“Məktəb” jurnalında var. 1927-ci ildə seçilmiş cümlə çıxarılıb:**

Qara köpək Qaraca qızı buraxdı, amma o, hərəkətsiz qalıb ayağa qalxmadı. Bəylər Qaraca qızın üstünü aldılar. **Hüseynqulu ağa Qaraca qızı qaldırıb qucağına aldı.** O, zəif bir hal ilə gözlərini açdı; lakin harada olduğunu anlamadı.

**“Məktəb” jurnalında yoxdur. 1927-ci ildə əsərə artırılıb:**

“Səlim bəy qıza diqqətlə baxıb dedi:

- Hə, bu qızı mən görmüşəm. Məşhur oxuyan və oynayan Qaraca qızdır, sahibi də qaraçı Yusifdir. Üç ay bundan qabaq ona nə qədər pul və xələt vəd etdimsə də, bu qızı mənə satmadı, imdi yaxşı əlimə düşübdür. Siz öləsiniz, gündə qonaqlıq edib sizə böyük kef verəcəyəm.

Hüseynqulu ağa bunu eşitdikdə dedi:

- Demək, o kefi mən verə bilmərəm? Əslinə baxsan, qız mənə çatar, çünki mənim köpəyim tapmışdır.

- Bəylərin arasında bəhs düşdü. Səlim bəy dedi:

- Hüseynqulu ağa, özün yaxşı bilirsən ki, arvadın Pəricahan xanım qaraçı qızını evinə qoymaz, nə üçün bəhs edirsən?

- Nə üçün qoymur? Ev sahibi odur, yoxsa mən? Bundan əlavə, qızı Piri kişiyə verəcəyəm ki, o saxlasın.

Bəylər buna razı oldular.”

**1927-ci ildə dəyişdirilib:**

“***Məktəb” jurnalında:***

Hüseynqulu ağa qırx yaşında böyük bir mülkədar idi. On üç yaşında ikən atası Megdi ağa onu bir növ ilə edadi “realni” məktəbinə qoya bilmişdi; amma Hüseynqulu ağanın fikri həmişə at binmədə, ava çıxmada olub, oxumaq ilə əsla arası yox idi. Hər il o sinifdə, bu sinifdə qala-qala bir növ ilə dördüncü sinfə çıxa bilmişdi. Daha bundan yuxarı bir sinfə keçə bilməyib məktəbdən xaric oldu. Atası bu işə çox da qəmgin olmadı, çünki onun çox dövləti və varı var idi. Edadi məktəbini qurtarandan sonra atası oğlunu oxutmaq fikrində yox idi. Mehdi ağanın Hüsenqulu ağadan başqa bir oğlu yox idi. Hüseynqulu ağa oxumağa fikir verməyir idisə də, çöl işlərində çox qoçaq idi; odur ki, atası onu daha oxutmaq fikrində olmayıb çöl işlərinə onu mühəvvəl etdi.

Azuqətdə Hüseynqulu ağa yaşının azlığına baxmayıb çöl işlərini parlaq bir surətdə əmələ gətirirdi. Atası oğlunun bu məharətini görüb bütün işlərini idarə etməyi ona tapşırdı. Hüseynqulu ağadan bütün qulluqçuları və rəiyyətləri qorxur idi. Çünki o, çox tünd adam idi, amma bunun ilə böylə Hüseynqulu ağa çox rəhmdil idi. Hüseynqulu ağa zəhməti çox sevdiyi kibi, yoldaşları ilə kef çəkməyi də çox sevərdi. Atası Hüseynqulu ağanın kef çəkməyindən xoşlanmayırdı, çünki qorxur idi ki, bunun axırı çox fəna bir surətdə nəticə versin, ona görə də Mehdi ağa oğlunu evləndirmək fikrinə düşdü.

Bu fikrini Mehdi ağa tez əmələ gətirdi. Edadi məktəbini qurtarmış, gözəl bir tərbiyə görmüş, bir bəy qızını oğlu üçün aldı. Mehdi ağanın fikri düz də çıxdı. Hüseynqulu ağa evləndikdən sonra artıq yoldaşları ilə həva-həvəs və kefə məşğul olmayırdı. Ancaq yoldaşlarını öz evinə çağırıb qonaqlıqlar edərdi.

***“Zərafət” kitabında:***

Bu vəqt atası vəfat etdi. Onun cəmi mülkü tək bir oğlu Hüseynquluya qaldı. O da günlərini eyş və işrətdə, qumarda, yava yolda keçirməyə başladı. Düz 30 yaşına çatana qədər özü kibi fəna arkadaşları başına yığıb mülkünün çox hissəsini kefə qoydu. Axırda qohumları onu bu pis yoldan qaytarmaq üçün evləndirdilər. Ona oxumuş bir bəy qızı aldılar. Lakin evlənəndən sonra da fəna əməllərindən əl götürmədi. Bundan əlavə, arvadı Pəricahan xanımla evdə xasiyyətləri də dutmurdu. Pəricahan xanım Avropa xanımlarını təqlid edərək köhnə qulluqçuları qovub onların yerinə tazə qulluqçular dutdu. Evin hər bir qaidəsini Avropa səliqəsinə saldı. Hüseynqulu ağa bu tazə qaidələri sevmədiyi üçün əlinə bəhanə düşüb kənd evlərinə köçüb orada günlərini keçirməyə başladı. Şəhərdə az-az görünürdü.”

“...Ərini nəzəri altında saxlamaq üçün Pəricahan xanım kənd evinə köçməyə məcbur oldu…”

**1934-cı il nəşrində əsərin bu hissəsi tamamilə ixtisar olunub**.

**“Məktəb” jurnalında yoxdur. 1927-ci ildə əsərə artırılıb:**

“Xidmətçilər Hüseynqulu ağadan qorxub hüzurunda titrəyirdilər. Lakin Piri kişi kimsədən qorxmazdı və bacardığı qədər

qulluqçuları ağaların zülmündən mühafizə edərdi. Ona görə də onu başqa nökərlər sevərdi.”

**“Məktəb” jurnalında var. 1927-ci ildə aşağıda seçilmiş cümlə əsərdən çıxarılıb.**

“Piri kişi uşaqlıqdan gün çıxmamış yuxudan durmağı adət etmişdi. **İmdi də tezdən dəstamaz alıb sübh namazını qıldı.”**

**“Məktəb” jurnalında var. 1927-ci ildə çıxarılıb**:

“Piri kişi təcrübə edib bu bağda qələm vasitəsilə təbiətə müğayir öylə peyvənd etmişdi ki, bu iş cümləni heyrətə gətirirdi; bir əzgil ağacına qələm ilə alma peyvənd etmək ilə bir ağacda iki cür meyvə bitirirdi. Hüseynqulu ağanın bu bağı mülkədarlar arasında xeyli şöhrət qazanmışdı. Hüseynqulu ağaya bir qonaq gələndə cürbəcür ziraət maşınalarını qoyub qabağına, bağına tamaşa apardı. Bağın böylə Cənnət kibi olmasına səbəb yalnız Piri kişi idi; Buna görə də Hüseynqulu ağa onun xatirini çox istəyirdi: Hər nə istəsə idi, dərhal əmələ gətirirdi. Piri kişi isə ondan ancaq bircə şey təvəqqe edirdi: Ağalardan başğa kimsə bağa girməsin. Hüseynqulu ağa da bu ixtiyarı ona vermişdi.”

**“Məktəb” jurnalında yoxdur. 1927-ci ildə əsərə artırılıb:**

“Hüseynqulu ağa üzünü arvadına tərəf dutub dedi:

- İndi sapsağ qızı azarlı edəcəksən.

- Rica edirəm, mənim tərbiyə verməyimə qarışmayasan.

- Nə üçün, mən ata deyiləm?

- Atasan, ancaq nadansan. Nadan atadan qız nə tərbiyə götürə bilər?

Hüseynqulu ağa cəld yerindən qalxıb acıqlı-acıqlı yumruğunu masaya elə vurdu ki, boşqablar bir-birinə dəydi:

- Sus! Tezliklə sənə göstərərəm ki, bu evin sahibi mənəm... – Bunu deyib Hüseynqulu ağa qabağındakı boşqabı götürüb yerə çaxdı.

- Get, piyan soldat, - deyə Pəricahan xanım bağırdı.

- Bu hadisədən yazıq Ağca xanım titrəyərək göz yaşı tökməyə başladı.”

**“Məktəb” jurhalında yoxdur. 1927-ci ildə əsərə artırılıb:**

Hüseynqulu ağa:

“- Dəli ananın sözünə qulaq asma.”

**1927-ci ildə dəyişdirilib:**

***"Məktəb" jurnalında:***

"Ağca xanım atasını çox-çox istəyirdi, onun sadəliyi çox xoşuna gəlirdi, ona görə də atasına yoldaş və sirdaş olmuşdu, ondan heç şey gizləməzdi."

***"Zərafət" kitabında:***

"Ağca xanım atasının belə mehriban rəftarından istifadə edərək onun qucağına atıldı."

**"Məktəb" jurnalında var. 1927-ci ildə əsərdən çıxarılıb:**

"Hüseynqulu ağanı görüb qorxuya düşdü. Amma onun çox mehriban bir tərzdə:

- Kefin necədir, Qaraca qızım? – soruşmasından yürəyi sakit olub, - "Ağam sağ olsun" – deyə cavab verdi."

**1927-ci ildə dəyişdirilib, əlavələr olub:**

***"Məktəb" jurnalında:***

"Bir dəfə Hüseynqulu ağa böyük qonaqlıq edib çoxlu adam çağırmışdı. Bu qonaqlıqda oxuyub, çalan da var idi. Hüseynqulu ağa Qaraca qızı qonaqlara göstərmək qəsdi ilə onu gözəl geyin-dirib və əlinə özünün cınqıralı qavalını verib onu oynatdı. Qaraca qız çoxdan idi ki, oynamamışdı. Yürəyində oynamaq həsrəti çox idi, o imdiki məclisə mübarizə istəyən pəhləvan kibi atıldı. Böylə bir tərzdə oynadı ki, məclisdə cümləni özünə valeh etdirdi. Məc-lisdə bütün danışıq və səs kəsilmişdi: Uşaqdan böylə fövqəladə oynamaq görünməmişdi. Qaraca qız böylə eşqə gəlmiş ki, orada olan adamlar gözündən itmişdi. Ancaq öz ustadı olan Yasəmən gözünün önündə durmuşdu. Birdən Qaraca qız öylə bir tərzdə fırlandı ki, baxanlar nəzərində bir şar kibi görünürdü. Qəflətən Qaraca qız bir dizi üstə çökdü, əlinin birini qaval ilə yuxarı dutub, o birini də belinə qoyub durdu. Oyunu belə tamamlamağı Qaraca qızın şakəri idi. Qonaqlar bunu böylə gördükdə əvvəl oynamağın heyrətində olub bir müddət sakit dayandılar, sonra da qonaqlar tərəfindən alqışlanmaq səsi otağı götürdü. Sonra hamı təvəqqe etdi ki, bu oyunu təkrar etsin, amma Qaraca qız qəbul etmədi, hətta Hüseynqulu ağanın da sözünə baxmadı."

***"Zərafət kitabında:***

"Piri kişi balaca qızın Ağca xanım ilə gizlin görüşüb ülfət dutmasına əsla razı deyildi. O, bilirdi ki, **təkəbbür** bəyzadələrdən başqa qeyrilərini insan dərəcəsinə qoymayan Hüseynqulu ağa bu yetim qızı arvadının acığına Ağca xanımın yanına buraxır. O biri tərəfdən, bu sirr açıldıqda Pəricahan xanım Qaraca qızı qovacaq. Piri kişinin bir də narazılığı onda idi ki, Hüseynqulu ağa zinətli qaraçı libası tikdirib Qaraca qızı geyindirirdi və öz qonaqlıqlarında oynadırdı. Bunun üstündə Piri kişinin Hüseynqulu ağaya çox acığı tuturdu. Lakin qızı onun əlindən almaqdan aciz idi. Piri kişinin fikri yanlış deyildi. Belə ki, bir dəfə Hüseynqulu ağa böyük qonaqlıq edib çox adam çağırmışdı. Bu qonaqlıqda oxuyub çalan dəstəsi də vardı. Hüseynqulu ağa Qaraca qızın dalınca nökər göndərdi ki, gəlib oynasın. Bu vəqt Qaraca qıza soyuq dəydiyinə görə yerdə yatırdı. Piri kişi qızı getməyə qoymadı. Bu ittifaqdan sərxoş ağa artıq dərəcədə qəzəbnak olaraq ikinci dəfə nökəri göndərdi ki, qızı yerdən qaldırıb gətirsin. Piri kişi əlacsız qaldıqda Qaraca qız qalxıb qaraçı paltarını geydi və qavalını əlinə alıb yola düşdü."

**1934-cı ildə bir söz dəyişdirilib:**

"O bilirdi ki, **quduz** bəyzadələrdən başqa, qeyrilərini adam yerinə qoymayan Hüseynqulu ağa..."

**"Məktəb" jurnalında var. 1927-ci ildə çıxarılıb:**

Hüseynqulu ağa: "Əzizim, iki ay bundan əvvəl siz bənim qızımı görmüşdünüz ki, nə halda idi?! Özü zəif, arıq, deyəsiz ki, bir illik azardan imdicə qalxmışdı! Nə deyirdi, nə danışırdı, nə gülürdü... Diyəsən, qəm dəryasına batmışdı. Məgər o vəqt bənim dolanacağım pis idi, qızım yemək-içmək tapmayırdı və ya ona qulaq asan yox idi?! Xayır, bunların hamısı qabaqda da var idi, imdi də vardır. Bəs nə oldu ki, o zəif, həmişə qəmli bir qız imdi böylə sağlam, yanaqları lalə kibi qızarmış, bugünkü kibi oynayan və gülən oldu?! Hələ onun mahnı oxumasından xəbərin yoxdur. Bunların hamısına Qaraca qız səbəb oldu. Haman bu anasından gizlin olaraq onlar biri-biri ilə baba otağında görüşürdülər. Bu sirri təkcə bən bilirdim. Əzizim Pəricahan! Uşaq taifəsinə yeməkdən, içməkdən, geyməkdən, onların cümləsindən artıq yoldaş lazımdır, həmsər lazımdır ki, biri-birləri ilə oynayıb gülsünlər, deyib, danışsınlar! Uşaq taifəsinin bəy, xan, rəiyyət nələrinə lazımdır, onlar öz

təbiətlərinə tabedirlər. Bu sadəcə mətləbi bən elm oxumuş arvadıma anlada bilmirəm. O ki Qaraca qıza qaldı, bən bu vəqtə kibi ondan bir qorxulu və fəna xasiyyət görməmişəm. Bir sadə, rəhmdil el çocuğudur."

**"Məktəb" jurnalında var. 1927-ci ildə çıxarılıb:**

"...bircə Qaraca qızı şad edən Hüseynqulu ağanın onun ilə etdiyi rəftar idi. Pəricahan xanım şəhərə köçəndən sonra Hüseynqulu ağa tez-tez Piri kişi ilə söhbət etməyə gəlirdi və o vəqt Qaraca qız ilə mehriban danışıb deyərdi:

- Səbr et, Qaraca qızım, bir azdan sonra Ağca xanım yenə gələcəkdir. Bu dəfə kefiniz istədiyi qədər oynayıb gəzəcəksiniz!

Və bir də Hüseynqulu ağa hər dəfə şəhərdən gələndə Qaraca qız üçün Ağca xanımdan və öz adından sovqat gətirərdi."

**"Məktəb jurnalında var. 1927-ci ildə dəyişdirilib, Piri babanın dilindən verilib:**

"Hüseynqulu ağa həmişə bunları bir yerdə görəndə zarafat edib deyərdi:

- İki qaralar yaxşı tapışmışlar."

**"Məktəb" jurnalında var. 1927-ci ildə aşağıda seçilmiş cümlə çıxarılıb:**

Ağca xanım dostu Qaraca qızın ölümdən xilas olmasına çox şad olub, atasına yazdığı məktubun içində bir şahı iriliyində zərli bir kağız da qoymuşdu ki, bu da bənim tərəfimdən Qara köpəyə bəxşiş olsun. **Ağca xanımın bu fikri Hüseynqulu ağaya çox xoş gəldi, doğrudan da, Qara köpəyə dövlət tərəfindən medal verilməsini lazım bildi."**

**1927-ci ildə dəyişdirilib:**

***"Məktəb" jurnalında:***

"Ağalar qapıya çatdıqda hamı xidmətçilər qapıda cərgə ilə düzülüb – "Xanımlar, xoş gəlmisiniz!" – deyə baş endirdilər.

**"Zərafət" kitabında:**

"Ağalar qapıya çatdıqda xidmətçilər həyətdə cərgə ilə düzülmüş, zalım xanımın qorxusundan tir-tir əsirdilər. Bunların içində Piri kişi də vardı."

**"Məktəb" jurnalında var. 1927-ci ildə çıxarılıb:**

Ağca xanım anasının bu tənəsinə səbr edə bilməyib dedi:

- Bağışla, anacan, bənim dostum vağzala qədər yanıma gəlmişdi. Bən orada onun ilə görüşdüm.

Hüseynqulu ağa şaqqıltı ilə gülərək arvadına dedi:

- Hə, necəsən, payını aldınmı?!

- A, şeytanlar, yenə də bəni aldatdınız, deyə Pəricahan xanım özü də güldü. Hüseynqulu ağa arvadını könlü şad, fərahlı bir halda görüb fürsəti fövtə etmədi və dedi:

- Pəricahan! Sənə bir təvəqqem var, qəbul etməyini söz ver, deyim!

- Söz verirəm, de!

Hüseynqulu ağa dedi:

- Ağcanın ancaq on gün asudə vaxtı var. On gündən sonra onu quş qəfəsinə salan kibi hasarlı məktəbin havasız otağına salacaqlar. Daha bu gözəl havanı, yaşıl bağları, şırlayan suları görməyəcəkdir. Səndən təvəqqe edirəm ki, bu on günü ona azadəlik verib Qaraca qız ilə kefi istədiyi qədər oynamağa, gəzməyə mane olmayasan. Budur bənim səndən təvəqqem!... Pəricahan xanım bir az dayanıb dedi:

- Qoy sən deyən kibi olsun, rüxsət verdim!

Bu cavabından hamı şad oldu. Ağca xanım şadlığından gahi anasını öpürdü, gahi atasını. Bu üzdən şad olanın bir də Piri kişi idi.

***Bu epizodun yerinə əlavə olunub:***

“Ağca xanım anasının bu tənəsinə səbir edib, sirrin üstünü açmadı. Sabahı gün Mariya İvanovna da gəlib çıxdı. Ağca xanımın buraya gəlməkdə məqsədi Qaraca qız ilə gün keçirmək idi. O da mümkün olmadığından çox bikef və qəmgin idi.”

**1927-ci ildə böyük hissəsi çıxarılmaqla dəyişdirilərək növbəti hissəyə əlavə edilmişdir.**

**“Məktəb” jurnalında:**

- Qızım, neyçün kefsizsən, bir şey olmamış ki?
- Yox, baba!
- Bəs neyçün qəmginsən?
- Özüm də bilməyirəm, baba!
- Gözlərini yum, yuxula, qızım!
- Yuxum gəlməyir, baba, yürəyim sıxılır!
- Qoy sənin üçün nağıl söyləyim, qızım, bəlkə yuxun gələ!

Piri kişi Qaraca qızın başını sığallayıb başladı:

- Qızım, biri var imiş, biri yox imiş, Bir padşah var imiş. Bu padşahın dünyada övladsızlıqdan başqa bir qəm və qüssəsi yox imiş...

- Baba, bən ölsəm, ağlarmısan?

- Allah eləməsin, qızım, öləsən, neyçün öləsən?

- Baba, bən ölsəm, bəni o göy təpədə basdırınız! Oranı bən çox sevirəm: Oradan hər yer görünür; orada hər cür çiçək bitir. İmdi o çiçəklərin hamısı solmuşdur. Biz bu gün orada oynayırdıq.

- Sən neyçün ölürsən, qızım? Sən yaşayıb, bən qoca babanı o dediyin təpədə basdıracaqsan; Sonra böyükləşib ora gedəcəksən, uşaqların olacadır! Sonra bənim kibi qocalıb qarı olacaqsan! Nəvələrinə vəsiyyət edəcəksən ki, bəni göy təpədə Piri babanın yanında basdırınız. İmdi, qulq as. Qızım, nağılın dalını söyləyim!

Bir günü bu padşah öz arvadı ilə eyvanda əyləşdiyi zaman bir dərviş orada hazır olub dedi:

- Ey padşahi-dövran! Bilirəm, sizi qəmgin edən nədir? Bu əlimdəki almanı görürsünüzmü? Bunu ortasından tən böl, yarısını özün ye və yarısını arvadın! Sizdən bir oğlan dünyaya gələcəkdir. Onun adını Məlik Məmməd qoyarsınız! O, bu alma parası kibi, yarı sənə, yarı arvadına oxşayacaqdır! Bunu deyib dərviş almanı padşaha atdı və özü də yox oldu...

Piri kişi gördü ki, Qaraca qız yuxuya getmişdir, ona görə də nağılını kəsdi və özü də yerinə girib rahat oldu.

***“Zərafət” kitabında bu hissə dəyişdirilərək finala əlavə edilmişdir:***

Piri kişi Qaraca qızı soyundurub rahət etdi. Ona tez-tez ayran verirdi. Lakin yaranı sorduqda zəhər tüpürcək vasitəsilə Qaraca qızın bədəninə yerimişdi. Bununla belə, Piri baba Qaraca qızdan ümidini kəsməmişdi. Lakin öz canını özgə uğrunda fəda etmiş qızcığazın vəqti tamam idi.

- Baba, mən ölsəm, məni o bağmızın yanındakı göy təpədə basdırınız. Oranı mən çox sevirəm. Oradan hər yer görünür. Orada hər cür çiçək var.

- Qorxma, qızım, həkim gəlib sənə dərman verəcək. Sən də sağalacaqsan, uzun yaşayacaqsan. Mən qoca babanı o dediyin göy təpədə basdıracaqsan.

**“Məktəb” jurnalında var. 1927-ci ildə çıxarılıb:**

“Pəricahan xanım: “Qaraca qızım, səni öz qızımdan artıq sevməyə söz verirəm, Qoyma Ağca ölsün.”

**1927-ci ildə dəyişdirilib:**

***“Məktəb” jurnalında:***

- Dur gedək, qızım, komamıza, görüm sənə nə çarə edirəm.

Pəricahan xanım dedi:

- Baba, sən Allah, öylə etmə, qoy burada yatsın, bir azdan Hüseynqulu ağa da həkim ilə gələcək.

Bu təvəqqeyə Ağca xanım da şərik oldu.

Piri kişi razı oldu. Qaraca qıza da Ağca xanımın yanında yer salıb yatırtdılar. Getdikcə Qaraca qızın əhvalı xarablaşırdı. Piri kişi tez-tez ayran qayırıb ona verirdi. Sonra Qaraca qızın yüzü şişməyə başladı. Hüseynqulu ağa gəlib çıxan zaman Qaraca qızın boğazı şişib nitqdən kəsilmişdi. Həkim hər iki azarlıya baxdıqdan sonra dedi:

- Ağca xanımın heç bir qorxusu yoxdur. İlanın zəhərini bədənə yayılmamış rədd etməyə görə ölümdən xilas olmuşdur. O ki qaldı Qaraca qıza, onun əhvalı çox fənadır, çünki ağzında yarası olduğu cəhətinə zəhər qana qarışıb bədəninə yayılmışdır.

Bu xəbər hamını məyus etdi. Pəricahan xanım ağalaya-ağla-ya dedi:

- Amandır, qoyma bu qız ölsün, əlindən gələn səyi müzayiqə etmə!

- Xanım, bu qızın dirilməsi çətindir. Ümid bir Allaha qalmışdır.

Pəricahan xanım dizi üstə çöküb dua etməyə başladı.

Piri kişi həqir bir nəzərlə ona baxıb dedi:

- Böylə olan surətdə yazıq Qaraca qızımı komaya aparım, burada qalsa, xanıma əziyyət edər!

Bu sözlər Pəricahan xanımın yürəyinə ox kibi sancıldı.

- Yox, qoymaram, qoymaram, - deyə hönkürtü ilə ağlamağa başladı.

Amma həkim də Piri kişinin fikrinə şərik oldu. Ona görə Qaraca qızı komaya apardılar. Hərçənd həkim onun sağalmasından ümidini kəsmişdi, amma böylə ittifaqlarda lazım gələn köməklərin hamısını əmələ gətirdi. Komada həkimdən və Piri kişidən başqa Hüseynqulu ağa da var idi.

Bu rəhmdil kişi öz qızının bu qayda ilə sağ qalmasına razı deyil idi. Qaraca qızın yastığı yanında çöküb səmim qəlb ilə Allahdan bu qərib yetimin sağalmasını rica edirdi. Lakin öz canını özgə uğrunda fəda etmiş Qaraca qızın vəqti tamam idi!...

Dolmuş gözlərini açdı, günəşin şüalarına bir müddət baxdı, sonra gülümsündü, gözlərini yenə yumdu! Qaraca qız öldü!..

- Komamın bülbülü uçub getdi!... – deyə Piri kişi göz yaşını tökdü.

***“Zərafət” kitabında:***

“- Gəl, qızım, gedək. Görüm sənə nə çarə edə bilirəm. Sonra üzünü xidmətçilərə tutub dedi:

- Cəld gedin mənim komamdan qatıq gətirin, ayran edib qıza içirdim.

- Baba, bu saət, - deyə xidmətçilər yürüşdülər.

- Baba, sənə yalvarıram, Qaraca qızı aparma. Qoy burada yatsın. Teleqram vurmuşam, Hüseynqulu ağa şəhərdən həkim gətirəcəkdir. – Bunu deyərək Pəricahan xanım onun qabağını kəsdi.

- Çəkil, sən imdiyə kibi bu qızı ağalığın ətrafına dolanmağa qoymamısan ki, bəyzadə qızına pis xasiyyətləri təsir edər. İmdi də bən onun bu zülm yuvasında qalmasına razı deyiləm. - Bunu deyərək Piri baba Qaraca qızın əlindən tutub apardı.

***

Piri kişi Qaraca qızı soyundurub rahət etdi. Ona tez-tez ayran verirdi. Lakin yaranı sorduqda zəhər tüpürcək vasitəsilə Qaraca qızın bədəninə yerimişdi. Bununla belə, Piri baba Qaraca qızdan ümidini kəsməmişdi. Lakin öz canını özgə uğrunda fəda etmiş qızcığazın vəqti tamam idi.

- Baba, mən ölsəm, məni o bağmızın yanındakı göy təpədə basdırınız. Oranı mən çox sevirəm. Oradan hər yer görünür. Orada hər cür çiçək var.

- Qorxma, qızım, həkim gəlib sənə dərman verəcək. Sən də sağalacaqsan, uzun yaşayacaqsan. Mən qoca babanı o dediyin göy təpədə basdıracaqsan.

Hüseynqulu ağa həkim ilə gəlib çıxdı. Həkim Ağca xanıma baxdıqdan sonra dedi:

- Ağca xanımın heç bir qorxusu yoxdur. İlanın zəhəri bədəninə yayılmamış rədd etməyə görə ölümdən xilas olunmuşdur. Bir qədər hərarəti var. Ona da dərman verərəm, yaxşı olar.

Bu xəbərdən ata və ana çox şad oldular. Sonra həkim ilə bərabər Piri babanın daxmasına getdilər. Qaraca qızın qan ilə dolmuş gözləri yumulmuşdu. Həkim ona baxdıqdan sonra dedi:

- Xəstənin halı çox fənadır, çünki soran zamanı zəhəri udmuşdur, o qanına qarışıb bədəninə yayılmışdır. Sağalması müşküldür.

Bu xəbərdən Piri kişi məyus olub dedi:

- Həkim, öz balasını ölümdən xilas etmək üçün başqa bir balanı ölümə verən qadına nə deyərlər?

- Sus, qoca köpək, mənim qızımı bir qaraçı qızına taymı edirsən, - deyə Hüseynqulu ağa hayqırdı.

Həkim onları sakit edib gətirdiyi dərmanı Qaraca qıza içdirdi və Piri kişiyə tapşırdı ki, bundan xəstəyə tez-tez versin.

- Baba, məyus olma. Qız çox sağlamdır. Ümidvaram ki, sağalar, - deyə həkim ağalar ilə bərabər getdi.

**"Məktəb" jurnalında var. 1927-ci ildə çıxarılıb:**

- Xudaya, böyük ruhun xatirinə müqəssir valideyni əff et! – deyə Hüseynqulu ağa dua etdi.

Bu xəbər bir dəqiqədə ağalığa yayıldı və cümləni qəmgin etdi. Pəricahan xanım dutduğu əməldən peşiman olub qız ilə bərabər yanıqlı-yanıqlı ağlayırdı. Qaraca qızın vəsiyyətini əmələ gətirdilər: Onu Göytəpədə dəfn etdilər.

Hüseynqulu ağa Qaraca qızın qəbrinin üstündə böyük bir nişangah tikdirdi və baş daşının üstündə yazını öz dostu Ağca xanımın uğrunda fəda etdiyini yazdırdı ki, bu böyük fədakarlıq baqi qalsın.

Вторникъ, 22 Октября 1913 г. (3-й годъ изданія.) ذی‌الحجه ۱۳۳۱، ۲۲ اوقتیابر ۱۹۱۳

# مکتب

نومرو ۱۵

قیمتی ۱۲ قپك

№ 15

Цѣна 12 к.

**МЕКТЕБЪ—ШКОЛА.**

Выходитъ два раза въ мѣсяцъ.

هر اون بش گونده بیر دفعه نشر اولنان اوشاقلره مخصوص مصور، ادبی، فنی، علمی مجموعه‌در.



اطفاله قبله‌گاه آنالر قوجاغیدر.

زیرا او، بیر وفا و مروت اوجاغیدر.




## QARACA QIZ
## (“Məktəb” jurnalı, 1913-cü il, №- 1 - 22)

Axşam çay süfrəsində əyləşən zaman Hacı Səməd qızı Fatimənin başını sığallayıb dedi:

- Qızım, söylə görək məktəbdən nə tazə xəbər gətirmisən?

Fatimə:

- Ata, bu gün dərs arasında həyətdə dəstə-dəstə olub qar ilə oynayırdıq. Gövhər, Zeynəb və Səltənət bir dəstə olub, qardan adam yapırdıq. Nabat da istədi biz ilə oynasın, mən razı oldum, amma yoldaşlarım razı olmadı. Nabat çox çirkin və gözləri də çəp olmağa görə heç kəs onun ilə dostluq etmiyordu; ələlxüsus Gövhər onu sevmiyordu. Nabat kənarda durub bizə məzlum-məzlum baxıyordu. Birdən Gövhərin ayağı sürüşüb yerə yıxıldı və başı daşa dəyib qanadı. Bunu görcək hamıdan tez Nabat Gövhəri qucaqlayıb gözləri yaşlı dedi:

- Ağlama, bacım, qoxma, heç zad olmaz.

Gövhər bunu görüb dedi:

- Ah, sən nə gözəl yoldaşmışsan! Mən bilməmişəm, əfv et! Bunu deyib Nabatı qucaqladı və öpdü. Bu ittifaq bizə çox artıq təsir etdi.

Hacı Səməd dedi:

- Qızım, insanın zahirinə baxma, batininə bax! Türkdə bir məsəl var, deyərlər ki, "Ətə baxma, dona baxma, içindəki cana bax!" İndi Qaraca qızın hekayəsini söylərəm, özün görərsən. Atalarından bunu eşitcək bacı və qardaş sevinə-sevinə nağıla müntəzir dayandılar. Hacı Səməd ruznaməni yerə qoyub çeşməyi gözlərindən çıxartdı və başladı:

- Qızım, Qafqaz şəhərlərinin birində usta Səttar adlı bir sərrac öz arvadı Şərəfnisa ilə yaşıyor idi. Bunlar İran əhli idilər, öz vilayətlərində məişətləri məşəqqət ilə keçməgə görə vətənlərini buraxıb buraya gəlmişdilər. Usta Səttar sərraclıq edib külfətini birtəhər dolandırırdı. Usta Səttarın övladdan yalnız altı yaşında Tutu adlı bircə qızı var idi. Tutu çox qara və çirkin idi. Anası ona körpə vaxtından "Qaraca qız" deyib çağırdığına görə əsl adı unudulub, hər kəs onu bu ad ilə çağırırdı. Qaraca qız çox nadinc idi və özü qız taifəsi ikən qızlar ilə oynamağı sevməzdi. Həmişə oğlan uşaqları ilə oynayardı. Uşaqlar Qaraca qızdan qorxardılar; çünki o, çox cürətli idi və yumruğunun da qabağında heç kəs dura bilməzdi. Qaraca qız həmişə zəifin tərəfini dutar idi. Qaraca qızı ata-anası nadincliyi üçün nə qədər döyərdilərsə də, əsla ağlamazdı. Anası ondan qonşulara şikayət edib deyərdi:

- Qaraca qızı su batırmaz, od yandırmaz.

Amma bunun ilə belə Qaraca qız çox rəhimli, səxavətli qız idi: hər nə əlinə düşsə idi, yoldaşları ilə bölüşərdi.

Usta Səttar sakin olduğu şəhərdə tez-tez zəlzələ olardı. Bir qış haman şəhərdə böyük zəlzələ olub, çox ev uçurdu. Bir dəfə zəlzələ gecə yarısı xalq şirin yatan zaman ittifaq düşdügünə görə çox adam çökmüş evlərin altında qalıb tələf oldu. Səhər açıldıqda ətraf və əknafdan xalq tökülüb şəhərə

kömәgә gәldi. Adamlar dәstә-dәstә әllәrindә kürәk, bel, külüng, uçuqları qazmağa başladılar. Ata oğulu, oğul atanı, qardaş bacını sәslәyә-sәslәyә daş torpağı ayırırdılar. Bir dәstә dә usta Sәttar olan evi qazırdı. әvvәlcә Şәrәfnisanın, bunun dalınca usta Sәttarın meyiti çıxdı. Bir az da qazandan sonra bir deşik açıldı, buradan bir balaca qız, üst paltarsız sıçrayıb çıxdı. Bu qız haman Qaraca qız idi. O, ata-anasının meyitini görüb ağlamağa başladı. Hәr kәs öz qohum әqrabasını aramağa mәşğul olub, Qaraca qızın qeydinә qalan yox idi. Zәlzәlә ittifaq düşәndәn iki gün qabaq bir dәstә qaraçı bu şәhәrin kәnarında çadır qurub düşmüşdü. Haman dәstәdәn bir qaraçı arvadının Qaraca qıza yazığı gәlib çadırlarına apardı vә orada ona yemәk vә paltar verib ocağın qırağında oturtdu. Qaraçılar Qaraca qızın yetim qalmağını vә onun burada heç bir kәsi olmayıb qәrib olduğunu bilib öz yanlarında saxlamağa naçar qaldılar. Qaraca qızı qızlığa götürәn qaraçı arvadı Yasәmәn igirmi yaşında gözәl camallı, yumşaq tәbiәtli şad yürәkli bir cavana idi. Xasiyyәti cәhәtinә Yasәmәni hamı sevәrdi, amma onun әri Yusifi heç kәs sevmәzdi, çünki o, çox bәdxasiyyәt, tündmәcaz, zalım bir şәxs idi. Yasәmәn fala baxmaq ilә qaval çalıb oxumaq vә oynamaq ilә pul qazanıb dәstәyә xeyli mәnfәәt verәrdi. Yusif dә ayı oynadıb qapı-qapı gәzәrdi. Yasәmәn Qaraca qızı çadıra gәtirәn zaman әri Yusif orada yox idi, çünki dәstәnin bir hissәsi onun ilә bәrabәr sübh tezdәn buradan çıxıb yola düşmüşdülәr. Yerdә qalanları getmәyә yığışırdı. Yasәmәn әrindәn çox qorxurdu,  ona görә bilmirdi ki, әri Qaraca qızı qәbul edәcәk, ya yox. Bunun üçün Yasәmәn iztirabda idi.

Qaraçı dәstәsinin yerdә qalnı da yola düşdü.

Yasәmәnin iztirabı bihudә deyil imiş; çünki dalda qalan dәstә gәlib qabaqdakına çatdıqda Yusif әhvaldan xәbәrdar olub çox hirslәndi vә bir kәndә çatan kibi Qaraca qızı orada atmağına söz verdi. Yasәmәn әrinә yalvardı ki, o, böylә işi

etməsin, lakin Yusif ona qulaq asmadı. Qaraca qız isə yürəgində bu işə şad idi; çünki Yusifdən qorxurdu və qorxmağa da haqqı var idi: Yusifin heybətli sifəti və ələlxüsus qara və parlaq gözləri nəinki uşağı, hətta böyük adamı da qorxuya salırdı. Yasəmən ərinin tamahkarlığını bilirdi, ona görə gələcəkdə Qaraca qızın onlara böyük mənfəət verməyini söylədi:

- Bilirsənmi mən nə fikirdəyəm? Mən Qaraca qıza mahnı oxumaq, özüm kibi oynamaq öyrədəcəgəm və o üst başını bəzəyib, kəndlərdə, şəhərlərdə oynadacağam.Sənin üçün pul yığacağam.

Bu fikri Yusif bəyənib Qaraca qızın dəstədə qalmasına razı oldu. Bivətən qaraçıların məişətini Qaraca qız çox bəyəndi, bu gün burada, sabah bir tazə yerdə, çay qırağında, meşə kənarında mənzil edib çadır qurma, ocaq çatıb xörək bişirmə, bir yerdə mahnı oxuma, nağıl söyləmə, bunların hamısı Qaraca qıza çox xoş gəlirdi. Əvvəl vəqtlər Qaraca qız Yusifin ayısından qorxurdu, amma sonralar öyrənib, onun ilə çox dost olmuşdu. Ayı da onun ilə oynamağı sevirdi. Yasəmən Qaraca qızı, ərinə söz verdiyi kibi, yaxşı geyindirib, oxumaq və oynamaq öyrətmişdi. Tamaşaçılar Qaraca qızın gözəl səsinə və oynamağına təəccüb edib heyrətdə qalırdılar. Qaraca qız balaca qavalını açıb tamaşaçılara tərəf dutanda dərhal onun üçün pul ilə dolurdu. Bu isə Yasəməni artıq şad edirdi. Yusif bu barədə arvadından və Qaraca qızdan razı idisə də, yenə hər ikisini xasiyyətinin pisliyindən çox incidərdi.

Qaraca qızın təbiətində inadcıllıq var idi. Bu xasiyyətinə görə Yusifdən nə qədər kötək yeyirdisə də, yenə tərsliyindən əl götürməyirdi. Qaraca qız ancaq Yasəmənin sözündən heç vaxt çıxmıyordu. Çünki Yasəmən onunla çox məhəbbət və mehribanlıq ilə dolanıyordu. Yusif Qaraca qızın tərsliyinə təəccüb edib arvadına diyordu:

- Bu zorbalıqda ayı bənim qamçımın qorxusundan hər cür oyun çıxardır, amma bu balacalıqda qızın əlində aciz qalmışam!

Yasəmən ona böylə cavab veriyordu:

- Bunun səbəbi odur ki, ayı heyvandır, bu isə insandır!.. Heyvan ilə edilən rəftar insan ilə ediləməz. Heyvana yoğun çubuq lazım isə, insana məhəbbətli rəftar, dadlı və mehriban söz lazımdır!

Cahanda qafil olmuşam,
Zəlil, cahil olmuşam,
Avam qoymuşam səni,
Bağışla, sevgilim, bəni!..

Yusif arvadının bu doğru sözünə inanmayıb diyordu:

- Yox, bu bir səbəb deyildir, sən olmasan, bən onu iki günün ərzində mum edərəm! Ər ilə arvadın arasında böylə söhbətin nəticəsi o olardı ki, Yusif Qaraca qızı daha da artıq kötəklərdi.

Qaraca qız bu zülmdən xilas olmaq üçün neçə dəfə qaçmaq fikrinə düşmüş idisə də, yenə axırda ancaq Yasəmənin xatiri üçün fikrini əmələ gətirməmişdi.

Bir ildən artıq idi ki, Qaraca qız qaraçı dəstəsində yaşayıb, mahnı oxumağı və oynamağı ilə ətrafda məşhur olmuşdu. Hər kəs Qaraca qızın oxumaq və oynamasını bəyənib, tərif edərdi. Yusif Qaraca qızı çox incidəndə Yasəmən onu qorxudub diyordu:

- Bu zavallı qıza nə çox əziyyət verirsən?! Axırda bu qız səni qoyub qaçar və sənin də əlin böylə böyük mənfəətdən çıxar.

Bu sözlər həmişə Yusifə təsir edib, Qaraca qızı bir müddət döyülməkdən çəkinərdi.

Yayın orta ayı idi. Günün istisində insanlar, heyvanlar, quşlar cümləsi kölgə yer və sərin su arayırdılar. Qaraçı dəstəsi bir dağ üzərindən axan çayın kənarında çadırlarını qurub, mənzil etmişdi. Günorta vaxtı idi. Qaraçıların hamısı bir işə məşğul idi. Yusif ayısını götürüb yavuq kəndə getmişdi. Yasəmən çayın qırağında su qızdırıb, paltar yuyurdu. Çay dağ döşündən gəldiginə görə xeyli iti və səs ilə axırdı. Amma suyu az olduğundan Qaraca qız üçün qorxusu yox idi. Yasəmən paltarı yuyub kolların üstünə sərdi ki, qurusun; özü də başını yumaq fikri ilə uzun və qara saçlarını hörükdən açıb döşünə tökdü. Yasəmən Qaraca qızı səslədi ki, gəlib onun başına su töksün. Qaraca qız iki arşın ucalıqdan tökülən şəlalənin altında durub çimdiginə görə Yasəmənin səsini eşitmədi. Bir azdan sonra Yasəmən Qaraca qızı bir də çağırdı, bu səfər də cavab almadı. Yasəmən saçlarını döşündən yığıb belinə atdı; bu halda qulağına çay tərəfdən sel gurultusu gəldi. Bunu eşitcək Yasəmən dik atılıb çaya tərəf yügürdü. O vaxt Qaraca qız hələ şəlalənin altındaydı. Yasəmən çayın yuxarısından daşları və kolları yumalaya-yumalaya, gurultu və nərilti ilə gələn seli görüb, var gücü ilə qışqırdı:

- Bacım, tez ol qaç, sel gəlir!

Qaraca qız Yasəmənin səsini eşidib, şəlalənin altından çıxdı, ancaq bir neçə addım qoymuşdu ki, sel onun üstünü cəllad kibi aldı.  Yasəmən işi böylə gördükdə alıcı quş kibi özünü çaya atdı. Yasəmən özünü Qaraca qıza yetirincə sel qızı götürdü və bir neçə saniyə suda itirdi. Bir az sonra qızın başı göründü. Yasəmən özü də bir neçə dəfə suya batıb çıxandan sonra üzüb Qaraca qıza çatdı və saçlarından dutub çiyninə aldı. Hərçənd Yasəmən çox yüzücü idi, amma bu iti axan, daşları, böyük kolları yumalayan seldə üzmək mümkün deyil idi. Qaraçılar Yasəmənin qışqırığını eşidib köməyə töküldülər; sel getdikcə artırdı. Axırda sel bunları bir böyük daşa çırpdı. Qaraca qız Yasəmənin əlindən çıxıb daşın üstün-

də qaldı, amma onun özünü sel götürüb yüzü aşağı axıtdı. Qaraçılar suya tökülüb hər ikisini sudan kənara çıxartdılar. Bunların ikisi də bihuş qalıb, yerə sərilmişdi. Yüzlərinin rəngi ölü rəngi kibi idi. Qaraçılar xeyli çalışdıqdan sonra hər ikisini huşa gətirdilər. Qaraca qızın bədəni bir neçə yerdən daşlara dəyib qaralmış idisə də, bir qorxusu yox idi. Amma zavallı Yasəmənin başı bir neçə yerdən yaralanmışdı. Lakin rəhmdil olan bu cavan arvad özünə gələn kibi yaralarını unudub Qaraca qızı sordu. Qaraçılardan biri Qaraca qızı qucağına götürüb Yasəmənə göstərdi.

- Bax, Yasəmən, budur, Qaraca qız sağdır, arxayın ol. Yasəmən –Allah, sənə şükür – deyib dua etdi. Sonra yenə bihuş olub, gözləri yumuldu. Qaraçılar Yasəmənin yaralarını sarıyıb Qaraca qız ilə bir yerdə çadırlarına apardılar və hər ikisinə yer salıb rahət etdilər. Axşam Yusif gəlib evə çıxdı və yoldaşlarından bu xəbəri eşidib, çox qəzəbləndi və dedi:

- Bən bilirdim ki, bu, uçuqdan çıxmış qız axırda bizim başımıza bəla gətirəcəkdir! Qaraçılar Yusifi sakit edib dedilər:

- Allahın köməkliyi ilə heç zad olmaz. İmdi hər ikisinə rahətlik lazımdır; durun bayıra çıxaq ki, səs-küy olmasın. Burada yalnız Yasəmənin sevdiyi Hüsniyyə qalar. Hüsniyyəyə yüzlərini tutub dedilər: - Hüsniyyə, sən qal, bunlara qulluq et! Qaraçıların cümləsi Yusif ilə bərabər bayıra çıxdılar, çadırda ancaq təkcə Hüsniyyə qaldı. Bu Hüsniyyə Yasəmənin istəkli dostu və həmsirri idi. Qaraca qız tamam gecəni ufultu və zarıltı ilə keçirib sübhə yavuq yuxuya getdi, amma Yasəmən qızdırma içində sərsəm edərək bir dəqiqə rahət olmadı. Vəfalı Hüsniyyə rəfiqəsinin yanını kəsdirib, səhərə kibi gözlərini yummadı. Yasəmənin qızdırması getdikcə artırdı. Səhər açıldıqda hərarəti 40 dərəcəyə çatdı. Zavallı Yasəmən qızdırmanın əsərindən tora düşmüş quş kibi yerində çabalayırdı. Yasəmənin gözləri həmişə yumulu idi.

Gecə yağış yağmağa görə səhərin havası çox saf və təmiz idi. Dünənki bəlanı törədən çaylağın suyu imdi enib əvvəlki halına düşmüşdü. Onun həzin şırıltısı, quşların cəh-cəhi və qülqüləsinə qarışmışdı. Qaraca qızın sevgili şəlaləsi günün şöləsindən parıldayırdı. Axırda Yasəmən gözlərini açdı. Biçarənin lalə kibi yanaqları solub, zənbəq rənginə düşmüşdü. Yasəmən Hüsniyyəni tanıdı. Zəif səs ilə ona dedi:

- Hüsniyyə, Yusif haradadır?

- Bayırdadır, bacım, çağırımmı?

- Çağır, hamını çağır... Ölürəm...

- Qorxma, bacım, ölməzsən, bu gün haradan olmuş olsa, sənin üçün həkim tapıb gətirdəcəgəm! – bunu deyib Hüsniyyə bayıra çıxdı və bir azdan Yusif başqa qaraçılar ilə bərabər içəri girdi. Qaraçılar Yasəmənə yürək verirdi. Yasəmən dedi:

- Yox, əzizlərim, bən ölürəm!.. Yusif, əlini bənə ver!.. Vəsiyyətimə qulaq as... Əmələ gətirməyə söz ver!..

Bir az dayanıb, yenə tazədən başladı:

- Yusif, budur, dörd ildir ki, sənə övrətəm! Bu vəqtə kibi səndən dögüşdən, sögüşdən başqa bir şey görmədim... Cavan ömrümü çürütdün... Bənə bin zülm və cəfa etdin. Bunların hamısını sənə halal edirəm! Ancaq sən də bənə söz ver ki, bundan sonra Qaraca qız ilə mehriban dolanıb, onu incitməyəcəksən!..

Yasəmən səsini kəsdi. Çadırda bir müddət xamuşluq oldu. Sonra Yusif dedi:

- Bu yoldaşlarımızın hüzurunda vəsiyyətini yerinə yetirməyimə söz verirəm, övrətim! Sən bəni bağışla, sənə çox əziyyət vermişəm!

Bu sözlərdən Yasəmənin üzü şad oldu və Hüsniyyəyə dedi:

- Bacım, Qaraca qızı sənə və səni də Allaha tapşırıram. Ondan müqayyəd ol!.. Ah! Gözlərimə qaranlıq çökür!.. Boğurlar... Yusif.. Hüsniyyə... Qaraca qız!..

Yasəmən canını Xudayaya təslim etdi.

***

Yasəmənin vəfatından sonra Yusif arvadına verdiyi əhdə bir müddət vəfa etdi, amma sonra təbiətində qoyulmuş fəna sifətləri yenə aşkar olmağa başladı. Hüsniyyə bacardığı qədər Qaraca qızı Yusifin zülmündən mühafizə edirdi. Ancaq iş orada idi ki, Yusif Yasəmənin vəfatından sonra Qaraca qız ilə pul qazanmaq üçün hər gün səhər mənzildən çıxıb bir də axşam qayıdırdı. Hüsniyyə zavallı yetimin yüzünə baxanda sualsız da anlayırdı ki, o biçarə Yusifdən nə zülm və əziyyətlər çəkir. Axır vaxtlarda Yusif bir pis əmələ də mürtəkib olmuşdu. Böylə ki, əlinə pul düşən kibi içib məst olurdu və hər kəs qabağına düşürdüsə, onun ilə söyüşüb, savaşırdı.

Yusifin böylə vəqtlərində Qaraca qızın günü daha da qara olurdu.

Bir dəfə Yusif və Qaraca qız yol ilə gedirdilər. Bunlar bir dəstə atlı cavan oğlanlara rast gəldilər. Bu cavanlar şəhərə toya gedirdilər. Bunlar Yusifgilə təklif etdilər ki, bir az çalıb oxusunlar. Yusif razı oldu. Qaraca qızınoxuyub-oynamağı cavanların o qədər xoşuna gəldi ki, onlar biri-birinin acığına Qaraca qızın qavalını ağ və qara pul ilə doldurdular və sonra:

\- Sağ ol, çox yaşa, Qaraca qız! – deyib atlarını sürdülər. Yusif çox şadlıq ilə Qaraca qızdan pulları alıbcibinə tökdü və dedi:

\- Gəl, qızım, sən ayı ilə o kölgədə əyləş, bən də gedim o görünən kənd, çörək və sənin üçün də fındıq və kişmiş alım.

Bu xəbərdən Qaraca qız əsla şad olmadı. Bilirdi ki, bu görünən kənd erməni kəndidir və Yusif də oraya içməgə gedir. Amma bunun ilə böylə bir söz demədi.

Bunlar yoldan kənara çıxıb bir kolluğa tərəf yüz qoydular. Yusif bir böyük kol seçibayını oraya bağladı və Qaraca qıza dedi:

- Otur burada, ağıllı qızım! Bu saət gələcəyəm. Yusif getdi.

Qarca qız da kölgədə uzandı və bir azdan sonra şirin yuxuya getdi. Ayı bir müddət sakit uzandı, sonra durub zəncirini dartmağa başladı. Kolun budağı ayının gücünə davam etməyib qopdu. Ayı özünü asudə görüb bir müddət kolluqda gəzdi, sonra yüzünü meşəyə tərəf dutub getdi. Yusif kəndə getdiyi vəqtdən yarım saət keçmişdi. Qaraca qız yuxudan hələ oyanmamışdı. Axırda Yusif məst halında o tərəf bu tərəfə yırğalana-yırğalana gəlib çıxdı. Yusif Qaraca qızı yatmış görüb və ayını öz yerində tapmayıb ayağı ilə Qaraca qızı öylə bərk vurdu ki, yazıq qız dik ayıldı.

- De görüm, ayı hanı, mürtəd qızı, mürtəd?

Qaraca qızın qorxudan dili dutuldu, cavab verə bilmədi.

- Hələ dayan! Qoy ayını tapım, sənin payını sonra verəcəgəm!

Yusif kola diqqət ilə baxıb gördü ki, ayını bağladığı budaq qopub və özü də yoxdur. Anladı ki, ayını oğurlamamışlar, özü kolu qoparıb meşəyə qaçmışdır. Bu vəqt yüzünü Qaraca qıza tərəf dutub dedi:

- Düş qabağıma, ayı meşəyə qaçmışdır, gedək tapaq!

Qaraca qız titrəyə-titrəyə yola düşdü.Yusif yol uzunu gələ Qaraca qızı sögüb qorxudurdu, gah da özü-özü ilə danışırdı. Bunlar bir saətə qədərmeşəni dolandılar, amma ayıdan bir əsər görmədilər. Birdən Qaraca qızın qulağına ayının bağırtısı gəldi.

- Eşidirsinizmi, əmi, bu tərəfdən ayının bağırtısı gəlir!

- Heç zad eşitməyirəm, yalan deyirsən!

- Bax! Bax! Yenə bağırır!

Bu dəfə Yusifin özü də eşitdi.

- Doğru deyirsən, bağıran ayıdır!

Hər ikisi səs gələn tərəfə yüz dutub getdilər; ancaq səs meşəyə düşməyə görə ayının yeri yavuq görünürdü, amma

həqiqətdə böylə olmayıb, ayı xeyli uzaqda idi. Axırda gəlib ayını tapdılar. Ayı zənciri ilə ağaca dolaşıb dartınırdı və bağırırdı. Yusif ona çatan kibi hirsindən və acığından ayını azad etməmiş əlindəki ağacı ilə onu dögməgə başladı. Ayının bağırtısı meşəni başına götürdü. Axırda ayı dartındığı halda xaltası başından çıxdı və ildırım kibi özünü Yusifin üstünə atdı. Bir dəqiqə keçmədi ki, qızmış ayı sahibini parçaladı. Qaraca qız bunu gördükdə dəhşətli bir hal ilə qaçdı. Amma qorxudan özünü itirib yol əvəzinə meşənin ortasına tərəf qaçdı. Bir azdan sonra ayı Yusifin meyitini buraxıb Qaraca qızın dalınca düşdü. Bunu gördükdə zavallı qızın bədəninə titrəmə düşdü və var gücü ilə qaçmağa başladı. Getdikcə ayı Qaraca qıza yavuqlaşırdı.Bu halda Qaraca qızın qabağına bir uçurum dərə çıxdı. Qaraca qız dərədən endikdə ayı özünü ona çatdırdı. Ancaq ayı eniş aşağı qaça bilmədiyindən dərənin içinə yumbalandı. Qaraca qız fürsət tapıb özünü dərənin döşündəki mağaraya saldı. Bu mağaranın ağzı enli idi, amma içəri getdikcə daralırdı. Ayı dərənin dibinə kibi yumbalandı. Sonra ayağa qalxıb yüzü yuxarı dırmaşmağa başladı. Məlumdur ki, ayının dal ayaqları qısa olduğundan enişi pis və yoxuşu qüvvəli dırmaşırlar. Ayı axtarıb mağaranı tapdı və içinə girdi. Qaraca qız sürünə-sürünə özünü mağaranın dar bir yerinə saldı. Ayı isə onu bacarmadı və bir az donquldayıb mağaranın ağzında yatdı. Qaraca qız tərpənməyə də qorxurdu, ancaq onun qorxusunahaq idi, çünki imdi ayının hirsi yatmışdı, ona dəyməzdi və bəlkə də onun orada olmasına şad olardı.

İki saətdən artıq idi ki, Qaraca qız mağaranın içində yatıb qalmışdı. Biçarə qız ayının qorxusundan özünü mağaranın deşiyinə öylə pərçim etmişdi ki, tərpənməyə də amanı yox idi. Bir tərəfdən mağaranın içindəki havanın azlığı, digər tərəfdən də ayının vahiməsi zavallı qızı bihuşluq halına salmışdı. Ayı isə fısıldaya-fısaldaya yatmışdı. Birdən ayı oyanıb donquldamağa başladı, bu halda Qaraca qızın qulağına

çoxlu it səsi gəldi. Ayının da donqultusu artdı. Çox çəkmədi ki, itlər hürə-hürə mağaranın ağzını aldılar. Ancaq cürət edib içəri girə bilmədilər. Bir azdan atlı ovçular da qışqıra-qışqıra gəlib çıxdılar. Bunlar mağaranın içindən ayının bağırtısını eşidib tüfənglərini hazırladılar və itləri içəri qısqırtdılar. Onlardan bir neçəsi cürətlənib mağaranın içərisinə girdi. Ancaq çox çəkmədi ki, yenə zingildəyə-zingildəyə geri qayıtdılar. Onlardan bir-ikisi yaralanmışdı. Bu halda Avçılar bayırdan:

- Axdar, bas! Xallı, bas! Gümuş, bas! – deyə itləri qısqırdılar. Onlar da cürətlənib, yenə özlərini içəri soxdular və ayı ilə dutaşdılar. Ayı bir müddət bunlar ilə boğuşandan sonra mağaradan sıçrayıb çıxdı. Bu halda üç güllə birdən onun üzərinə açıldı. Bunların zərbindən biçarə ayı boğanaqdan yıxılan ağac kibi yerə sərildi. Bu halda bir adam qışqırdı:

- Afərin, bənim gülləm!

- Xeyr, Hüseynqulu ağa, səhv etmə, ayını öldürən bənim gülləmdir.

- Bağışla, Səlim bəy, bən ayını başından atmışım. Yəqin ki onu yıxan benim gülləmdir!

- Səbr edin, əzizlərim! Bu saət məlum olar. Bunu deyib əvvəlki adam atdan düşdü və nökərlərin köməgi ilə ayının cəmdəyini o yana-bu yana çevirdi və diqqət ilə baxmağa başladı. Sonra da dedi:

- Əzizlərim, heç bəhs etməyin, üçümüzün də gülləsi ayıya dəymişdir!

Sonra yüzünü nökərlərə tərəf dutub dedi:

- Cəld olun, ayının dərisini soyun!

Üzünü Rəhim bəyə çevirdi:

- Rəhim bəy, dedimmi ki, ayısız bu ovdan qayıtmayacağam? Öylə öz meşənizi tərif edib bəni məsxərə edirdiniz ki, sizin meşənizdə dovşan da tapılmaz! Pəs bu nədir?

Bu halda Rəhim bəy ayıya diqqət ilə baxdıqdan sonra dedi:

- Yenə, Hüseynqulu ağa, öz fikrimdə möhkəm durmuşam! Bu ayı meşə ayısı deyil, əldə bəslənmiş ayıdır.

- Öylə iş ola bilməz! Onu haradan bildin?

- Budur bax, ayının boynunun tüklərini zəncir aparmışdır, Səlim bəy, gör doğru diyorum, ya yox.?!

Səlim bəy baxıb Rəhim bəyin sözünü təsdiq etdi. Bundan sonra bəylərin hər ikisi qaqqıltı ilə gülməyə başıladı. Hüseynqulu ağa əvvəl dostlarının sözünü zərafət hesab etdi, amma sonra özü də diqqət ilə baxıb şəkkə düşdü. Bu halda həvəslənib av itlərinə qoşulan Hüseynqulu ağanın Qara köpəyi mağaraya girdi, bunun dalınca başqa itlər də getdilər və yenə içəridə hürüşmə başladı. Bunu gördükdə Hüseynqulu ağa dedi:

- Deyəsən, mağarada yenə ayı var?

Bəylər tüfənglərini hazırlayıb mağaranın ağzını kəsdirdilər. Bu halda Qara köpək Qaraca qızın ayağından dutub itlərin arasından onu sürüyə-sürüyə mağaradan bayıra çıxartdı. Bəylər bunu gördükdə təəccüb edib heyrətdə qaldılar.

Qara köpək Qaraca qızı buraxdı, amma o, hərəkətsiz qalıb ayağa qalxmadı. Bəylər dərhal Qaraca qızın üstünü aldılar. Hüseynqulu ağa Qaraca qızı qaldırıb qucağına aldı. Qaraca qız zəif hal ilə gözlərini açdı. Hüseynqulu ağa ondan soruşdu:

- Qız, sən kimsən? Bu mağarada nə qayırırdın? Qaraca qız bu suallara cavab vermədi. Rəhim bəy dedi:

- Hüseynqulu ağa, görməyirsənmi, yazıq qız hələ lazımınca özünə gəlməmişdir? Nə sual edirsən? Bən əhvalatı onsuz da anlayıram. Qızın sifətindən və libasından görməyirsənmi qaraçı qızıdır? Bu av etdiyimiz ayı da əldə bəslənmiş qaraçı ayısıdır. Ancaq sahibi haradadır? Yalnız burası benim üçün aşkar deyildir.

Rəhim bəyin fikrinə Səlim bəy dəxi şərik oldu.

Bəylər Qaraca qızı nökərlərinə tapşırıb yenə av etməyə başladılar, amma dörd saata qədər meşəni dolanıb, bir tülkü və iki dovşandan başqa əllərinə bir av keçirə bilmədilər. Buna görə avı tərk edibmənzillərinə tərəf qayıtdılar. Qaraca qız özünə gəlib yol uzunu başına gələn əhvalatı alayarımçıq nəql elədi. Hüseynqulu ağa Qaraca qızın ata-anasız bir yetim olduğunu bilibonu özü lə evinə saxlamağa apardı.

***

Hüseynqulu ağa qırx yaşında böyük bir mülkədar idi. On üç yaşında ikən atası Megdi ağa onu bir növ ilə edadi "realni" məktəbinə qoya bilmişdi; amma Hüseynqulu ağanın fikri həmişə at binmədə, ava çıxmada olub, oxumaq ilə əsla arası yox idi. Hər il o sinifdə, bu sinifdə qala-qala bir növ ilə dördüncü sinfə çıxa bilmişdi. Daha bundan yuxarı bir sinfə keçə bilməyib məktəbdən xaric oldu. Atası bu işə çox da qəmgin olmadı, çünki onun çox dövləti və varı var idi. Edadi məktəbini qurtarandan sonra atası oğlunu oxutmaq fikrində yox idi. Mehdi ağanın Hüsenqulu ağadan başqa bir oğlu yox idi. Hüseynqulu ağa oxumağa fikir verməyir idisə də, çöl işlərində çox qoçaq idi; odur ki, atası onu daha oxutmaq fikrində olmayıb çöl işlərinə onu mühəvvəl etdi. Azuqətdə Hüseynqulu ağa yaşının azlığına baxmayıb çöl işlərini parlaq bir surətdə əmələ gətirirdi. Atası oğlunun bu məharətini görüb bütün işlərini idarə etməyi ona tapşırdı. Hüseynqulu ağadan bütün qulluqçuları və rəiyyətləri qorxur idi. Çünki o, çox tünd adam idi, amma bunun ilə böylə Hüseynqulu ağa çox rəhmdil idi. Hüseynqulu ağa zəhməti çox sevdiyi kibi, yoldaşları ilə keyf çəkməyi də çox sevərdi. Atası Hüseynqulu ağanın kef çəkməyindən xoşlanmayırdı, çünki qorxur idi ki, bunun axırı çox fəna bir surətdə nəticə versin; ona görə də Mehdi ağa oğlunu evləndirmək fikrinə düşdü.

Bu fikrini Mehdi ağa tez əmələ gətirdi. Edadi məktəbini qurtarmış, gözəl bir tərbiyə görmüş, bir bəy qızını oğlu üçün aldı. Mehdi ağanın fikri düz də çıxdı. Hüseynqulu ağa evləndikdən sonra artıq yoldaşları ilə həva-həvəs və keyfə məşğul olmayırdı. Ancaq yoldaşlarını öz evinə çağırıb qonaqlıqlar edərdi.

***

Mehdi ağa Hüseynqulu ağanı evləndirdikdən bir il sonra vəfat etdi. Hüseynqulu ağa ilə arvadı Pəricahan xanımın xasiyyətləri biri-birinə dutmayırdı. Pəricahan xanım gimnaziya təhsilində cəmi Avropa adətlərini götürüb öz milli adətləri xoşuna gəlməyirdi. Hətta öz ana dilindən öylə ikrah etmişdi ki, bu dil ilə danışmaq da istəməyirdi və labüd qalıb danışanda da yarı rus, yarı türki kəlimələrini qarışdırıb danışmaqla qulaq asanları özünə güldürürdü.

Hüseynqulu ağa isə Avropa qaydalarını sevməyib, öz ata və baba adətlərini çox istəyirdi; hətta Pəricahan xanım nə qədər çalışdı isə də, ondan çərkəsi paltarı çıxarıb, Avropa libası geyindirə bilmədi. Pəricahan xanım Hüseynqulu ağanın evinə gələndən sonra köhnə qulluqçuları dəyişdirib evin hər bir qaydasını Avropa səliqəsinə saldı. Hüseynqulu ağa bu tazə qaydaları sevmədiyi üçün vaxtının çoxunu kənddə qalıb şəhərdə az-az görünürdü. Çox danışıqdan sonra axırda Pəricahan xanımı razı edib kənddə öz mülklərinə köçürtdü. Bunun üçün də Hüseynqulu ağa nəhayət dərəcədə şad oldu, çünki şəhər yaşayışını o, əsla sevməyirdi.

Hüseynqulu ağanın mülkündəki evi qayət basəfa bir yerdə idi. Bu evin yanından çay axırdı və meşə də çox yaxın idi, dəmir yolu isə mülkün bir verstliyində idi. Burada da Pəricahan xanım şəhərdəki kibi, tazə qaydalar qoymağa başladı. Hüseynqulu ağa səhərdən axşama qədər mülk işləri ilə məşğul olub, onun işlərinə qarışmayırdı. Bu tövr ilə hər ikisi

öz işlərinə məşğul olub ömür sürməyə başladılar. Ancaq bunların övladları durmayırdı, üç-dötd yaşına çatan kibi ölürdü. Ər-arvad arasında həmişə tərbiyə məsələsində höcət olurdu. Hüseynqulu ağa arvadının övladına verdiyi tərbiyəsini tənqid edib deyirdi:

- Sən bu kənd yerində yazıq uşağı quş kibi qəfəsə salıb evdən bayıra çıxmağa qoymayırsan, ona görə yazıq uşaq zəif qalıb balaca soyuq dəyən kibi azarlayıb xəstə olur. Axırda da ölür.

Pəricanah xanım isə bunun sözünə qulaq asmayıb bu barədə öz fikrindən daşınmayırdı. Hüseynqulu ağa arvadının öz fikrində artıq dərəcədə möhkəm durduğunu görüb axırda tərbiyə işinə bilmərrə qarışmadı. Bu vaxt Pəricahan xanımın altı yaşında Ağca xanım adlı bir qızı var idi. Bu yaşa gəlincə Ağca xanım Avropa qaydasınca tərbiyə almışdı; həmişə də yanında bonası olub yalnız onun ilə gəzməyə çıxırdı. Anasının hökmülə bonası onu kimsə ilə oynamağa, gəzməyə buraxmayırdı.

***

Axşam Hüseynqulu ağa öz dostları Rəhim bəy və Səlim bəy ilə bərabər düşmənə qalib gəlmiş sərəskər kibi kamal təntənə və şəşə ilə öz evinə varid oldu. Bunların pişvazına cəmi qapı xidmətçiləri çıxmışdılar. İtlərin hürməyi, avçıların səsi, nökər və mehtərlərin qışqırığı biri-birinə qarışmışdı. Ağca xanım səs və küyə bonasından iznsiz evdən çıxıb atasının qabağına yügürdü. Hüseynqulu ağa qızını qucaqlayıb öpdü və sonra Qaraca qızı göstərib dedi:

- Bax, qızım, sənin üçün oyun yoldaşı gətirmişəm. İmdiyə kibi yalnız qalmışdın, oynamağa yoldaşın yox idi.

Bu sözdən sonra Ağca xanım və Qarcaqa qız nəzərlərini biri-birinə salıb bir müddət diqqət ilə baxışdılar. Bu iki tifildə böyük bir təfavüt var idi: biri iki bəyzadədən törəmə bir nəci-

bə, o biri iki zəhmətkeşdən törəmə bir əyal balası! Biri zəif, zərif, hər bir şeydə özgəyə möhtac olan bir tifil; o biri fulad kibi sağlam bədən, az sinnində çox görmüş, öz zəhməti ilə məişət edən bir çocuq! Birinin baxışı sanki özgələri köməyə çağırırdı; o birinin nəzəri cümləni qovğaya çağırırdı.

Ağca xanım zərif əlini Qaraca qıza uzatdı, o da kobud barmaqları ilə onun əlini sıxdı. Ağca xanım bu siğdən qışqırdı, sonra güldü. Bir az keçmədi ki, şirin söhbətə başladılar. Hüseynqulu ağa bunları söhbətdə qoyub bəylər ilə otağa daxil oldu. Ağca xanım ilə Qaraca qızın söhbəti çox çəkmədi. Pəricahan xanım otaqdan nökər və qulluqçuların toplaşmasını görüb həyətə endi və qızını Qaraca qız ilə şirin söhbət edən görüb çox bərk acıqlandı və bonanı çağırıb dedi:

-Xanım əfəndi, harada qalmışsınız? Nə üçün öz vəzifənizi unudursunuz? Baxınız, tərbiyə verdiyiniz qız kimlər ilə ülfət etmişdir? Otağına aparınız!Bu gecə şamsız qalacaqdır.

Bona zavallı Ağca xanımın gözü yaşlı əlindən dutub otağına apardı. Qaraca qıza da Pəricahan xanım – Dalımca gəl, qaraçı qızı! – deyib Hüseynqulu ağanın otağına apardı və rişxənd ilə dedi:

- Bu şahzadə qızını haradan tapıb gətirmisən, əzizim? Qızın ilə də tanış etmişsən!

Hüseynqulu ağa əhvlatı ona nəql edib dedi:

- Pəricahan xanım, qızına yazığın gəlsin. Gör yoldaşsızlıq yazığı nə hala salmışdır?! Qoy bu qız ilə oynasın, atlansın, qol-qanadı açılsın, bədəni bərkisin, keyfi açılsın! Bu qız qaraçı qızı deyildir, olsa da, nə eybi vardır? Bonası yanında olacaqdır. Bir pis iş edərlərsə, tənbih edib qoymaz!

Bu sözləri Pəricahan xanıma əsla təsir etmədi.

- Sən bənə söz vermişdin ki, tərbiyə məsələsinə qarışmayacaqsan. İmdi neyçün sözündə dəvam etməyirsən? Bu qız buradan gedəsidir. Artıq söz lazım degil.

Hüseynqulu ağa və bəylər Qaraca qız barəsində çox təvəqqe etdilər. Axırda Pəricahan xanım onun qalmasına razı oldu, bu şərtlə ki, Qaraca qız bağban Piri kişinin evində saxlanıb Ağca xanım ilə əlaqə etməsin, çünki ondan pis xasiyyət götürər.

Bu şərt qəbul olundu və Qraca qız da haman gecə Piri kişiyə tapşırıldı. Piri kişinin damxası ağalığın böyük meyvə bağının içində idi.

***

Piri kişi yetmiş yaşında bir qoca idi. Heç bir kəsi yox idi və özü də Hüseynqulu ağanın rəiyyəti olub cavanlığından Mehdi ağaya bağbanlıq edirdi. Həmişə bağda ömür sürüb ağalıq qapısına işi düşməsə, gəlməzdi. Özü də yumşaqtəbiətli bir şəxs idi.

Piri kişi Qaraca qıza çox şad oldu. Onun üçün komasında yer hazırladı. Və yedirdib rahət etdi. Qaraca qız yerə girib bir müddət yata bilmədi. Sonra Piri kişidən soruşdu:

- Baba, o xanım qızını bənim ülə neyçün oynamağa və danışmağa qoymayır?

- Qızım, onlar bəydirlər. Biz onların rəiyyətiyik. Onlar ağadırlar, biz nökər! Bizim ilə onların nə yoldaşlığı? Babacığım! Onların babalarına babam, atalarına atam qulluq etmişlər. İmdi də bən qulluq edirəm. Sən, qızım, Ağca xanımı yadından çıxart, o sənə yoldaş deyildir.

Qaraca qız bu sözlər ilə sakit olmayıb fikrə getdi: Bən Ağca xanıma nə etdim ki, anasının bənə acığı dutdu? Bu gecə ona yemək verməyəcəklər. Yazıq ac qalacaqdır! Anam sağ olanda bəni də ac qoyurdu, amma bən nadinclik edirdim. Bu ki heç zad etməmişdi.

Qaraca qız fikrini bir yerə çıxartmayıb yuxuya getdi.

O gecəsi haman fikirlər Ağca xanımı da sakit etməyirdi. Nə anasının, nə bonasının nəsihətini anlamayırdı: Nə səbəbə

bən o qız ilə oynaya, danışa bilmərəm? Bən bəy qızı olanda nə olar? Bəni neyçün şamsız qoydular? Qaraca qız çox təəccüblü şeylər nəql edirdi. O deyirdi ki, sənə qaval çalmaq, oynamaq öyrədəcəgəm! Ah, anam bəni nə üçün qoymadı ki, onunla çoxluca danışım? Ağca xanım yorğanı başına çəkib, gizlicə ağlamağa başladı və bir azdan sonra yuxuya getdi.

***

Piri kişi uşaqlıqdan gün çıxmamış yuxudan durmağa adət etmişdi. İmdi də tezdən dəstamaz alıb sübh namazını qıldı, sonra ocağı qaladı; Özü kibi ömrü keçmiş, hisdən qaralmış çaydanı su ilə doldurub ocağa qoydu və komadan çıxdı ki, bağı dolansın. Piri kişi bəslədiyi bağı əla dərəcədə sevərdi. Buradakı ağacların çoxunu özü öz əlləri ilə əkib pərvəriş verməklə imdiki halına salmışdı. O yerlərdə bitən bir meyvə ağacı yox idi ki, bu bağda olmayaydı. Piri kişi təcrübə edib bu bağda qələm vasitəsilə təbiətə müğayir öylə peyvənd etmişdi ki, bu iş cümləni heyrətə gətirirdi; bir əzgil ağacına qələm ilə alma peyvənd etmək ilə bir ağacda iki cür meyvə bitirirdi. Hüseynqulu ağanın bu bağı mülkədarlar arasında xeyli şöhrət qazanmışdı. Hüseynqulu ağaya bir qonaq gələndə cürbəcür ziraət maşinalarını qoyub qabağına, bağına tamaşa aparardı. Bağın böylə Cənnət kibi olmasına səbəb yalnız Piri kişi idi; buna görə də Hüseynqulu ağa onun xatirini çox istəyirdi: hər nə istəsə idi, dərhal əmələ gətirirdi. Piri kişi isə ondan ancaq bircə şey təvəqqe edirdi: Ağalardan başğa kimsə bağa girməsin. Hüseynqulu ağa da bu ixtiyarı ona vermişdi. Ancaq meyvə dərilən vaxt Piri kişi özünə köməkçi çağırırdı. Başqa vaxtlarda isə heç kəsi bağa qoymayırdı. Bağı oğrudan qorumağa Piri kişinin bircə köməkçisi var idi. O da Qaraca qızı mağaradan çəkib çıxardan Qara köpək idi. Qara köpək qayət heybətli və hünərli bir köpək idi. Onun qorxusundan heç kəs bağa dolana bilməyirdi. Bu köpəkdə bir qəribə hal var idi: Hər

kəs ki Piri kişiyə bədxah idi, Qara köpək onu sevməyib-yavuğa qoymayırdı. Piri kişi bir tazə şəxs ilə tanış olanda Qara köpək o adama quyruq bulayıb yavuqlaşsa idi, onu özünə xeyirxah hesab edirdi və hərgah o adama əvvəldən dişlərini ağardıb mırıldasa idi, onu özünə bədxah bilərdi. Qara köpəyin bu hissini Piri kişi kərrat ilə imtəhan etməyi üçün deyirdi: Dost və düşmənimi Qara köpək ilə tanıyırım. Piri kişi Qara köpəyi heç vaxt zəncirləməyirdi. Gecə və gündüz Qara köpək asudə idi. Bunun ilə böylə Qara köpək bağdan heç bir yerə getməz idi. Ancaq bəzi vəqt Hüseynqulu ağa ava gedəndə o da həvəslənib av tulalarına qoşulardı; bu vəqt onu geri qaytarmaq üçün gərək Piri kişi özü gələ idi, yoxsa heç kəsə qulaq asmazdı.

Bir dəfə Piri kişi komadan çıxanda yadından çıxıb qapını açıq qoymuşdu.

Bu halda Qara köpək içəri keçib evdə bir kəsi yatmış gördü, Qulaqlarını şəklədib heybətli bir halət ilə o tərəfə yönəldi.

Sonra Qaraca qızı tanıyıb quyruğunu buladı və irəli gəlib yanında uzandı; sonra da Qaraca qızın əlini yalamağa başladı.

Bu vəqt Qaraca qız gözlərini açdı və hələ yuxulu olduğu üçün Qara köpəyi tanımayıb qışqırdı. Bunun səsinə Piri kişi cəld içəri girib dedi:

- Qızım, neyçün qışqırdın? Kimdən qorxdun?

- Baba, burada ayı var!

- Yox, qızım, Qara köpəkdir, qorxma, burada ayının nə işi var?!

Sonra Qara köpəyə:

- Çəkil! – deyib onu bayıra çıxardı.

- Yat, qızım, hələ tezdir!

- Yox, baba. Daha yuxum gəlməyir. Bən həmişə tez dururam!

- Çox yaxşı edirsən, adam gərək səhər tezdən dura ki, canı da səlamət ola. – bunu deyib Piri kişi çaydana çay atdı. Qaraca qız paltarını geyib dedi:

- Baba, əl-yüzümü harada yuyum?

Piri kişi dedi:

- Budur, komamızın yanında su axır, qızım, get orada yu!

Qaraca qız yüzünü yumağa getdi. Piri kişi də süfrəni salıb pənir, çörək və yağ qoydu; sonra da çaydandan iki fincan çay töküb süfrəyə qoydu. Və özü də əyləşdi. Bu vəqt Qaraca qız yüzünü yuyub içəri girdi.

- Al, qızım, yüzünü sil, əyləş çay içək.

Piri kişi Qaraca qıza yüzsilən verdi. Qaraca qız əl-yüzünü qurudub süfrəyə oturdu. Hər ikisi yeyib-içməyə məşğul oldu.

Çaydan sonra Piri kişi Qaraca qıza dedi:

- Dur, qızım, gün çıxmamış həm bağımızı gəzək, həm də ağalar üçün meyvə dərək. Piri kişi özü bir səbət götürdü və Qaraca qıza da bir cəvərən (ipli balaca səbət) verdi. Evdən bayıra çıxdıqda Qara köpək də onlara qarışdı. O, quyruğunu bulaya-bulaya Qaraca qıza yanaşdı. Qaraca qız onun başını sığallayıb cəvərəni boynundan asdı. Qara köpək başını bulayıb cəvərəni yerə saldı. Qaraca qız götürüb yenə boynuna keçirtdi. Qara köpək bu dəfə də başını əyib cəvərəni yerə saldı. Piri kişi dedi:

- Zəhmət çəkmə, qızım, Qara köpək azadlığa öyrənmişdir, o, təlimə yatmaz.

- Yox, baba, yatar: bir gör onu necə öyrədəcəgəm! – bunu deyib Qaraca qız Qara köpəyin qabağında çömbəldi və onun gözlərinə baxarkən cəvərəni yenə boynuna saldı.

- Qara köpəyim, ağıllı köpəyim, cəvərəni götür, köpəyim!

Qara köpək bu dəfə cəvərəni yerə salmadı və Qaraca qızın yüzünə baxa-baxa yanınca getdi.

O da sevinərək qışqırdı:

- Afərin, Qara köpəyim! Baba, gördünmü?

- Gördüm, qızım! Çox da təəccüb edirəm: Köpək bu qədər ildir ki, qapıda olur, bəndən başqa bu günə kibi heç kəsin sözünə qulaq asmamışdır. İmdi isə hətta cəvərəni də aparır.

- Hələ bu nədir ki, baba, gör ona nələr öyrədəcəgəm! Mən qaraçı dəstəsində olan zaman ayını, meymunu və qeyri heyvanları öyrədəndə görmüşəm, ancaq gərək, baba, heyvanı əzizləyə-əzizləyə öyrədəsən. Yoxsa döymək ilə bir şey olmaz, amma qorxutmağın eybi yoxdur. Odur ki, Yusif ayını döydü, o da onu parçaladı.

Piri kişi Qaraca qızın əhvalatını müxtəsər eşitmişdi. İmdi isə Qaraca qızın kim olduğunu, bu vəqtə qədər nə tövr yaşadığını ona müfəssəl nəql etdirdi. Qaraca qızın yerək-yandırıcı faciəsindən rəhmdil Piri kişi xeyli qəmgin oldu və yürəgində bu yetim çocuğa məhəbbəti artdı.

Səhərin saf və gözəl havası, güllərin və meyvələrin ətri, quşların nəğməsi insanı biruh edirdi. Böylə təbiət içində pərvəriş tapmış Piri kişiyə baxanda adam onun yetmiş sənə olmağına inanmayırdı.

Bunlar gəlib almalığa çatdılar. Ətirli, qırmızı almaları gördükdə Qaraca qızın gözləri işıqlandı.

- Baba, nə gözəl almalardır!

- Pəs, qızım, bağımızda hər cür meyvə var, sənə dərib yeməyə qadağan etməyirəm, ancaq ac qarına yeməyəsən, yoxsa azarlarsan. İmdi sən çıx ağaca alma dər və yerə at, bən də səbətə yığım; Qaraca qız xeyli çabuk ağaca dırmaşdı, almaları dərib yerə tökməyə başladı və ağzını da bikar qoymayırdı. Qaraca qız böylə gün keçirtməyə çox şad idi: Piri kişi onu öz övladı kibi istəyir, bir zəhmətli işi yox, özü də

böylə gözəl bir bağda yaşayır,hansı meyvədən istəsə, dərib yeməgə ixtiyarı var. Daha bundan da gözəl dolanmaq olarmı!

- Qızım, daha bəsdir, düş, gedək bir qədər də armud, üzüm və hulu yığaq.

Qaraca qız düşdü və almaları səbətə doldurub, armud və şaftalı xiyabanlarına getdilər. Qaraca qız almalardan cəvərənə qoyub yenə Qara köpəyin boynuna asdı. Bir qədər getməmişdilər ki, birdən Qara köpək cəvərəni yerə atıb yıldırım kibi götürüldü. Qaraca qız almaları yerdən yığarkən baxıb gördü ki. bir balaca pişik qaçır, Qara köpək də istəyir onu dutsun. Bunu görcək Qaraca qız cəld qalxıb yügürə-yügürə Qara köpəyi geri çağırdı. Lakin nə qədər qışqırdı isə, o, pişikdən əl çəkmədi. Piri kişi də çağırdı. Qara köpək onun sözünə də qulaq asmadı. Qara köpək az qalmışdı ki onu duta, qoçaq pişik bir saniyədə armud ağacına dırmaşıb özünü qızmış Qara köpəkdən xilas edə bildi. Qaraca qız bu işdən xeyli şad oldu, əllərini biri-birinə vura-vura şaqqıltı ilə güldü.

- Dızz, Qara köpək, dızz! Necəsən, duta bildinmi? – deyib Qara köpəyə acıq verdi.

Qara köpək işi böylə gördükdə ağacın dibində öylə bir həşr etməyə başladı ki, deyəsən, bu saət pişiyi səs ilə qorxudub yerə salacaq.Yazıq pişik hərçənd hündürdə və əl çatan yerdə deyildi, bunun ilə böylə gözlərini ditrəyə-ditrəyə Qara köpəkdən çəkə bilməyirdi. Qaraca qız özünü ağaca yetirib oraya dırmaşmağa başladı. Pişik bunu görüb dutduğu budaqdan yuxarı çıxmadı. Qaraca qız ona yaxınlaşıb gördü ki, bu xal-xal pişik bir gözəl pişik balasıdır. Piri kişi də Qaraca qızın almalarını cəvərənə doldurub armud ağacının dibinə gəldi. Bu halda Qara köpək bir qədər sakit olmuşdu, amma yenə də gözləri ağacda idi.

- Baba, nə gözəl balaca pişikdir, bunu evimizə aparıb saxlayacağam!

- Çox yaxşı, qızım, apar! İmdi o armudlardan dər yerə at, sonra da düş!

Qaraca qız armudlardan dərib pişiyi qucağına alaraq yerə düşdü. Qara köpək əvvəl özünü bir qədər rahətsiz saxlayırdısa da, sonra Qaraca qızın səyi ilə bilmərrə sakit oldu və axırda pişiyə dəyməyib, onun ilə dostluq binasını qoydu.

Piri kişi üzüm yığandan sonra dedi:

- Qızım, daha bəsdir, imdi bunları gərək ağalara aparaq, qapıya kibi bənə kömək et, sonra bən özüm apararam.

- Baba, məgər bən ağalığa gedə bilmərəmmi?

- Niyə? Gedə bilərsən, qızım, ancaq Pəricahan xanıma xoş gəlməz, öylə bilər ki, onun əmrindən çıxırıq.

Qaraca qız Piri kişini bağın qapısına kibi ötürüb özü xal-xal pişiyi qucağında geri qayıtdı. Ancaq komalarına getməyib bağı gəzməyə başladı. Çəpərin qırağı ilə gedərkən gördü ki, Ağca xanım bağçada bonası ilə iskamyanın üstündə əyləşib kitab oxuyur. Görünürdü ki, Ağca xanım kitabı fikirlə oxumayır və oxuduğunu da sevməyirdi. Bu halda bir gözəl kəpənək gəlib Ağca xanımın oturduğu iskamyanın başına qondu. Ağca xanım gizlincə əlini atdı ki, kəpənəyi dutsun. Amma duta bilmədi. Bunu bona görüb çox acığı dutdu və hirsli Ağca xanımın əlindən dutub evə apardı. Qaraca qız bir müddət dayandı ki, görsün Ağca xanım yenə bağçaya çıxacaqmı? Bir azdan sonra bona yalnızca gəlib iskamyanın üstündə əyləşdi və kitab oxumağa məşğul oldu. Qaraca qız duydu ki, bona Ağca xanımı evə salıb. Dustaq edib. Bu işdən rəhmdil Qaraca qız nə qədər Ağca xanıma yürəgi yandı, yazığı gəldisə də, bir o qədər bonaya düşmənçiliyi artdı.

Ağalıq evi tazə qayda ilə tikilmiş, iki mərtəbə, gen-bol bir imarət idi. Bundan başqa evin baş tərəfində üç balaca otaqdan ibarət qədim bir tikili də var idi. Bu, Hüseynqulu ağanın babasından qalma köhnə bir təmir idi. Bu evin pəncərələri xırda və rəngbərəng şüşələrdən ibarət idi. Bu evlərdə

heç kəs olmayırdı. Həmişə iki otağın ağzı bağlı olurdu. Orada Hüseynqulu ağanın babadan qalma ətiq şeyləri saxlanırdı. Ancaq üçüncü otağı qədim yaraqlar və zinətli şeylər ilə bəzənib, Hüseynqulu ağa üçün açıq saxlanırdı. Burada Hüseynqulu ağa nahardan sonra uzanıb bir az rahətlik edərdi. Bu otağın bircə dənə pəncərəsi var idi. O da qeyri pəncərələr kibi, yana açılmayıb yuxarı çəkilinirdi. Onun rəngbərəng xırda şüşələri içəriyə bir o qədər işıq buraxmazdı, ona görə də otağın içi qaranlıq idi. Bu otaq ağalarda "baba otağı" namı ilə məşhur idi. Axır vaxtlarda Ağca xanım müqəssir olanda onu tənbih üçün bu otağa salırlardı.

Qaraca qız çəpər uzunu gəlib evin başına çatdıqda gözləri nəql etdiyimiz "baba otağı"na sataşdı. Pəncərənin abı, yaşıl, qırmızı, sarı... şüşələri Qaraca qızın diqqətini cəlb etdi. Çəpər hündür olduğundan bu evi yaxşı görə bilmədi, onun üçün də bir ağacın başına çıxdı ki. evə yaxşı baxsın; bunu Ağca xanım içəridən görürdü. Barmağı ilə şüşəni döydü ki, özünün orada olduğunu Qaraca qıza bildirsin; birdən şüşənin biri sınıb yerə töküldü. Bundan hər ikisi qorxuya düşdü. Qaraca qız ağacdan yerə düşmədi isə də, yarpaqların qalın yerlərində özünü gizlətdi. Bir azdan Ağca xanım sınan şüşənin yerindən baxıb yavaşdan Qaraca qızı çağırdı. O da özünü ona göstərib dedi:

- Ağca xanım, səni orada rus arvadımı dustaq etdi?

- Bəli, onu sən haradan bildin?

- Bən bayaq çəpərin arasından güllü bağçaya baxırdım, sən də kitab oxuyurdun, rus arvadının sənə acığı dutdu. Sonra da əlindən dutub apardı. Doğru deyirsən, anamın və Mariya İvanovna "bona"mın acığı dutanda bəni buraya salırlar. Ah, Qaraca qız, sən nə xoşbəxt insansan: bənim kibi dustaq olmayıb özün üçün bağda azad gəzirsən!

- Sən də həmişə dustaq olmayırsan ki, qeyr vəqtlərdə sən də bənim kibi azad gəzirsən!...

- Yox, bəni heç kəs ilə oynamağa qoymayırlar, gəzməkdə də həmişə Mariya İvanovna yanımda olur. Mən isə onun ilə gəzməgi əsla sevməyirəm.

- Nə etməli, xanım, səni bənim ilə oynamağa qoymayırlar.

- O qucağındakı nədir?

Qaraca qız xal-xal pişigi ona göstərib dedi:

- Bu pişigi bu sabah bağdan tapmışam!

- Amma nə gözəl pişikdir!..

- İstəyirsən, sənə bağışlyım?

- Çox yaxşı, gətir bu deşikdən ver!

- Oraya nə tövr ilə gələyim? Qapıdan gəlsəm, məni görərələr və qoymazlar!..

- Gör çəpərdən keçə bilərsənmi?

- Yaxşı, görüm keçə bilərəmmi?

Qaraca qız ağacdan düşüb çəpəri aşağı, yuxarı gəzdi ki, çəpərdən keçməyə bir yer tapsın. Gəzərkən çəpərin altından su arxının yolunu gördü; Bu deşikdən Qaraca qızxeyli çətinlik ilə evin dal tərəfinə çıxdı. Sonra gizlincə gəlib pəncərənin qabağına çıxdı. Ağca xanım sevinə-sevinə dedi:

- Hardan keçdin?

- Su arxının deşiyindən! Al, bəni gəlib görməsinlər! Ağca xanım pişigi alıb sevinə-sevinə bağrına basdı. Qaraca qız deşikdən içəri baxıb dedi:

- Nə gözəl otaqdıır! Nə çox yaraq asılmışdır?!

Ağca xanım dedi:

- Bən buranı sevməyirəm, özüm də qorxuram. Pəncərəni aça bilsə idim, sən də gələrdin, burada söhbət edərdik. Ancaq onu yuxarı qalxızmaq lazımdır, bənim də gücüm çatmayır. Qoy görüm Mariya İvanovna qapını daldan bağlamışdır, ya yox? – bunu deyib Ağca xanım qapını çəkdi, o da açıldı. – Bağlamamış imiş, tez ol, gəl! Qaraca qız ətrafına baxa-baxa gizlincə içəri girdi. Hər ikisi sevinərək biri-birini qucaqladı.

Sonra şirin söhbət etməyə başladılar. Bu vəqt Mariya İvanovnanın oxuduğu kitab xeyli şirin və ləzzətli olduğundan başı qarışıb, Ağca xanımı bir saət əvəzinə, üç saət dustaq etdiyindən bixəbər qalmışdı. Lakin Ağca xanım bu dəqiqə bonasının onu unutmasına çox şad idi. Ağca xanım vaxtında Qaraca qızı qaçırtmaq üçün tez-tez qapıya çıxıb baxırdı ki, görsün bonası gəlirmi? Bir dəfə də Ağca xanım çıxanda anasını yanında hazır gördü. Bu ittifaqdan Ağca xanımın rəngi qaçıb bədəninə ditrətmə düşdü. Özünü öylə itirmişdi ki, anasının sualına cavab verə bilməyirdi. Pəricahan xanım baba otağını açıq görüb fikir etdi ki, Hüseynqulu ağa içəridə olar, bu qəsd ilə də içəri girmək istədikdə Ağca xanım lap özünü itirib – "Ana, buraya girmə, girmə,- deyə anasının qabağını kəsdi və özü də ağlamağa başladı. Pəricahan xanım təəccübdə ikən Mariya İvanovna gəlib çıxdı və ondan burada qızının dustaq olduğunu bildi. Pəricahan xanım qabaqca, bona onun dalınca otağa girdilər. Pəricahan xanım pişigi görüb soruşdu:

- Ha, qızım, bundanmı qorxurdun? Qorxma, gəl içəri! Nə gözəl pişikdir! Bunu saxlamağa sənə izn verirəm. Bu halda Ağca xanım hələ qorxa-qorxa içəri keçdi və Qaraca qızı görməyib bir qədər yürəkləndi. Qaraca qız isə divanın altına girib gizlənmişdi. Bunlar hər üçü otaqdan çıxıb qapını bağladılar və nahar etməyə getdilər. Qaraca qız da qapısı bağlı evin içində qaldı.

Adamlar baba otağından gedəndən sonra Qaraca qız cəld divanın altından çıxıb qapıya tərəf yügürdü ki, bir kəs gəlməmiş buradan çıxıb qaçsın. Lakin qapını daldan bağlanmış görüb məyus qaldı. Sonra Qaraca qız pəncərəni çəkib oradan çıxmaq fikrinə düşdü, amma nə qədər çalışdısa, bir şey bacarmadı, çünki pəncərəni yuxarıda iki nazik mil ilə bağlı olduğunu anlamayıb, ancaq var gücü ilə onu yuxarı çəkirdi. Xeyli çalışdıqdan sonra Qaraca qız ümidsiz divanın üstündə oturdu. O, xeyli təşvişdə idi. Çünki bilirdi ki, bu

sirrin üstü açılsa, Pəricahan xanım onu buradan qovub, qızını da böyük tənbih edəcəkdir. Bir az sakit oturandan sonra Qaraca qız yenə pəncərəni çəkmək fikrinə düşdü. Bu dəfə diqqət yetirdikdə nəzəri dəmir millərə sataşdı, dərhal onları çəkib çıxartdı və sonra pəncərəni çəkməyə başladı. Pəncərə hərçənd ağır idi, amma Qaraca qız da qüvvətli qız idi. Pəncərəni qalxızıb altından cəftə ilə bənd edəndən sonra Qaraca qız o biri tərəfə çıxdı və yenə də üsulca cəftəni açıb pəncərəni aşağı saldı; sonra da haman gəldiyi yoldan bağa girib komalarına getdi. O vəqt Piri kişi süfrəni salıb Qaraca qızı nahara gözləyirdi. Piri kişi onu görən kibi dedi:

- Qızım, bağda nə çox gəzdin?! Gəl otur nahar edək!

Qaraca qız süfrəyə əyləşib nahar etməyə məşğul oldu.

Bu vəqt Ağca xanım Qaraca qız tərəfdən artıq dərəcədə iztirabda qalıb, boğazından əsla xörək keçməyirdi, fikri Qaraca qızın yanında idi. Hətta şərbəti qəsdən süfrəyə tökdü ki, bəlkə onu tənbih edib yenə baba otağına salalar. Amma bu hiylə onu muradına yetişdirmədi, çünki Pəricahan xanım qızının rəngi qaçdığını görüb təşvişə düşdü və dedi:

- Qorxma, qızım, eybi yoxdur, xörəyi süfrəyə dağıdanda nə olar ki?!.. Heç rəngin özündə deyildir, yoxsa, qızım, azarlamısan? Bunu deyib Pəricahan xanım əlini qızının alnına qoydu və dedi:

- Görünür ki, qızım, azarlamısan!Az şorba iç, sonra yatacaqsan, daha bu gün heç yerə çıxmayacaqsan.

Bu əhvalatdan Ağca xanım daha da təşvişə düşüb cəld dedi:

- Yox, ana, azarlı deyiləm, məni yatacaq otağına göndərmə!

Hüseynqulu ağa yüzünü arvadına döndərib dedi:

- İmdi sapsağlam qızı azarlı edəcəksənmi?

Pəricahan xanım ərinin bu sözünə fikir verməyib yüzünü qızına dutdu və dedi:

- Yox, qızım, yenə dəliliyin dutmasın, imdi yatmaz isən, sonralar daha da pis naxoşlarsan və həkim boğazına acı dərman tökər. Nahardan sonra bən Mariya İvanovna ilə şəhərə gedəcəyəm, bir neçə almalı şey lazımdır, sən də otağından heç yerə çıxmayacaqsan!

Ağca xanım anasının bu hökmünün müqabilində bir söz demədi, çünki orasını bilirdi ki, anası dediyindən dönən adam deyildir və bir də başına bu fikir düşmüşdü ki, anası şəhərə gedəndən sonra qaçıb Qaraca qızı təhlükədən qurtaracaqdır.

Nahardan sonra Pəricahan xanım Ağca xanımı yatacaq otağına salıb ona dərman verdi və dedi:

- Qızım, biz şəhərdən gəlincə heç yerə çıxma, oyun şeylərini yığıb özün özün ilə oyna və şəkilli kitablarını açıb özün üçün tamaşa et. Bən də şəhərdən sənin üçün çoxlu şeylər gətirəcəgəm.

Bu sözlərdən sonra Pəricahan xanım qızının yüzündən öpüb otaqdan bayıra çıxdı. Ağca xanım anası ilə bonasının şəhərə getməsini səbirsiz gözləyirdi. "Ah, yazıq Qaraca qız baba otağında ac və susuz qalmışdır, bəndən də ona bir kömək yoxdur. Gedib qapını açardım və Qaraca qızı azad edərdim." Bir də Ağca xanımın qulağına fayton səsi gəldi, bir də gördü ki, anası Mariya İvanovna ilə faytona əyləşib, vağzala tərəf getdilər.

***

Anası gedəndən sonra Ağca xanım bir müddət otaqda qalıb pəncərədən baxdı; oradan dəmir yol stansiyası görünürdü. Vağzal Hüseynqulu ağanın mülkündə tikilmişdi. Hərdən bir Ağca xanım da öz bonası ilə gedib orada gəzərdi və stansiya böyügünün qızı ilə oynardı. Birdən vaqon fit verdi.

"Hə... Anamgil getdi. Bir də axşamçağı gələcəklər. İmdi gedim Qaraca qızı dustaqdan çıxarım."- bunu deyib Ağca xanım gizlicə öz otağından çıxdı və baba otağına tərəf getdi.

Oraya çatanda gördü ki, otağın qapısı cəftəsizdir. Yavaşca qapını açıb içəri girdi. Gördü ki, atası divanın üstündə uzanıb siqar çəkir və ondan başqa da içəridə kimsə yoxdur. Bu ittifaqa Ağca xanım çox şad oldu. Pişik kibi yavaşca əyilərək dal tərəfdən gəlib balaca əlləri ilə atasının gözlərini yumub dedi:

- Tap görüm, bən kiməm?

- Zorən azarlı, dustaqdan qaçmış gözəl qızım, Ağca xanımsan!

- Yaxşı, tapmışsan, atacığazım! – deyib Ağca xanım atasının boynunu qucaqladı. Hüseynqulu ağa qızını öpüb dedi:

- Nə yaxşı gəldin, qızım! Otur bir az ata-bala söhbət edək!

Ağca xanım əyləşmədən qabaq əyilib divanın altına və Qaraca qızı orada görməyib mat qaldı. Hüseynqulu ağa soruşdu:

- Qızım, neyçün mat qalmışsan? Otur yanımda!

Ağca xanım atasına cavab verməyib soruşdu:

- Ata, sən çoxdan buradasan?

- Nahardan sonra gələnəm, qızım!

- Sən gələndə qapı açıq idimi?

- Yox, qızım, bən özüm açdım!

- İçəridə kim var idi?

- İçəridə bax bu xal-xal pişik var idi! – deyib Hüseynqulu ağa dal tərəfdə qıvrılıb yatan pişigi ona göstərdi. – Qızım, nə gözəl pişikdir, bundan ötrümü soruşurdun?

Ağca xanım pişigi alıb dedi:

- Yox, ata bundan ötrü soruşmayıram.

- Bəs kimdən ötrü soruşursan, qızım?

Ağca xanım cavab verməyib fikrəgetdi.

- Qızıım, neyçün fikrə getdin? Yoxsa yenə söyləmək istəməyirsən?

Ağca xanım atasını çox-çox istəyirdi, onun sadəliyi çox xoşuna gəlirdi, ona görə də atasına yoldaş və sirdaş olmuşdu, ondan heç şey gizləməzdi. İmdi atasından bu sözləri eşitcək Ağca xanım atasının boynunu qucaqladı:

- Ata, sənə bir söz söylərəm, ancaq anama deməyəsən?!

- Demərəm, qızım, söylə.

Ağca xanım özünün burada dustaq olmasını, Qaraca qız ilə nə tövr görüşməsini, onun divan altında gizlənməsini tamamilə atasına nəql etdi və sonra soruşdu:

- Ata, bəs Qaraca qız buradan nə tövr çıxmışdır?

- İmdi, qızım, bağımıza gedərik, bənim Piri kişi ilə işim var, sən də bənimlə gedərsən, orada Qaraca qız ilə oynarsan və həm də onun buradan necə çıxmasını özündən soruşarsan!

Bunu deyib divanın üstündən qalxdı. Ağca xanım şadlığından bilməyirdi ki, nə etsin.

Hüseynqulu ağa qızı ilə bağı gəzərkən gəlib Piri kişinin komasına çatdı. O vəqt Piri kişi qapısında oturub səbət hörürdü. Qaraca qız da arxda qabları yuyub komaya gətirirdi. Hüseynqulu ağanı görüb qorxuya düşdü. Amma onun çox mehriban bir tərzdə:

- Keyfin necədir, Qaraca qızım? – soruşmasından yürəgi sakit olub, - "Ağam sağ olsun" – deyə cavab verdi. Piri kişi ayağa qalxıb dedi:

- Xoş gəlmisiniz, əziz ağalarım! Bundan sonra yüzünü Qaraca qıza dutub dedi:

- Qızım, tez get evdən döşək gətir, ağaların altına sal!

Qaraca qız tez içəridən döşək gətirib göy otun üstünə saldı. Hüseynqulu ağa əyləşdi və yüzünü qızlara tərəf dutub dedi:

- Haydı, qızlarım, siz də gediniz bağda oynayınız! Qaraca qız qavalını götürüb Ağca xanım ilə gəzməyə və oynamağa getdi. Hüseynqulu ağa da Piri kişi ilə söhbətə məşğul oldu. Ağca xanım və Qaraca qız əl-ələ verib bağda qaçmağa

və oynamağa başladılar. Ağca xanım başına gələni Qaraca qıza nəql etdi və o da baba otağından necə çıxdığını tamamilə ona söylədi. Bunlar öz aralarında söz verdilər ki, mümkün olduqca baba otağında görüşsünlər. Qaraca qız Ağca xanıma qaval çalıb, mahnı oxumaq və oynamaq öyrədirdi. Axırda hər ikisi oynamaqdan yorulub göy otun üstündə uzandılar. Ağca xanım bu hala çox şad idi, ancaq anasının bir-iki saatdan sonra qayıtması yadına düşdükcə yürəgi sıxılırdı.

Bir azdan Hüseynqulu ağa Piri kişi ilə gəlib qızlar oturan yerə çıxdılar. Bunlar qızları götürüb arı pətəklərinə tamaşaya getdilər. Qızlar arıların işləməsinə çox həvəs ilə baxırdılar. Piri kişi bir pətəyə çatdıqda dedi:

- Bu pətəyin arıları çox vurağandırlar. Bunlardan özününzü gözləyin, qızlarım!

Bu pətəyin arıları başqalarına nisbətən qara idilər; bir başqa pətəyə çatdıqda gördülər ki, buranın arıları pətəyin ağzında qarışqa kibi qaynaşırlar. Bunu gördükdə Piri kişi dedi:

- Yaxşı vəqt gəlmişik. Bu saət buranın arısı beçə verəcəkdir.

Sonra yüzünü Qaraca qıza tərəf dutub dedi:

- Qızım, qaçaraq get evdən o günü sənə göstərdiyim ağ torbanı götür gəl. Qaraca qız yügürərək getdi; bir azdan sonra arılar pətəkdən dəstə-dəstə çıxıb uçmağa başladılar. Piri kişi onların dalınca düşdü. Axırda arılar bir armud ağacının budağına qondular. Bir dəqiqə keçmədi ki, biri-birinin üstünə qonaraq üzüm salxımı kibi ağacdan sallandılar. Bu halda Qaraca qız torbanı gətirdi. Hamıları ağacın altında hazır oldular. Piri kişi Ağca xanıma dedi:

- Ağca xanım, o budaqdan sallanan arıların arasında şahları vardır; bu arılar da onun qoşunudur, buradakı tazə şahdır. Köhnə şah qabaqkı pətəkdə qalmışdır. İki şah bir pətəkdə olmaz, ona görə də tazə şah çıxan kibi uçub özü üçün

yeni bir yuva arayır. İmdi biz onları dutub tazə pətəyə qoyacayıq. Bu sözlərdən sonra yüzünü Qaraca qıza dutub dedi:

- Qızım, çıx ağaca və bu sallanan arıları torbanın içinə salıb ağzını da büz.

Qaraca qız pişik kibi ağaca dırmaşmağa başladı. Ağca xanım Piri kişidən soruşdu:

- Baba, o arılar Qaraca qızı sancmazlarmı?

- Xeyr, xanım, arını əl ilə basmasan və onlardan qorxmasan, onlar heç vəqt sancmazlar.

Qaraca qız arıları torbaya salıb ağzını büzdü. Piri kişi aşağıdan Qaraca qıza dedi:

- İmdi qızım budağı sındır və aşağı düş.

Qaraca qız da böylə edib düşdü. Piri kişi torbanı ondan aldı və hamıları arılığa getdilər. Piri kişi torbadakı arıları bir boş pətəyə boşaltdı, sonra yüzünü Ağca xanıma dutub dedi:

- Sənin xoş qədəmindən arımızın biri də artdı. Bu pətəyi sənə bağışlayıram, balı olanda gəlib özün üçün kəsərsən!

Bundan Ağca xanım çox xoşhal oldu. Hüseynqulu ağa dedi:

- Qızım, bu da sənin arın! İmdi gəl gedək: Anan bir azdan sonra gələcəkdir!

Bunlar xudafizləşib evə qayıtdılar.

Axşamçağı Pəricahan xanım Mariya İvanovna ilə şəhərdən gəlib çıxdı. Pəricahan xanım Ağca xanımı çox şad və yanaqları qızarmış görüb dedi:

- Bax, qızım, bənə qulaq asıb evdə oturdun, ona görə də sağalıb, rəngin özünə gəldi. Gör, qızım, sənə nə qədər şeylər gətirmişəm!

Ağca xanım anasının gətirdiyi gözəl kukla, "gəlin"lərə, başqa oyun şeylərinə və yeməli şeylərə baxıb çox şad oldu. Bu vəqt Ağca xanımın arzu etdiyi bir şey varsa idi, o da bu şeyləri Qaraca qıza göstərib, onun ilə bölüşmək idi. Bu da ancaq baba otağında mümkün idi. Ağca xanımın təbiəti çox

həlim idi, özü də sözə baxan bir qız idi. Lakin Qaraca qız ilə görüşmək arzusu onda o qədər artıq idi ki, bonasının əmrindən qəsdən çıxıb tez-tez özünü baba otağına saldırırdı.

Ağca xanımın gündən-günə sağlam olmağı anasını nə qədər şad edirdisə də, bir o qədər bonasının əmrindən çıxıb özünü tənbih etdirməyi onu qəmgin edirdi.

Bu barədə Pəricahan xanım ərinə şikayət edəndə Hüseynqulu ağa rişxənd ilə deyirdi:

- İki böyük arvad bir balaca uşağı düzəldə bilməyirsinizmi? Mən sizə məsləhət görürəm ki, onu tez-tez baba otağına salıb dustaq ediniz!

Böylə ittifaqlarda Hüseynqulu ağa qızına qışqırıb onu tənbih üçün baba otağına göndərərdi və bir tərəfdən də gedib Ağca xanımın baba otağında olmasını Qaraca qıza məlum edərdi.

***

Bir dəfə Hüseynqulu ağa böyük qonaqlıq edib çoxlu adam çağırmışdı. Bu qonaqlıqda oxuyub, çalan da var idi. Hüseynqulu ağa Qaraca qızı qonaqlara göstərmək qəsdi ilə onu gözəl geyindirib və əlinə özünün cınqıralı qavalını verib onu oynatdı. Qaraca qız çoxdan idi ki, oynamamışdı. Yürəgində oynamaq həsrəti çox idi, o imdiki məclisə mübarizə istəyən pəhləvan kibi atıldı. Böylə bir tərzdə oynadı ki, məclisdə cümləni özünə valeh etdirdi. Məclisdə bütün danışıq və səs kəsilmişdi: Uşaqdan böylə fövqəladə oynamaq görünməmişdi. Qaraca qız böylə eşqə gəlmiş ki, orada olan adamlar gözündən itmişdi. Ancaq öz ustadı olan Yasəmən gözünün önündə durmuşdu. Birdən Qaraca qız öylə bir tərzdə fırlandı ki baxanlar nəzərində bir şar kibi görünürdü. Qəflətən Qaraca qız bir dizi üstə çökdü, əlinin birini qaval ilə yuxarı dutub, o birini də belinə qoyub durdu. Oyunu belə tamamlamağı Qaraca qızın şakəri idi. Qonaqlar bunu böylə gördükdə əvvəl

oynamağın heyrətində olub bir müddət sakit dayandılar, sonra da qonaqlar tərəfindən alqışlanmaq səsi otağı götürdü. Sonra hamı təvəqqe etdi ki, bu oyunu təkrar etsin, amma Qaraca qız qəbul etmədi, hətta Hüseynqulu ağanın da sözünə baxmadı. Hamının ümidi kəsilmişdi ki, birdən Ağca xanım ortaya çıxıb çalğıçılara çalmağı əmr etdi. Hamı təəccüb ilə ona baxırdı. Çalğıçılar ləzgi-həngi həvasını çalmağa başladılar. Ağca xanım oynamağa başladı. Bunun oynamağı xeyli gözəl və qaidəli idi. Hər hərəkətindən görünürdü ki, bu, Qaraca qızın şagirdidir. Bir-iki dövrə vurandan sonra Qaraca qızı çağırdı, o da dərhal sıçrayıb ortalığa girdi və hər ikisi qabaq-qabağa oynamağa başladı. Bu xəbər bir azdan ağalıq xidmətçilərinə yayıldı, onlar da dəstə ilə yügürüb qapının ağzını dutdular. Xəbər Pəricahan xanıma çatdı. O da tamaşaya gəldi, ancaq o, qızının oynamağına əsla şad olmayıb, acığından bilməyirdi ki, nə etsin. Hətta qonaqların içində yad adam olmasa idi, ortaya girib qızını çıxardardı və ona, ələlxüsus Qaraca qıza böyük tənbih edərdi. Qızlar oynamaqlarını kəsdilər. Hər tərəfdən onları alqışladılar. Hüseynqulu ağa fərəhlənib qızını bağrına basdı. Bəylər onu tərif edib başını sığalladılar.

***

Bir azdan sonra Pəricahan xanım qulluqçusunu göndərib Ağca xanımı yanına çağırtdı. Hüseynqulu ağa bildi ki, arvadı qızını tənbih etmək üçün çağırır. Bu fikir düz də çıxdı: o biri otaqdan Pəricahan xanımın qışqırığı Hüseynqulu ağanın qulağına gəldi, səbr edə bilmıəyib qonaqlarından üzr istədi və Pəricahan xanımın yanına getdi.Gördü ki, Ağca xanım hönkürtü ilə ağlayır və Pəricahan xanım da qışqırır:

- De görüm, bu oynamağı sənə kim öyrətmişdir?

Hüseynqulu ağa qızını qucaqlayıb arvadına dedi:

- Buyur, cavabını bən verim, bunu Qaraca qız öyrətmişdir, sözün nədir?

- Qaraca qız onu harada görürdü ki, öyrətsin?Məgər mən onun ilə görüşməgi qadağan etməmişəmmi?

- Sən etmişsən, mən etməmişəm! Bu evin sahibi sənsən, yoxsa bən? Kimin nə həddi var bundan sonra bənim əmrimdən çıxsın?

Pəricahan xanım imdiyə kibi ərini bu dərəcədə təbiətdən çıxmış görməmişdir.

Pəricahan xanım dedi:

- İmdi ki böylədir, daha bən bu evdə neyçün oturmuşam?

- İstəyirsən otur, istəyirsən, get, ancaq onu bil ki, bundan sonra bən öz ixtiyarımdan keçəsi deyiləm! – bunu deyib Hüseynqulu ağa qışqırdı.

O biri otaqdan bəylər onun səsini eşidirdi. Rəhim bəy və Səlim bəy onun külfətinə çox yaxın olduqları üçün gəlib onu və arvadını yalvara-yalvara sakit etməyə başladılar və sonra Hüseynqulu ağanı çəkib o biri otağa apardılar. Bu ittifaqdan qonaqlar pərişan olub bir-bir dağılmağa başladılar; ancaq Rəhim bəy və Səlim bəy qaldılar ki, ər ilə arvadı barışdırıb getsinlər; bunlar istədiklərinə çatdılar: Hüseynqulu ağanın hirsi yatdı, arvadına dedi:

- De görüm, əzizim, oynamaqda nə qəbih şey var ki, Ağca xanım onu sevməsin?

Səlim bəy dedi:

- Pəricahan xanım vallahi bənim qızım Ağca xanım kibi oynamaq bilsə, onun başına dolanaram! Amma nə etmək ki, atası kimi şüursuz çıxıb, ayaq atmaq da bilməyir!

Rəhim bəy dedi:

- Uşaq taifəsi Ağca xanım kibi oynayıb oxumağa, gülməyə yaranmışdır. Yoxsa bənim qızım kibi qaradinməzdən nə faidə?

Pəricahan xanım dedi:

- Rəhim bəy, bən deməyirəm ki, qızım oynamaq bilməsin, ancaq bən deyirəm ki, Mehdi ağanın nəvəsi Ağca xanıma bir qaraçı qız ilə yoldaş olub, oturub-durmaq yaraşmaz; Hüseynqulu isə deyir ki, xayır, yaraşar! Bizim bəhsimiz buradadır! Hərgah Hüseynqulu ağa dediyində möhkəm dursa, bən burada oturası deyiləm.

Hüseynqulu ağa dedi:

- Əzizim, iki ay bundan əvvəl siz bənim qızımı görmüşdünüz ki, nə halda idi?! Özü zəif, arıq, deyəsiz ki, bir illik azardan imdicə qalxmışdı! Nə deyirdi, nə danışırdı, nə gülürdü... Diyəsən, qəm dəryasına batmışdı. Məgər o vəqt bənim dolanacağım pis idi, qızım yemək-içmək tapmayırdı və ya ona qulaq asan yox idi?! Xayır, bunların hamısı qabaqda da var idi, imdi də vardır. Bəs nə oldu ki, o zəif, həmişə qəmli bir qız imdi böylə sağlam, yanaqları lalə kibi qızarmış, bugünkü kibi oynayan və gülən oldu?! Hələ onun mahnı oxumasından xəbərin yoxdur. Bunların hamısına Qaraca qız səbəb oldu. Haman bu anasından gizlin olaraq onlar biri-biri ilə baba otağında görüşürdülər. Bu sirri təkcə bən bilirdim. Əzizim Pəricahan! Uşaq taifəsinə yeməkdən, içməkdən, geyməkdən, onların cümləsindən artıq yoldaş lazımdır, həmsər lazımdır ki, biri-birləri ilə oynayıb gülsünlər, deyib, danışsınlar! Uşaq taifəsinin bəy, xan, rəiyyət nələrinə lazımdır, onlar öz təbiətlərinə tabedirlər. Bu sadəcə mətləbi bən elm oxumuş arvadıma anlada bilmirəm. O ki Qaraca qıza qaldı, bən bu vəqtə kibi ondan bir qorxulu və fəna xasiyyət görməmişəm. Bir sadə, rəhmdil el çocuğudur.

Pəricahan xanım dedi:

- Sənin ilə bənim tərbiyə nöqtəmiz bir yerə gəlməz, ona görə də bəhs etməyib deyirəm: Ağcanı şəhərdə pansiona vermək lazımdır. Kənddə yaşadığı daha bəsdir, sabahdan bən Ağca ilə şəhərə köçəcəm, sən də burada qalıb öz işinə məşğul olarsan. Buna sən razısanmı?

Hüseynqulu ağa dedi:

- Buna razıyam!

Bəylər ər ilə arvadın böylə barışmalarına çox şad olub xudafizləşdilər və getdilər.

***

Sabahı gün Ağca xanım anası ilə şəhərə köçdü. Zavallı qız istəkli dostu Qaraca qız ilə görüşə bilmədi. Ağca xanımın şəhərə köçməsi Qaraca qıza çox böyük təsir etdi. Bir tərəfdən onun ilə ayrılıq həsrəti, bir tərəfdən də ər ilə arvadın arasında bundan ötrü ədavət düşməsi onu çox qəmgin edirdi; bircə Qaraca qızı şad edən Hüseynqulu ağanın onun ilə etdiyi rəftar idi. Pəricahan xanım şəhərə köçəndən sonra Hüseynqulu ağa tez-tez Piri kişi ilə söhbət etməyə gəlirdi və o vəqt Qaraca qız ilə mehriban danışıb deyərdi:

- Səbr et, Qaraca qızım, bir azdan sonra Ağca xanım yenə gələcəkdir. Bu dəfə keyfiniz istədiyi qədər oynayıb gəzəcəksiniz!

Və bir də Hüseynqulu ağa hər dəfə şəhərdən gələndə Qaraca qız üçün Ağca xanımdan və öz tərəfindən çoxlu sovqat, “hədiyyə” gətirirdi. Hüseynqulu ağanın Qaraca qız ilə böylə rəftarını görüb ağalığa xidmət edən xitmətçilər də Qaraca qız ilə mehriban dolanırdılar. Onlar Qaraca qızdan oynayıb, oxumağı nə qədər təvəqqe edərdilərsə də,o, bunların təvəqqelərini qəbul etməyirdi. Çünki qonaqlıqda düşən ittifaqdan sonra bilmərrə oynayıb, oxumağı tərk etmişdi. Gününü bağda təkcə keçirirdi, yoldaşı da Qaraca köpək idi! Bu it Qaraca qız ilə öylə üns dutmuşdu ki, yanından o yana getməyirdi. Qaraca qız da itə öylə öyrəşmişdi ki, hər istədiyini əmələ gətirə bilirdi. Hüseynqulu ağa həmişə bunları bir yerdə görəndə zarafat edib deyərdi:

- İki qaralar yaxşı tapışmışlar.

Bir ittifaqdan sonra Qaraca qızın Qara köpəyə məhəbbəti daha da artdı. Bir gün Qaraca qız moruq yığmaq qəsdi ilə cəvərənini götürüb meşəyə getmişdi, Qara köpək də yanında idi. Meşə Hüseynqulu ağanın mülkü olub, özü də çox böyük meşə idi. Qaraca qız azmağından və meşə heyvanlarından qorxmayırdı. Çünki hər iki halda Qara köpəyin onu xilas edə biləcəyini anlayırdı. Meşədə cəvərənini moruq ilə doldurub evə tərəf üz qoydu. Meşənin içindən dəmir yol keçirdi. Qaraca qız yolu keçdiyi zaman ayağı büdrəyib yıxıldı və moruğu yerə töküldü. Bunu yığan vəqt vaqon göründü. Ancaq Qaraca qızın başı moruğu yığmağa qarışıb vaqonun gəlməsindən bixəbər idi. O vəqt Qara köpək meşədən yola çıxdı və Qaraca qızı başıaşağı moruq yığan və vaqonu iti gələn görüb ildırım kibi götürüldü və Qaraca qıza öylə döş vurdu ki, o da, özü də dərəyə uçdular. Qaraca qızın sağ ayağı ağaca ilişib qanadı, bunun ağrısından o Qara köpəyin böylə hərəkətindən acıqlanıb qışqırdı. Amma başını yuxarı qaldırdıqda vaqonun moruq tökülən yerdən keçib getməsini gördü. Qaraca qız imdi anladı ki, ağıllı köpək onu bu zor ölümdən qurtarmışdır, ona görə də dərhal acığı soyudu və Qaraca köpəyin başını sığallayıb onu əzizlədi. Sonra yenə yola çıxdı ki, görsün, cəvərəni necə olmuşdur. Gördü ki, ondan ancaq qırılıb yerə tökülən çöplər qalmışdır. Qaraca qız ölümdən qurtardığına çox şad olub cəvərənin tələf olmasına bir o qədər yanmadı. Bu ittifaqdan sonra Qara köpəyin hörməti ağalıq qapısında daha da artdı. Bu xəbər haman gün şəhərə çatdı. Ağca xanım dostu Qaraca qızın ölümdən qurtarmasına çox şad olub atasına yazdığı məktubun içində bir şahı iriliyində bir zərli kağız da qoymuşdu ki, bu da bən tərəfindən Qara köpəyə qızıl medal olsun! Ağca xanımın bu fikri Hüseynqulu ağaya çox xoş gəldi, doğrudan da, Qara köpəyə dövlət tərəfindən medal verilməsini lazım bildi.

***

Payızın orta ayı idi. On gündən sonra anası Ağca xanımı pansiyoya verəcək idi. Ona görə Ağca xanım anasından təvəqqe etdi ki, bu on günü onu kəndlərinə göndərsin. Pəricahan xanım razı olub dedi:

- Yaxşı, qızım, bən özüm də sən ilə bərabər oraya gedəcəyəm ki, bir az rahat olam. Yoxsa burada gedib-gələnlərin əlindən bir dəqiqə asudəliyim yoxdur. Anasından bu xəbəri eşitdikdə Ağca xanım çox şad oldu.

Səhər tezdən Pəricahan xanım qızını oyatmağa başladı:

-Qızım, yatdığın bəsdir, dur, yoxsa vaqona çata bilmərik, burada qalarıq!

Ağca xanım bunu eşidib tez yerindən durdu və geyinməyə başladı. Pəricahan xanım teleqraf vasitəsilə kəndə gəlmələrini Hüseynqulu ağaya xəbər verdi. O da nökərləri ilə onun pişvazına çıxmışdı. Ağca xanım sevgili atasıyla görüşməyə öylə tələsirdi ki, vaqon dayanan kibi, özünü vaqonun pəncərəsindən atasının qucağına atdı və boynunu qucaqlayıb aramsız öpməyə başladı.

- A qızım, bir dayan, anan ilə də salamlaşım, - deyə Hüseynqulu ağa Ağca xanımı yerə qoydu. Bu halda Ağca xanım Qaraca qızı yanında köpək ilə dayanmış gördü. Cəld özünü ona yetirdi. Qaraca qız görüşəndən sonra dedi:

- Bən buraya gizlincə gəlmişəm. Tez ol get, Pəricahan xanım bizi burada görməsin, yoxsa yenə acığı dutar.

- Doğru deyirsən, sonra görüşərik, - deyə ata, anasına yanaşdı.

Nökərlər şeyləri vaqondan daşıyıb faytonlara qoydular; sonra da hamısı yola düşdü. Ağalıq evi vağzaldan uzaq deyil idi. Qaraca qız ağalara görünməmək qəsdi ilə meşə yolu getdi. Ağalar qapıya çatdıqda hamı xidmətçilər qapıda cərgə ilə düzülüb – “Xanımlar, xoş gəlmisiniz!” – deyə baş endirdilər. Bunların içində Piri kişi də var idi. Pəricahan xanım Qaraca qızı orada görməyib rişxənd ilə qızına dedi:

- Qızım, bu da dostun Qaraca qızın vəfası!Gör səni necə tez yadından çıxarmışdı!

Ağca xanım anasının bu tənəsinə səbr edə bilməyib dedi:

- Bağışla, anacan, bənim dostum vağzala qədər yanıma gəlmişdi.Bən orada onun ilə görüşdüm.

Hüseynqulu ağa şaqqıltı ilə gülərək arvadına dedi:

- Hə, necəsən, payını aldınmı?!

- A, şeytanlar, yenə də bəni aldatdınız, - deyə Pəricahan xanım özü də güldü. Hjüseynqulu ağa arvadını könlü şad, fərahlı bir halda görüb fürsəti fövtə etmədi və dedi:

- Pəricahan! Sənə bir təvəqqem var, qəbul etməyini söz ver, deyim!

- Söz verirəm, de!

Hüseynqulu ağa dedi:

- Ağcanın ancaq on gün asudə vaxtı var. On gündən sonra onu quş qəfəsinə salan kibi hasarlı məktəbin havasız otağına salacaqlar. Daha bu gözəl havanı, yaşıl bağları, şırlayan suları görməyəcəkdir. Səndən təvəqqe edirəm ki, bu on günü ona azadəlik verib Qaraca qız ilə keyfi istədiyi qədər oynamağa, gəzməyə mane olmayasan. Budur bənim səndən təvəqqem!... Pəricahan xanım bir az dayanıb dedi:

- Qoy sən deyən kibi olsun, rüxsət verdim!

Bu cavabından hamı şad oldu. Ağca xanım şadlığından gahi anasını öpürdü, gahi atasını. Bu üzdən şad olanın biri də Piri kişi idi.

Ağca xanımın on gününün bir həftəsi bir saət mənziləsində gəlib keçdi. Bu yeddi gün gəzib oynamaqdan Ağca xanımın yanaqları qızıl gül kibi yanırdı.

Qaraca qıza gəldikdə o da bu yeddi günün dolanacağını ömrünün ən səadətli günlərindən hesab edib böylə tez gəlib keçməsinə əfsus edirdi. O, Ağca xanımdan ancaq yatmağa gedəndə ayrılırdı. Yuxuda da fikri onun ilə olduğunu onun

sayıqlamasından anlamaq olurdu. Hər axşam Ağca xanım ilə nə etdiklərini Piri kişiyə söyləyib sonra yuxuya gedərdi. Amma bir gecə heç nə söyləməyib qəmgin olaraq yerinə girdi.

- Qızım, neyçün kefsizsən, bir şey olmamış ki?

- Yox, baba!

- Bəs neyçün qəmginsən?

- Özüm də bilməyirəm, baba!

- Gözlərini yum, yuxula, qızım!

- Yuxum gəlməyir, baba, yürəgim sıxılır!

- Qoy sənin üçün nağıl söyləyim, qızım, bəlkə yuxun gələ!

Piri kişi Qaraca qızın başını sığallayıb başladı:

- Qızım, biri var imiş, biri yox imiş, Bir padşah var imiş. Bu padşahın dünyada övladsızlıqdan başqa bir qəm və qüs-səsi yox imiş...

- Baba, bən ölsəm, ağlarmısan?

- Allah eləməsin, qızım, öləsən, neyçün öləsən?

- Baba, bən ölsəm, bəni o Göy təpədə basdırınız! Oranı bən çox sevirəm: Oradan hər yer görünür; orada hər cür çiçək bitir. İmdi o çiçəklərin hamısı solmuşdur. Biz bu gün orada oynayırdıq.

- Sən neyçün ölürsən, qızım? Sən yaşayıb, bən qoca babanı o dediyin təpədə basdıracaqsan; Sonra böyükləşib ora gedəcəksən, uşaqların olacadır1 Sonra bənim kibi qocalıb qarı olacaqsan! Nəvələrinə vəsiyyət edəcəksən ki, bəni Göy təpədə Piri babanın yanında basdırınız. İmdi, qulq as. Qızım, nağılın dalını söyləyim!

Bir günü bu padşah öz arvadı ilə eyvanda əyləşdiyi zaman bir dərviş orada hazır olub dedi:

- Ey padşahi-dövran! Bilirəm, sizi qəmgin edən nədir? Bu əlimdəki almanı görürsünüzmü? Bunu ortasından tən böl, yarısını özün ye və yarısını arvadın! Sizdən bir oğlan dünyaya

gələcəkdir. Onun adını Məlik Məmməd qoyarsınız! O, bu alma parası kibi, yarı sənə, yarı arvadına oxşayacaqdır! Bunu deyib dərviş almanı padşaha atdı və özü də yox oldu...

Piri kişi gördü ki, Qaraca qız yuxuya getmişdir, ona görə də nağılını kəsdi və özü də yerinə girib rahət oldu.

Səhər Piri kişi qaydası üzrə tezdən qalxıb ocağı qaladı və çaydanı su ilə doldurub oda qoydu. Qaraca qız hələ oyanmamışdı. Piri kişi dəhrəni götürüb çıxdı. O bağda işləyib qurtarınca gün çıxıb xeyli qalxmışdı. Qaraca qız oyanmışdı isə də, hələ yerindən durmamışdı.

- Qızım, nə çox yatmışsan, sən heç böylə gecikməzsən. Azarlı deyilsən ki?

- Yox, baba, amma heç durmağa könlüm yoxdur.

Piri kişi komanın qapısını açıb dedi:

- Bax qızım, günəş nə gözəl çıxmışdır! Böylə vəqtdə ancaq tənbəl yerdə yatar!

Qaraca qız qalxıb aram ilə geyinməyə başladı. Sonra əl-yüzünü yuyub, çay içməyə məşğul oldu. Çaydan sonra bayıra çıxdı. Həqiqətən də, günəş xeyli parlaq idi. Bu halda Qaraca qızın gözünə bir qarışqa yuvası sataşdı; Onlara tamaşa etməyə başladı. Bu qarışqaların içində qanadlıları da var idi. Onlar qalxıb havada uçurdular. Gah da yuvanın ağzında gəzişib özlərini günəşə verirdilər. Piri kişi Qaraca qıza yaxınlaşıb dedi:

- Nəyə baxırsan, qızım?

- Qarışqalara baxıram, baba!Bunların içində qanadlıları da var, baba!

- Qızım, onların qanadları həmişəlik deyildir: Onlar töküləcəkdirlər. Bu gün bunların toy günüdür. Onların dişiləri erkəklərindən maya dutandan sonra hər ikisinin qanadları quruyub töküləcəkdir.

Qaraca qız babasından qarışqa toyu eşidən kibi əllərini biri-birinə vurub şaqqıltı ilə gülməyə başladı. Piri kişi də ona şərik olub dedi:

- Bəli, qızım, qarışqaların toyudur! Get qavalını gətir, bir az çal, qarışqalar səndən razı qalsınlar!

Piri kişinin bu fikri Qaraca qıza xoş gəlib, qaçaraq komaya getdi və qavalını götürüb çalmağa başladı. Piri kişi Qaraca qızın keyfi açılmağına şad olub, özü də odun doğramağa məşğul oldu.

***

Birdən Piri kişinin qualğına ağalıq tərəfdən qışqırıq səsi gəldi.

- Qızım, qavalını çalma, görək o səs nədir?

Qaraca qız dayandı. Doğrudan da, ağalıq tərəfdən səs-küy gəlirdi.

- Baba, bu səs Pəricahan xanımın səsidir!- deyə Qaraca qız qavalı yerə atdı və yıldırım kibi götürüldü. Həyətə çatdıqda gördü ki, Ağca xanımın biləyindən qan axır və Pəricahan xanım da ağlayaraq xidmətçilərə deyir:

- Aman, sizə qurban olum, tezcə biriniz Ağcanın yarasını sorun, ilanın zəhərini yerə tökünüz!

Amma heç kəs bu qorxulu işə cürət edib qədəm qoymayırdı. Qaraca qız Pəricahan xanımdan bunu eşitcək Ağcaxanımın qolundan zəhəri sorub yerə tökməyə başladı. Pəricahan xanım Qaraca qızın saçlarını öpə-öpə deyirdi:

- Ah, gözəl yürəkli Qaraca qızım, bağışla bəni! Sənin yanında xəcalətliyəm. Xudaya, bənə rəhmin gəlsin, qızımı öldürmə! Qaraca qızım, səni öz qızımdan artıq sevməyə söz verirəm, Qoyma Ağca ölsün. Qaraca qız Pəricahan xanımın naləsinə əsla fikir verməyib, ancaq öz istəkli dostunu ölümdən qutarmağa səy edirdi. Bir azdan sonra Qaraca qız nə qədər sordu isə, daha yaradan bir şey gəlmədi. Ağca xanım

yaradan bir o qədər şikayət etməyirdi, amma yaradan bir az yuxarı qaytan ilə möhkəm bağlanmış yerdən çox şikayət eidrdi. Ona görə də anasına dedi:

- Ana, qaytanı aç, qolumu kəsir!

- Yox, qızım, olmaz, onda zəhər bədəninə gedib səni öldürər. Səbr et, bu saət şəhərə telqraf vuracağam, atan həkim götürüb gəlsin. Bunu deyib Pəricahan xanım ditrəyə-ditrəyə bir telqraf yazdı və nökərə verdi ki, aparıb stansiyadan şəhərə vursun. Ağca xanımın qolunu bağlayıb yerdə yatırtdılar. Pəricahan xanım və Qaraca qız da yanında əyləşdilər. Bu vəqt Piri kişi də gəlib çıxdı. Əhvalatdan xəbərdar olub xeyli iztirab ilə içəri girdi. Pəricahan xanım onu görüb dedi:

- Baba, gördünmü başımıza nə gəldi?!

Piri kişi Qaraca qızın yüzünə baxıb böyük təşviş ilə dedi:

- Bəli, gördüm! Onu da görürəm ki, öz balanı ölümdən qutarmaq üçün bu atasız, anasız yetimi bəlaya saldın!..

- Baba, nə deyirsən, Əlhəmdülillah, Qaraca qıza heç şey olmamışdır!

- Yaxşı bax, xanım!

Bu halda Qaraca qız dedi:

- Baba, bədənim yanmağa başlayır, amandır, bənə su verin!

- Dur gedək, qızım, komamıza, görüm sənə nə çarə edirəm.

Pəricahan xanım dedi:

- Baba, sən Allah, öylə etmə, qoy burada yatsın, bir azdan Hüseynqulu ağa da həkim ilə gələcək.

Bu təvəqqeyə Ağca xanım da şərik oldu.

Piri kişi razı oldu. Qaraca qıza da Ağca xanımın yanında yer salıb yatırtdılar. Getdikcə Qaraca qızın əhvalı xarablaşırdı. Piri kişi tez-tez ayran qayırıb ona verirdi. Sonra Qaraca qızın yüzü şişməyə başladı. Hüseynqulu ağa gəlib çıxan

zaman Qaraca qızın boğazı şişib nitqdən kəsilmişdi. Həkim hər iki azarlıya baxdıqdan sonra dedi:

- Ağca xanımın heç bir qorxusu yoxdur. İlanın zəhərini bədənə yayılmamış rədd etməyə görə ölümdən xilas olmuşdur. O ki qaldı Qaraca qıza, onun əhvalı çox fənadır, çünki ağzında yarası olduğu cəhətinə zəhər qana qarışıb bədəninə yayılmışdır.

Bu xəbər hamını məyus etdi. Pəricahan xanım ağlaya-ağlaya dedi:

- Amandır, qoyma bu qız ölsün, əlindən gələn səyi müzayiqə etmə!

- Xanım, bu qızın dirilməsi çətindir, Ümid bir Allaha qalmışdır.

Pəricahan xanım dizi üstə çöküb dua etməyə başladı.

Piri kişi həqir bir nəzərlə ona baxıb dedi:

- Böylə olan surətdə Yazıq Qaraca qızımı komaya aparım, burada qalsa, xanıma əziyyət edər!

Bu sözlər Pəricahan xanımın yürəyinə ox kibi sancıldı.

- Yox, qoymaram, qoymaram, - deyə hönkürtü ilə ağlamağa başladı.

Amma həkim də Piri kişinin fikrinə şərik oldu. Ona görə Qaraca qızı komaya apardılar. Hərçənd həkim onun sağalmasından ümidini kəsmişdi, amma böylə ittifaqlarda lazım gələn köməklərin hamısını əmələ gətirdi. Komada həkimdən və Piri kişidən başqa Hüseynqulu ağa da var idi.

Bu rəhmdil kişi öz qızının bu qayda ilə sağ qalmasına razı deyil idi. Qaraca qızın yastığı yanında çöküb səmim qəlb ilə Allahdan bu qərib yetimin sağalmasını rica edirdi. Lakin öz canını özgə uğrunda fəda etmiş Qaraca qızın vəqti tamam idi!...

Dolmuş gözlərini açdı, günəşin şüalarına bir müddət baxdı, sonra gülümsündü, gözlərini yenə yumdu! Qaraca qız öldü!..

- Komamın bülbülü uçub getdi!... – deyə Piri kişi göz yaşını tökdü.

- Xudaya, böyük ruhun xatirinə müqəssir valideyni əff et! – deyə Hüseynqulu ağa dua etdi.

Bu xəbər bir dəqiqədə ağalığa yayıldı və cümləni qəmgin etdi. Pəricahan xanım dutduğu əməldən peşiman olub qız ilə bərabər yanıqlı-yanıqlı ağlayırdı. Qaraca qızın vəsiyyətini əmələ gətirdilər: Onu Göytəpədə dəfn etdilər.

Hüseynqulu ağa Qaraca qızın qəbrinin üstündə böyük bir nişangah tikdirdi və baş daşının üstündə yazını öz dostu Ağca xanımın uğrunda fəda etdiyini yazdırdı ki, bu böyük fədakarlıq baqi qalsın.

سلیمان آخوندوف

# ظرافت

آذرنشر
باکو — 1927

## QARACA QIZ
## (Sülüeyman Sani Axundov. Zərafət, 1927-ci il)

Qafqaz şəhərlərinin birində usta Zeynal adlı bir sərrac öz arvadı Şərəfnisa ilə yaşayırdı. Bunlar İran əhli idilər, öz vilayətlərində məişətləri məşəqqət ilə keçməyə görə vətənlərini buraxıb buraya gəlmişdilər. Usta Zeynal sərraclıq edib külfətini bir tövr dolandırardı. Usta Zeynal övladdan yalnız altı yaşında Tuti adlı bircə qızı vardı. Tuti çox qara və çirkin idi. Anası ona körpə vəqtindən "Qaraca qız" deyib çağırdığına görə əsl adı unudulub, hər kəs onu bu ad ilə çağırardı. Qaraca qız çox nadinc idi və özü qız taifəsi ikən qızlar ilə oynamağı sevməzdi; həmişə oğlan uşaqları ilə oynardı. Uşaqlar Qaraca qızdan qorxardılar; çünki o, çox cürətli idi və yumruğunun da qabağında heç kəs dura bilməzdi. Qaraca qız həmişə zəifin tərəfini dutardı. Qaraca qızı ata-anası nadincliyi üçün nə qədər döyərdilərsə də, əsla ağlamazdı. Anası ondan qomşulara şikayət edib deyərdi:

- Qaraca qızı su batırmaz, od yandırmaz.

Bununla böylə Qaraca qız çox rəhmdil və səxavətli qız idi: hər nə əlinə düşseydi, yoldaşları ilə bölüşərdi.

Usta Zeynal sakin olduğu şəhərdə tez-tez zəlzələ olardı. Bir qış haman şəhərdə böyük zəlzələ olub, çox ev uçurtdu. Zəlzələ gecə yarısı xalq şirin yatan zaman ittifaq düşdüyünə görə çox adam çökmüş evlərin altında qalıb tələf oldu. Səhər açıldıqda ətrafdan xəlq tökülüb şəhərə köməyə gəldi. Adamlar dəstə-dəstə olub əllərində kürək, bel, külüng, uçuqları qazmağa başladılar. Ata oğulu, oğul atanı, qardaş bacını səsləyə-səsləyə daş torpağı ayırırdılar. Bir dəstə də usta Zeynal olan evi qazıyırdı. Əvvəlcə Şərəfnisanın, bunun dalınca usta Zeynalın meyiti çıxdı. Bir az da qazandan sonra bir deşik açıldı, çıplaq bir balaca qız sıçrayıb çıxdı. Bu qız haman Qaraca qız idi. O, ata-anasının meyitlərini görüb ağlamağa

başladı. Hər kəs öz qohum əqrabasını aramağa məşğul olub, Qaraca qızın qeydinə qalan yox idi. Zəlzələdən iki gün qabaq bir dəstə qaraçı bu şəhərin kənarında çadır qurub düşmüşdü. O dəstədən bir qaraçı arvadının Qaraca qıza yazığı gəlib çadırlarına apardı və orada ona yemək və paltar verib ocağın qırağında oturtdu. Qaraçılar Qaraca qızın yetim qalmağını və onun burada heç bir kəsi olmayıb qərib olduğunu bilib öz yanlarında saxlamağa naçar qaldılar.

Qaraca qızı qızlığa götürən qaraçı arvadı Yasəmən iyirmi yaşında gözəl surətli, yumşaq təbiətli, şad ürəkli bir qadın idi. Xasiyyəti cəhətinə Yasəməni hamı sevərdi; amma onun əri Yusifi heç kəs sevməzdi; çünki o, çox bədxasiyyət, tündməcaz, zalım bir şəxs idi. Yasəmən qaval çalıb oxumaq və oynamaq ilə pul qazanıb dəstəyə xeyli mənfəət verərdi. Onun əri Yusif dəqapı-qapı gəzib ayı oynadardı.

Yasəmən Qaraca qızı çadıra gətirən zaman Yusif orada yox idi; çünki dəstənin bir hissəsi onunla bərabər sübh tezdən buradan çıxıb yola düşmüşdü. Yerdə qalanı getməyə yığışırdı. Yasəmən ərindən çox qorxurdu; çünki bilmirdi ki, o, Qaraca qızı qəbul edəcək, ya yox. Bunun üçün Yasəmən iztirabda idi.

Qaraçı dəstəsinin yerdə qalanı da yola düşdü.Yasəmənin iztirabı bihudə deyil imiş; çünki dalda qalmış dəstə gəlib yoldaşlarına çatdıqda Yusif əhvaldan xəbərdar olub çox acıqlandı və bir kəndə çatan kibi Qaraca qızı orada qoyub gedəcəyini söylədi. Yasəmən ərinə yalvardı ki, o, böylə işi etməsin, lakin Yusif ona qulaq asmadı. Qaraca qız isə yürəgində bu işə şad idi. Çünki Yusifdən qorxurdu və qorxmağa da haqlı idi: Yusifin heybətli sifəti və ələlxüsus qara və pərtlək gözləri nəinki uşağı, hətta böyük adamı da qorxuya salırdı. Yasəmən ərinin təməkarlığını bilirdi, ona görə Qaraca qızın gələcəkdə onlara böyük mənfəət verməyini söylədi:

- Yusif, bilirsənmi mən nə fikirdəyəm? Mən Qaraca qıza mahnı oxumaq, özüm kibi oynamaq öyrədəcəgəm və üst-

başını bəzəyib, kəndlərdə, şəhərlərdə oynadacağam.Sənin üçün pul yığacağam.

Bu fikri Yusif bəgənib Qaraca qızın dəstədə qalmasına razı oldu.

***

Vətənsiz qaraçıların məişətini Qaraca qız çox bəyənirdi, bu gün burada, sabah bir taza yerdə, çay qırağında, meşə kənarında mənzil edib çadır qurma, ocaq çatıb xörək bişirmə, bir yerdə mahnı oxuma, nağıl söyləmə - bunların hamısı Qaraca qıza çox xoş gəlirdi. Əvvəl vəqtlər Qaraca qız Yusifin ayısından qorxurdu, amma sonralar öyrəşib, onunla çox dost olmuşdu. Ayı da onun ilə oynamağı sevirdi. Yasəmən Qaraca qızı ərinə söz verdiyi kibi yaxşı geyindirib, oxumaq və oynamaq öyrətmişdi. Tamaşaçılar Qaraca qızın gözəl səsinə və oynamasına təəccüb edib heyrətdə qalırdılar. Qaraca qız balaca qavalını açıb tamaşaçılara tərəf dutanda dərhal onun içi pul ilə dolurdu. Bu isə Yasəməni artıq şad edirdi. Yusif bu barədə arvadından və Qaraca qızdan razı idisə də, yenə hər ikisini xasiyyətin pisliyindən çox incidərdi.

Qaraca qızın təbiətində inadcıllıq vardı. Bu xasiyyətinə görə Yusifdən nə qədər kötək yeyirdisə də, yenə tərsliyindən əl götürməzdi. Qaraca qız ancaq Yasəmənin sözündən çıxmazdı. Çünki Yasəmən onunla çox mehribandolanardu. Yusif Qaraca qızın tərsliyinə təəccüb edib arvadına deyərdi:

- Bu zorbalıqda ayı mənim qamçımın qorxusundan hər cür oyun çıxardır, amma bu balacalıqda qızın əlində aciz qalmışam!

Yasəmən ona böylə cavab verərdi:

- Bunun səbəbi odur ki, ayı heyvandır, bu isə insandır!.. Heyvan ilə edilən rəftar insan ilə edilməz. Heyvana yoğun çubuq lazım isə, insana mehriban rəftar, mülayim söz lazımdır!

Yusif arvadının bu doğru sözünə inanmayıb deyərdi:

- Yox, bu bir səbəb deyildir, sən olmasan, bən onu iki günün ərzində mum kibi edərəm!

Ər ilə arvadın arasında olan böylə söhbətin nəticəsi o olardı ki, Yusif Qaraca qızı daha da artıq kötəklərdi.

Qaraca qız bu zülmdən xilas olmaq üçün neçə dəfə qaçmaq fikrinə düşmüşdüsə də, yenə axırda ancaq Yasəmənin xatiri üçün fikrini əmələ gətirməmişdi.

***

İki ildən artıq idi ki, Qaraca qız qaraçı dəstəsində yaşayıb, mahnı oxumağı və oynamağıyla ətrafda məşhur olmuşdu. Yusif Qaraca qızı çox incidəndə Yasəmən onu qorxudub deyərdi:

- Bu zavallı qıza nə çox əziyyət verirsən?! Axırda bu qız səni qoyub qaçar və sənin də əlin böylə böyük mənfəətdən çıxar.

Bu sözlər həmişə Yusifə təsir edib, Qaraca qızı döyülməkdən bir müddət çəkinərdi.

Yayın orta ayı idi. Günün istisindən insanlar, heyvanlar və quşlar cümləsi kölgə yer və sərin su arayırdı. Qaraçı dəstəsi bir dağ üzərindən axan çayın kənarında çadırlarını qurub mənzil etmişdi. Günorta vəqti idi. Qaraçılar hərəsi bir işə məşğul idi. Yusif ayısını götürüb yaxın kəndə getmişdi. Yasəmən çayın qırağında su qızdırıb, paltar yuyurdu. Qaraca qız da çayda çimirdi. Çay dağ döşündən gəldiyinə görə xeyli iti və xarıldaya-xarıldaya axırdı. Amma suyu az olduğundan Qaraca qız üçün qorxusu yox idi. Yasəmən paltarı yuyub kolların üstünə sərdi ki, qurusun, özü də başını yumaq fikri ilə uzun qara saçlarını hörükdən açıb döşünə tökdü. Yasəmən Qaraca qızı səslədi ki, gəlib onun başına su töksün. Qaraca qız iki arşın yucalıqdan tökülən şəlalənin altında durub çimdiyinə görə Yasəmənin səsini eşitmədi. Bir azdan sonra

Yasəmən Qaraca qızı bir də çağırdı, bu səfər də cavab almadı. Yasəmən saçlarını döşündən yığıb belinə atdı; bu halda qulağına çay tərəfdən sel gurultusu gəldi. Bunu eşitcək Yasəmən dik atılıb çaya tərəf yügürdü. O vəqt Qaraca qız hələ şəlalənin altındaydı. Yasəmən çayın yuxarısından daşları və kolları yumalaya-yumalaya, gurultu və nərilti ilə gələn seli görüb, var gücü ilə qışqırdı:

- Qızım, tez ol qaç, sel gəlir!

Qaraca qız Yasəmənin səsini eşidib, şəlalənin altından çıxdı, ancaq bir neçə addım qoymamışdı ki, sel onun üstünü cəllad kibi aldı. Yasəmən işi böylə gördükdə alıcı quş kibi özünü çaya atdı. Yasəmən özünü Qaraca qıza yetirincə sel qızı götürdü və bir neçə saniyə suda itirdi. Bir az sonra qızın başı göründü. Yasəmən özü də bir neçə dəfə suya batıb çıxandan sonra üzüb Qaraca qıza çatdı və saçlarından dutub çiyninə aldı. Hərçənd Yasəmən çox yüzücü idi, amma bu iti axan, daşları və böyük kolları yumalayan seldə yüzmək mümkün deyildi. Qaraçılar Yasəmənin qışqırığını eşidib köməyə töküldülər; sel getdikcə artırdı. Axırda sel bunları bir böyük daşa çırpdı. Qaraca qız Yasəmənin əlindən çıxıb daşın üstündə qaldı, amma onun özünü sel götürüb yüzü aşağa axıtdı. Qaraçılar suya tökülüb hər ikisini sudan kənara çıxartdılar. Bunların ikisi də bihuş qalıb yerə sərilmişdi. Yüzlərinin rəngi ölü rəngi kibi idi. Qaraçılar xeyli çalışdıqdan sonra hər ikisini huşa gətirdilər. Qaraca qızın bədəni bir neçə yerdən daşlara dəyib qaralmışdı, amma qorxusu yox idi. Zavallı Yasəmənə gəldikdə, başı bir neçə yerdən yaralanmışdı. Lakin rəhmdil arvad özünə gələn kibi yaralarını unudub tez zəif səslə Qaraca qızı soruşdu. Qaraçılardan biri Qaraca qızı qucağına götürüb Yasəmənə göstərdi.

- Bax, Yasəmən, budur, Qaraca qız sağdır, arxayın ol. Yasəmən bir qədər ona baxdı. Sonra yenə bihuş olub, gözləri yumuldu. Qaraçılar Yasəmənin yaralarını sarıyıb Qaraca qız

ilə bir yerdə çadırlarına apardılar və hər ikisinə yer salıb rahət etdilər. Axşamçağı Yusif gəlib evə çıxdı və yoldaşlarından bu xəbəri eşidib çox qəzəbləndi və dedi:

- Mən bilirdim ki, bu uçuqdan çıxmış qız axırda bizim başımıza bir bəla gətirəcəkdir!

Qaraçılar Yusifi sakit edib dedilər:

- Qorxma, heç zad olmaz. İmdi hər ikisinə rahət olmaq lazımdır; durun bayıra çıxaq ki, səs-küy olmasın. Burada yalnız Yasəmənin dostu Hüsniyyə qalar. Qaraçılar Yusif ilə bərabər bayıra çıxdılar, Çadırda ancaq Hüsniyyə qaldı.

Qaraca qız tamam gecəni ufultı və zarıltı ilə keçirib sübhə yavuq yuxuya getdi, amma Yasəmən qızdırma içində sərsəm edərək bir dəqiqə rahət olmadı. Vəfalı Hüsniyyə rəfiqəsinin yanını kəsdirib, səhərə kibi gözlərini yummadı. Yasəmənin qızdırması getdikcə artırdı. Səhər açıldıqda hərarəti 40 dərəcəyə çatdı. Yazıq Yasəmən qızdırmanın təsirindən tora düşmüş quş kibi yerində çabalayırdı. Onun gözləri həmişə yumulu idi. Gecə yağış yağmağa görə səhərin havası çox saf və təmiz idi. Dünənki bəlanı törədən çaylağın suyu imdi enib əvvəlki həddinə düşmüşdü. Onun həzin şırıltısı, quşların cəh-cəh və qülqüləsinə qarışmışdı. Qaraca qızın sevgili şəlaləsi günün qırmızı şöləsindən parlayırdı. Axırda Yasəmən gözlərini açdı. Biçarənin lalə kibi yanaqları solub, zənbəq rənginə düşmüşdü. Yasəmən Hüsniyyəni tanıdı. Zəif səs ilə ona dedi:

- Hüsniyyə, Yusif haradadır?

- Bayırdadır, bacım, çağırımmı?

- Çağır, hamını çağır... Ölürəm...

- Qorxma, bacım, ölməzsən, bu gün haradan olmuş olsa, sənin üçün həkim tapıb gətirdəcəgəm! – bunu deyib Hüsniyyə bayıra çıxdı və bir azdan sonra Yusif başqa qaraçılar ilə bərabər içəri girdi. Qaraçılar Yasəmənə yürək verirdilər. Yasəmən dedi:

- Yox, əzizlərim, mən ölürəm!.. Yusif!Əlini mənə ver!.. Vəsiyyətimə qulaq as... Əmələ gətirməyə söz ver!..

Bir az dayanıb, yenə tazadan başladı:

- Yusif, budur, dört ildir ki, sənəarvadam! Bu vəqtə kibi səndən dögüşdən, sögüşdən başqa bir şey görmədim... Cavan ömrümü çürütdün... Mənə min cür zülm və cəfa etdin. Bunların hamısını bağışlayıram! Ancaq sən də mənə söz ver ki, bundan sonra Qaraca qız ilə mehriban rəftar edib, onu incitməyəcəksən!..

Yasəmən səsini kəsdi. Çadırda bir müddət sakitlik oldu. Sonra Yusif dedi:

- Bu yoldaşlarımın hüzurunda vəsiyyətini əmələ gətirməyə söz verirəm!

Bu sözlərdən Yasəmənin üzündə şadlıq zühuretdi və Hüsniyyəyə dedi:

- Bacım, Qaraca qızı sənə tapşırıram. Ondan müğayət ol!..Ah! Gözlərimə qaranlıq çökür!.. Məni boğurlar... Yusif.. Hüsniyyə... Qaraca qız!.. – deyə Yasəmən sayıqlaya-sayıqlaya vəfat etdi.

***

Yasəmənin vəfatından sonra Yusif bir müddət verdiyi əhdə vəfa etdi, lakinsonralar təbiətində qoyulmuş fəna məziyyətləri yenə aşkar olmağa başladı. Hüsniyyə bacardığı qədər Qaraca qızı Yusifin zülmündən mühafizə edirdi. Ancaq iş orada idi ki, Yusif Yasəmənin vəfatından sonra Qaraca qız ilə pul qazanmaq üçün hər gün səhər mənzildən çıxıb bir də axşam qayıdırdı. Hüsniyyə zavallı yetimin yüzünə baxdıqda sualsız da anlayırdı ki, o biçarə Yusifdən nə qədər zülm və əziyyətlər çəkir. Axır vəqtlərdə Yusif bir fəna əmələ də mürtəkib olmuşdu: Böylə ki, əlinədüşən pulu içkiyə verib tez-tez məst olurdu.

Yusifin böylə vəqtlərində Qaraca qızın günü daha da qara olurdu. Bir dəfə Yusif və Qaraca qız yol ilə gedirdilər. Bunlar bir dəstə atlı cavan oğlanlara rast gəldilər. Bu cavanlar şəhərə toya gedirdilər. Bunlar Yusifgilə təklif etdilər ki, bir az çalıb oxusunlar. Yusif razı oldu. Qaraca qızın oxuyub-oynamağı cavanlara çox xoş gəldi. Onlar biri birinin bəhsinə Qaraca qızın qavalını ağ və qara pul ilə doldurdular.

- Sağ ol, çox yaşa, Qaraca qız! – deyə cavanlar atlarını sürdülər. Yusif sevincək Qaraca qzıdan pulları alıbcibinə tökdü və dedi:

- Gəl, qızım, sən ayı ilə o kölgədə otur, dincini al, mən də gedim o görünən kənddən çörək və sənin üçün də fındıq və kişmiş alım.

Bu sözdən Qaraca qız əsla şad olmadı; çünki bilirdi ki, görünən kənd erməni kəndidir və Yusif də oraya içməyə gedirdi. Amma bununla böylə bir söz demədi.

Bunlar yoldan kənara çıxıb kolluğa tərəf yüz qoydular. Yusif bir böyük kol seçib ayını oraya bağladı və Qaraca qıza dedi:

- Ağıllı qızım, otur burada, bu saət gələcəyəm. Yusif getdi. Qarca qız da kölgədə uzandı və bir azdan sonra şirin yuxuya getdi. Ayı bir müddət sakit uzandı. Sonra durub zəncirini dartmağa başladı. Kolun budağı ayının gücünə dəvam etməyib, qopdu. Ayı özünü asudə görüb bir müddət kolluqda gəzdi, sonra yüzünü meşəyə tərəf dutub getdi.

Yusifin kəndə getdiyi saət yarım çəkdi. Qaraca qız yuxudan hələ oyanmamışdı, axırda Yusif məst halında o tərəfə bu tərəfə yırğalana-yırğalana gəlib çıxdı. Qaraca qızı yatmış görüb və ayını bağladığı yerdə tapmayıb ayağı ilə Qaraca qızı öylə bərk vurdu ki, biçarə dik atıldı.

- De görüm, ayı hanı? Mürtəd qızı, mürtəd!

Qaraca qızın qorxudan dili dutulub cəvab verə bilmədi.

- Hələ dayan! Qoy ayını tapım, Sənin payını sonra verəcəgəm! Yusif kola diqqət ilə baxıb gördü ki, ayını bağladığı budaq qopubdur və özü də yoxdur.Bundan anladı ki, ayını oğurlamamışlar, özü kolu qoparıb meşəyə qaçmışdır.

- Düş qabağıma, ayı meşəyə qaçmışdır, gedək tapaq!

Qaraca qız titrəyə-titrəyə yola düşdü. Yusif yol uzunu gah Qaraca qızı sögüb qorxudurdu, gah da özü –özünə danışırdı. Bunlar meşənixeyli dolandılar, amma ayıdan bir əsər görmədilər. Birdən Qaraca qızın qulağına ayının bağırtısı gəldi.

- Eşidirsənmi, əmu, bu tərəfdən ayının bağırtısı gəlir!

- Heç zad eşitmirəm, yalan deyirsən!

- Bax! Bax! Yenə bağırır!

Bu dəfə Yusifin özü də eşitdi.

- Doğru deyirsən, bağıran ayıdır!

Hər ikisi səs gələn tərəfə yüz qoydular. Ancaq səs meşəyə düşməyə görə ayının yeri yavuq görünürdü, amma həqiqətdə xeyli uzaq idi. Axırda gəlib ayını tapdılar. Ayı zənciri ilə ağaca dolaşıb dartınırdı və bağırırdı. Yusif ona çatan kibi hirsindən və acığından ayını azad etmədən əvvəl əlindəki ağac ilə onu dögməgə başladı. Ayının bağırtəısı meşəni başına götürmüşdü. Axırda ayı dartınıb xaltasını başından çıxartdı və ildırım kibi özünü Yusifin üstünə atdı. Bir dəqiqə keçmədi ki, qızmış ayı sahibini parçaladı. Qaraca qız bunu gördükdə dəhşətli bir hal ilə qaçmağa başladı. Ancaq qorxudan özünü itirib yol əvəzinə meşənin ortasına tərəf qaçdı. Bir azdan sonra ayı Yusifin meyitini buraxıb Qaraca qızın dalınca düşdü. Bunu gördükdə zavallı qızın bədəninə titrəmə düşdü və var gücilə qaçmağa başldı. Getdikcə ayı Qaraca qıza yavuqlaşırdı.Bu halda Qaraca qızın qabağına bir uçurum dərə çıxdı. Qaraca qız dərədən endikdə ayı özünü ona çatdırdı. Ancaq o, eniş aşağı qaça bilmədiyindən dərənin içinə Yumalandı. Qaraca qız fürsət tapıb özünü dərənin döşündəki mağaraya

saldı. Bu mağaranın ağzı enli idi, amma içəri getdikcə daralırdı. Ayı dərənin dibinə kibi yumbalandı. Sonra ayağa qalxıb yüzü yuxarı dırmaşmağa başladı. Məlumdur ki, ayının dal ayaqları qısa olduğundan enişi pis və yoxuşu asan dırmaşa bilir. Ayı axtarıb mağaranı tapdı və içinə girdi. Qaraca qız sürünə-sürünə özünü mağaranın dar bir yerinə saldı. Ayı isə onu bacarmadı və bir az donquldayıb, mağaranın ağzında yatdı. Qaraca qız tərpənməyə də qorxurdu, ancaq onun qorxusunahaq idi; çünki imdi ayının hirsi yatmışdı, ona dəyməzdi və bəlkə də, onun orada olmasına şad olardı.

***

İki saətdən artıq idi ki, Qaraca qız mağaranın içində uzanıb qalmışdı. Biçarə qız ayının qorxusundan özünü mağaranın deşiyinə öylə pərçim etmişdi ki, tərpənməyə dəimkanı yox idi. Bir tərəfdən mağaranın içindəki havanın azlığı, digər tərəfdən də ayının vahiməsi zavallı qızı bihuşluq halına salmışdı. Ayı isə fısıldaya-fısaldaya yatmışdı. Birdən ayı oyanıb donquldamağa başladı. Bu halda Qaraca qızın qulağına çoxlu it səsi gəldi. Ayının da donqultusu artdı. Çox çəkmədi ki, itlər hürə-hürə mağaranın ağzını aldılar. Ancaq cürət edib içəri girə bilmədilər. Bir azdan atlı avçılar qışqıra-qışqıra gəlib çıxdılar. Bunlar mağaranın içindən ayının nəriltisini eşidib tüfənglərini hazırladılar və itləri içəri qısqırtdılar. Onlardan bir neçəsi cürətlənib mağaranın içinə soxuldu. Ancaq çox çəkmədi ki, yenə zingildəyə-zingildəyə geri qayıtdılar. Onlardan bir-ikisi yaralanmışdı. Bu halda avçılar bayırdan:

- Axdar, bas! Xallı, bas! Gümüş, bas! – deyə itləri qısqırdılar. Onlar da cürətlənib, yenə özlərini içəri soxdular və ayı ilə dutaşdılar. Ayı bir müddət onlar ilə boğuşandan sonra mağaradan sıçrayıb çıxdı. Bu halda üç güllə birdən onun

üzərinə açıldı. Bunlrın zərbindən biçarə ayı boğanaqdan yıxılan ağac kibi yerə sərildi. Bir adam dedi:

- Afərin mənim gülləm!

- Xeyr, Hüseynqulu ağa, səhv edirsən, ayını öldürən mənim gülləmdir.

- Bağışla, Səlim bəy, mən ayını başından atmışım. Yəqin ki onu yıxan mənim gülləmdir!

- Səbr edin, əzizlərim! Bu saət məlum olar, - bunu deyə, əvvəlki adam atdan düşdü və nökərlərin köməgilə ayının cəmdəgini o yana-bu yana çevirdi və diqqət ilə baxmağa başladı. Sonra da dedi:

- Əzizlərim, heç bəhs etməyin, üçümüzün də gülləsi ayıya dəymişdir!

Sonra yüzünü nökərlərə tərəf dutub dedi:

- Cəld ayının dərisini soyun! Rəhim bəy, sənə demədimmi ki, ayısız bu avdan qayıtmayacağam? Öylə öz meşənizi tərif edib məni məsxərə edirdiniz ki, sizin meşənizdə dovşan da tapılmaz! Pəs bu nədir?

Bu halda Rəhim bəy ayıya diqqət ilə baxıb dedi:

- Yenə də, Hüseynqulu ağa, öz fikrimdə möhkəm durmuşam! Bu ayı meşə ayısı deyil, əldə bəslənmiş ayıdır.

- Öylə iş ola bilməz! Onu haradan bildin?

- Budur, bax, ayının boyun tüklərini zəncir aparmışdır, Səlim bəy, gör doğrumu deyirəm?!

Səlim bəy baxıb Rəhim bəyin sözünü təsdiq etdi. Bundan sonra bəylər qaqqıltı ilə gülməyə başıladılar. Hüseynqulu ağa əvvəl dostlarının sözünü zərafət hesab etdi, amma sonra özü də diqqət ilə baxıb şəkkə düşdü. Bu halda həvəslənib av itlərinə qoşulan Hüseynqulu ağanın Qara köpəyi mağaraya girdi, bunun dalınca başqa itlər də getdilər və yenə içəridə hürüşmə başladı. Bunu gördükdə Hüseynqulu ağa dedi:

- Deyəsən, mağarada yenə ayı var?

Bəylər tüfənglərini hazırlayıb mağaranın ağzını kəsdirdilər. Bu zaman Qara köpək Qaraca qızın ayağından dutub itlərin arasından onu sürüyə-sürüyə mağaradan bayıra çıxartdı. Bəylər bunu gördükdə təəccüb edib heyrətdə qaldılar.Qara köpək Qaraca qızı buraxdı, amma o, hərəkətsiz qalıb ayağa qalxmadı. Bəylər Qaraca qızın üstünü aldılar. O, zəif bir hal ilə gözlərini açdı;lakin harada olduğunu anlamadı. Hüseynqulu ağa ondan soruşdu:

- Qız, sən kimsən? Bu mağarada nə qayırırdın? Qaraca qız cavab vermədi. Rəhim bəy dedi:

- Hüseynqulu ağa, görmürsənmi, qız hələ lazımınca özünə gəlməmişdir? Nə sual edirsən? Mən əhvalatı onsuz da anlayıram. Qızın sifətindən və libasından qaraçı qızı olmasını düşünməyirsənmi? Bu av etdiyimiz ayı da əldə bəslənmiş qaraçı ayısıdır. Ancaq sahibi haradadır? Burası menim üçün aşkar deyildir.

Səlim bəy qıza diqqət ilə baxıb dedi:

- Ha, bu qızı mən görmüşəm. Məşhur oxuyan və oynayan Qaraca qızdır, sahibi də qaraçı Yusifdir. Üç ay bundan qabaq ona nə qədər pul və xələt vəd etdimsə də, bu qızı mənə satmadı; imdi yaxşı əlimə düşübdür! Siz öləsiniz, gündə qonaqlıq edib sizə böyük keyf verəcəgəm.

Hüseynqulu ağa bunu eşitdikdə dedi:

- Deməк, o keyfi mən verə bilmərəm? Əslinə baxsan qız mənə çatar; çünki mənim köpəgim tapmışdır.

Bəglərin arasında bəhs düşdü. Səlim bəy dedi:

- Hüseynqulu ağa, özün yaxşı bilirsən ki, arvadın Pəricahan xanım qaraçı qızını evinə qoymaz, nə üçün bəhs edirsən?

- Nə üçün qoymur? Ev sahibi odur, yoxsa mən? Bundan əlavə, qızı Piri kişiyə verəcəyəm, saxlasın.

Bəglər buna razı oldular.

Hüseynqulu ağa Qaraca qızı nökərlərinə tapşırdı. Bəglər yenə av etməyə başladılar, lakin dörd saata qədər meşəni dolanıb, bir tülkü vəüç dovşandan başqa əllərinə bir av keçirə bilmədilər, ona görə avı tərk edərək yola düşdülər. Qaraca qız özünə gəlib yol uzunu başına gələn əhvalatı alayarımçıq nağıl etdi. Hüseynqulu ağaonun atasız-anasız yetim olduğunu eşidib dedi:

- Çox gözəl oldu. İmdi heç kəs qızı məndən ala bilməz.

***

Hüseynqulu ağa 40 yaşında böyük bir mülkədar idi. 13 yaşında ikən atası onu bir növ ilə orta məktəbə qoya bilmişdi. Amma Hüseynqulunun fikri həmişə at minməkdə, ava çıxmaqda olub oxumaq ilə əsla arası yox idi. Hər il o sinifdə, bu sinifdə qala-qala bir növ ilə dördüncü sinfə çıxa bilmişdi. Daha bundan yuxarı gedə bilməyib məktəbdən xaric oldu. Bu zaman atası vəfat etdi. Onun cəmi mülkü tək bir oğlu Hüseynquluya qaldı. O da günlərini eyş və eşrətdə, qumarda, yava yollarda keçirməgə başladı. Düz 30 yaşına çatana qədər özü kibi fəna arkadaşları başına yığıb mülkünün çox hissəsini keyfə qoydu. Axırda qohumları onu bu pis yoldan qaytarmaq üçün evləndirdilər. Ona oxumuş bir bəg qızı aldılar. Lakin evlənəndən sonra da fəna əməllərindən əl götürmədi. Bundan əlavə arvadı Pəricahan xanımla evdə xasiyyətlıəri dutmadu. Pəricahan xanım Avropa xanımlarını təqlid edərək köhnə qulluqçuları qovub onların yerinə taza qulluqçular dutdu. Evin hər bir qaydasını Avropa səliqəsinə saldı. Hüseynqulu ağa bu taza qaydaları sevmədigi üçün əlinə bəhanə düşüb kənd evlərinə köçüb orada günlərini keçirməyə başladı. Şəhərdə az-az görünürdü.

Hüseynqulu ağanın mülkündəki evi çox səfalı bir yerdə idi. Bu evin yanından çay axırdı və meşə də çox yaxın idi. Dəmir yol isə mülkün bir verstliyində idi. Pəricahan xanım

ərini təsir altında saxlamaq üçün kənd evlərinə köçməgə məcbur oldu. Nağıl etdiyimiz zaman onların 6 yaşında “Ağca” adlı bir qızları vardı. Bu yaşa gəlincəAğca xanım Avropa qaydasınca tərbiyə almışdı. Həmişə də yanında bonası olurdu. Anasının tapşırığına görə bonası onu kimsə ilə oynamağa, gəzməyə buraxmırdı. Ağca xanımın tərbiyəsi üstə həmişə ər ilə arvadın arasında bəhs gedirdi.

***

Axşamçağı Hüseynqulu ağa öz dostları Rəhim bəy və Səlim bəy ilə bərabər, düşmənə qalib gəlmiş kumandan kibi, evinə varid oldu. İtlərin hürməgi, avçıların səsləri, nökər və mehtərlərin qışqırığı biri-birinə qarışmışdı, Ağca xanım bu səs küyə bonasından iznsiz evdənbayıra çıxdı.Kənarda durmuş Qaraca qızı görüb ona yaxınlaşdı. Qaraca qız və Ağca xanım nəzərlərini biri-birinə salıb bir müddət diqqət ilə baxışdılar. Bu iki uşaqların arasında böyük fərq vardı: biri iki bəyzadədən törəməhökmdar sinfinin övladı, digəri iki yoxsuldan törəmə bir əyəl balası! Biri zəif, zərif, hər bir şeydə özgəyə möhtac olduğu kibi; o biri isə polad kibi sağlam bədənli, az yaşında çox görmüş, öz zəhmətilə məişət edən bir çocuq! Birinin baxışı sanki özgələri köməyə; o birinin nəzəri isə hamını qovğaya çağırırdı.

Ağca xanım zərif əlini Qaraca qıza uzatdı, o da kobud barmaqları ilə onun əlini sıxdı. Ağca xanım bu sıxmağa dəvam etməyib qışqırdı, sonra güldü. Bir az çəkmədi ki, şirin söhbətə başladılar. Bu vəqt Hüseynqulu ağa Qaraca qızı unudub otaqda bəglər ilə av bəhsinə girmişdi. Ağca xanım ilə Qaraca qızın söhbəti çox çəkmədi. Pəricahan xanım otağından həyətə endi və qızını Qaraca qız ilə şirin söhbət edən görüb çox bərk acıqlandı və bonanı çağırıb dedi:

- Nə üçün öz vəzifənizi unudursunuz, xanım? Baxın, tərbiyə verdiyiniz qız kim ilə ülfət etmişdir? Otağına aparın! Bu gecə şamsız qalacaqdır.

Bona gözü yaşlı zavallı Ağca xanımın əlindən dutub otağına apardı. Qaraca qıza da Pəricahan xanım – Dalımca gəl, qaraçı qızı! – deyib Hüseynqulu ağanın otağına apardı və rişxənd ilə dedi:

- Bu şahzadə qızını haradan tapıb gətimisən? Qızın ilə də tanış olub çox şirin söhbət edirdilər.

Hüseynqulu ağa əhvalatı ona nağıl edib dedi:

- Pəricahan! Qızına yazığın gəlsin. Gör yoldaşsızlıq onu nə hala salmışdır? Qoy bu qız ilə oynasın, atlansın, qol-qanadı açılsın, bədəni bərkisin, keyfi açılsın! Bu qız qaraçı qızı deyildir. Və olsa da, nə eybi vardır? Xanımın yanında qarabaşı olmazmı? Bonası yanında olacaqdır. Bir fəna iş edərlərsə, tənbih edib qoymaz!

Bu sözlər Pəricahan xanıma əsla təsir etmədi.

- Sən mənə söz vermişdin ki, tərbiyə məsələsinə qarış-mayacaqsan. İmdi nə üçün sözündə dəvam etmirsən? Bu qız buradan gedəsidir! Artıq söz lazım deyil.

- Xeyr. Bu qız burada qalasıdır! - deyə Hüseynqulu sə-sini yücaltdı.

- Sənə deyirəm, bu qız bu saət buradan gedəsidir, yoxsa mən burada qalmaram! - deyə Pəricahan xanım qəzəbləndi.

Səlim bəy fürsəti fövtə verməyib dedi:

- Onda verin mən aparım.

Hüseynqulu ağa dedi:

- Səlim bəy! Hiç vəqt ona razı olmaram! Necə ki sizə demişdim, öylə də edəcəyəm. Qaraca qız bağbanım Piri baba-nın yanında olacaqdır.

Pəricahan xanım dedi:

- Bu şərtə mən də razıyam, ancaq Ağca xanım ilə bilmərrə əlaqəsi olmayacaqdır; şünki ondan pis xasiyyət götürər. Bu şərt ilə Qaraca qızı aparıb Piri kişiyə tapşırdılar.

- Piri kişinin daxması ağalığın böyük meyvə bağının içində idi. Piri kişi yetmiş yaşında bir qoca idi. Heç bir kəsi yox idi, özü də Hüseynqulu ağanın rəiyyəti olub onun atası zamanından bu bağa bağbanlıq edirdi. Piri kişi həmişə bağda ömr sürüb ağalıq qapısına işi düşməsə gəlməzdi. Xidmətçilər Hüseynqulu ağadan qorxub hüzurunda titrəyərdilər. Lakin Piri kişi kimsədən xof etməzdi və bacardığı qədər qulluqçuları ağaların zülmündən mühafizə edərdi. Ona görə onu hamı sevib ehtiramını saxlardı. Hüseynqulu ağanın özü ondan çəkinərdi.

Piri kişi Qaraca qıza çox şad oldu. Onun üçün komasında yer hazırladı. Və yedirib rahət etdi. Qaraca qız yerə girib bir müddət yata bilmədi. Sonra Piri kişidən soruşdu:

- Baba, o xanım qızını nə üçün mənim ilə oynamağa və söhbət etməyə qoymur?

- Qızım! Onlar bəydirlər, biz rəiyyət; onlar ağadırlar, biz nökər. Bizim ilə onların nə yoldaşlığı? Sən, qızım, Ağca xanımı yadından çıxart, o sənə yoldaş deyildir.

Qaraca qız bu sözlərlə sakit olmayıb düşünürdü:

- Mən Ağca xanıma nə etdim ki, anasının mənə acığı dutdu? Bu gecə ona yemək verməyəcəklər. Yazıq ac qalacaqdır! Anam sağ olanda məni dənaharsız qoyardu, ancaq mən nadinclik edərdim. Bu ki heç zad etməmişdi.

Qaraca qız fikrini bir yerə çıxarmamış yuxuya getdi.

O gecəsi həman fikirlər Ağca xanımı da sakit etmirdi. Nə anasının, nə bonasının nəsihətini anlamırdı:

- Nə səbəbə mən o qız ilə oynayıb danışa bilmərəm? Mən bəy qızı olanda nə olar? Məni nə üçün şamsız qoydular? Qaraca qız çox təəccüblü şeylərnağıl edirdi. O deyirdi ki,

sənə qaval çalmaq, oynamaq öyrədəcəyəm. Ah! Anam məni nə üçün qoymadı ki, onunla çoxluca danışım?!

Ağca xanım yorğanı başına çəkib, gizlincə ağlamağa başladı və bir azdan sonra yuxuya getdi.

***

Piri kişi hələ uşaqlığından gün çıxmamış yuxudan durmağı adət etmişdi. İmdi də tezdən qalxıb ocağı qaladı; özü kibi ömrü keçmiş hisdən qaralmış çaydanı su ilə doldurub ocağa qoydu vədaxmadan çıxdı ki, bağı dolansın. Piri kişi bu bəslədiyi bağı çoxsevirdi. Buradakı ağacların çoxunu özü öz əlləri ilə əkib pərvəriş verməklə imdiki halına salmışdı. O ətrafda bitən bir meyvə ağacı yox idi ki, bu bağda olmasın. Hüseynqulu ağanın bu bağı mülkədarlar arasında xeyli şöhrət qazanmışdı. Hüseynqulu ağaya qonaq gələndə cürbəcür əkin maşinalarını qoyub, qabaqca bağına tamaşa etməgə aparardı. Piri kişi Hüseynqulu ağadan izn almışdı ki, başqa kimsənin bağa girməyə ixtiyarı olmasın. Bağı oğrulardan qorumağa Piri kişinin bircə köməkçisi vardı. O da Qaraca qızı mağaradan çıxaran Qara köpək idi. Qara köpək qayət heybətli və hünərli bir it idi. Onun qorxusundan heç kəs bağa davrana bilməzdi. Bu köpəkdə bir qəribə hal vardı: Hər kəs ki Piri kişiyə bədxah idi, köpək onu sevməyibyavuğa qoymazdı. Piri kişi bir yeni şəxs ilə tanış olanda Qara köpək o adama quyruq bulayıb yaxınlaşsaydı, onu özünə xeyirxah hesab edirdi. Bərəks, o, adama əvvəldən dişlərini ağardıb mırıldasaydı, onu özünə bədxah bilərdi. Qaraca köpəyin bu hissini Piri kişi kərrat ilə imtəhan etdiyi üçün böylə deyərdi:

\- Dost və düçmənimi Qara köpək ilə tanıyırım.

Piri kişi Qara köpəyi heç vəqt zəncirləmirdi. Gecə və gündüz Qara köpək asudə idi. Bunun ilə böylə Qara köpək bağdankənara çıxmazdı. Ancaq bəzi vəqt Hüseynqulu ağa ava getdikdə o da həvəslənib av tulalarına qoşulardı; bu vəqt onu

geri qaytarmaq üçün gərək Piri kişi özü gələ idi, yoxsa kimsəyə qulaq asmazdı.

Piri kişi komadan çıxdıqda, qapını açıq qoymuşdu. Bu halda Qara köpək içəri girib, evdə bir adamı yatmış gördü; qulaqlarını şəklədib heybətli bir halət ilə ona tərəf yönəldi. Sonra Qaraca qızı tanıyıb quyruğunu buladı və irəli gəlib yanında uzandı; əlini yalamağa başladı. Bu vəqt Qaraca qız gözlərini açdı və hələ yuxulu olduğu üçün Qara köpəyi tanımayıb qışqırdı. Bunun səsinə Piri kişi cəld içəri girib dedi:

- Qızım, nə üçün qışqırdın? Kimdən qorxdun?

- Baba, burada ayı var!

- Yox, qızım, Qara köpəkdir, qorxma, burada ayının nə işi var?!

Sonra Qara köpəyə:

- Çəkil!... – deyib onu bayıra qovladı.

- Yat, qızım, hələ tezdir!

- Yox, baba,daha yuxum gəlmir. Mən həmişə tez dururam!

- Çox yaxşı edirsən, qızım, adam gərək səhər tezdən dura ki, canı da salamət ola.

Qaraca qız paltarını geyib dedi:

- Baba, əl-yüzümü harada yuyum?

- Budur, daxmamızın yanında su axır, get orada yu!

Qaraca qız yüzünü yumağa getdi. Piri kişi də süfrəni salıb pənir, çörək və yağ qoydu; sonra çaydandan iki fincan çay töküb süfrəyə qoydu. Bu vəqt Qaraca qız yüzünü yuyub içəri girdi.

- Al, qızım, yüzünü sil, otur çay içək.

Piri kişi Qaraca qıza dəstmal verdi. Qaraca qız da əl-yüzünü qurudub süfrəyə oturdu. Hər ikisi yeyib-içməgə məşğul oldu.

Çaydan sonra Piri kişi Qaraca qıza dedi:

- Dur, qızım, gün qızmamış həm bağımızı gəzək, həm də ağalar üçün meyvə dərək. Piri kişi özü bir səbət götürdü və Qaraca qıza da bir cəvərən verdi. Evdən bayıra çıxdıqda Qara köpək də onlara qoşuldu. O, quyruğunu bulaya-bulaya Qaraca qıza yanaşdı. Qaraca qız onun başını sığallayıb cəvərəni boyunundan asdı. Qara köpək başını bulayıb cəvərəni yerə saldı. Qaraca qız götürüb yenə boyununa keçirtdi. Qara köpək bu dəfə də başını əgib cəvərəni yerə saldı. Piri kişi dedi:

- Qızım, zəhmət çəkmə, Qara köpək azadəligə öyrənmişdir, o, təlimə yatmaz.

- Yox, baba, yatar, bir gör onu necə öyrədəcəgəm! – bunu deyə Qaraca qız Qara köpəyin qabağında çömbəldi və onun gözlərinə baxarkən, dedi:

- Qaraca köpəyim, ağıllı köpəyim, cəvərəni götür! – bunu deyə Qaraca qız cəvərəni yenə onun boynuna saldı. Bu dəfə Qara köpək cəvərəni yerə salmayıb Qaraca qızın yüzünə baxa-baxa yanınca getdi.

O da sevincək dedi:

- Afərin, Qaraca köpəyim! Baba, gördünmü?

- Görürəm, qızım və  çox da təəccüb edirəm: Qara köpək imdiyə qədər məndən başqasının əmrinə tabe olmamışdır. İmdi isə hətta cəvərəni də aparır.

- Hələ bu nədir ki, baba, gör ona nələr öyrədəcəgəm! Mən qaraçı dəstəsində olan zaman ayını, meymunu və qeyr heyvanları öyrədəndə görmüşəm, ancaq gərək, baba, heyvanı əzizləyə-əzizləyə öyrətməlidir. Yoxsa döymək ilə bir şey olmaz; amma qorxutmağın eybi yoxdur. Bax, Yusif ayını döydü, o da onu parçaladı.

Piri kişi balaca qızın əhvalatını müxtəsər eşitmişdi. İmdi isə Qaraca qızın kim olduğunu, bu vəqtə qədər nə tövr yaşadığını ona müfəssəl nağıl etdirdi. Qaraca qızın yürəkyandırıcı faciəsindən rəhmdil Piri kişi xeyli qəmgin oldu və yürəgində bu yetim çocuğa məhəbbəti artdı.

Səhərin saf və gözəl havası, güllərin və meyvələrin ətri, quşların nəğmələri insana zövq-səfa verirdi. Böylə təbiət içində pərvəriş tapmış Piri kişiyə baxdıqda adam onun yetmiş sənə verməkdən çəkinirdi.

Bunlar gəlib almalığa çatdılar. Ətirli, qırmızı almaları gördükdə Qaraca qızın gözləri işıqlandı.

- Baba, nə gözəl almalardır!

- Pəs, qızım, bağımızda hər cür meyvə var, dərib yeməyini qadağan etmirəm, ancaq ac qarına yeməyəsən, yoxsa azarlarsan. İmdi sən çıx ağaca alma dər və yerə at, bən də səbətə yığım.

Qaraca qız xeyli çapuk ağaca dırmaşdı, almaları dərib yerə tökməgə başladı. Ağzını da bikar qoymurdu.Bir azdan sonra Piri baba dedi:

- Qızım, daha bəsdir, düş, gedək bir qədər də armud və hulu yığaq.

Qaraca qız düşdü. Almalardan cəvərəninə qoyub yenə Qara köpəyin boynuna asdı. Armudluğa gedərkən birdən Qara köpək cəvərəni yerə atıb ildırım kibi götürüldü. Qaraca qız tökülmüş almaları yerdən yığarkən baxıb gördü ki, bir balaca pişik qaçır, Qara köpək də istəyir onu dutsun. Bunu görcək Qaraca qız cəld qalxıb yügürə-yügürə Qara köpəyi geri çağırdı. Lakin nə qədər qışqırdısa, o, pişikdən əl çəkmədi. Piri kişi də çağırdı. Qara köpək onun sözünə də qulaq asmadı, Qara köpək az qalmışdı ki onu dutsun - qoçaq pişik bir saniyədə armud ağacına dırmaşıb özünü qızmış Qara köpəkdən xilas edə bildi. Qaraca qız bu işdən xeyli şad olub əllərini biri-birinə vura-vura qaqqıltı ilə gülməyə başladı.

- Dızz, Qara köpək, dızz! Necəsən, duta bildinmi? – deyib Qara köpəyə yanıq verdi.

Qara köpək isə işi böylə gördükdə ağacın dibində öylə həşr etməyə başladı ki, sanki bu saət pişigi səs ilə qorxudub yerə salacaqdır.Yazıq pişik hərçənd hündürdə və əl çatan

yerdə deyildi; lakin bunun ilə böylə titrəyə-titrəyə gözlərini Qara köpəkdən çəkə bilmirdi. Qaraca qız özünü ağaca yetirib dırmaşmağa başladı. Pişik bunu görüb dutduğu budaqdan yuxarı çıxmadı. Qaraca qız ona yaxınlaşıb gördü ki, xallıca pişik bir gözəl pişik balasıdır. Piri kişi də Qaraca qızın almalarını cəvərənə doldurub armud ağacının dibinə gəldi. Bu halda Qara köpək bir qədər sakit olmuşdu, amma yenə də gözləri ağacda idi.

- Baba, bax nə gözəl balaca pişik balasıdır. Bunu aparıb evimizdə saxlayacağam!

- Çox yaxşı, qızım, apar. İmdi o armudlardan dər, sonra düş!

Qaraca qız armudlardan dərib pişiyi qucağına alaraq yerə düşdü. Qara köpək əvvəl özünü bir qədər rahatsız saxladı, sonra Qaraca qızın səyi ilə bilmərrə sakit oldu və axırda pişigə dəyməgib, onun ilə dostluq binasını qoydu.

Meyvələr hazır olduqda Piri baba dedi:

- İmdi bunları ağalığa aparmaq lazımdır. Qapıya kibi mənə kömək et, sonra mən özüm apararam.

- Baba, məgər mən ağalığa gedə bilmərəm?

- Yox, qızım, getsən,Pəricahan xanıma xoş gəlməz, öylə bilər ki, onun əmrindən çıxırıq.

Qaraca qız Piri kişini bağın qapısına kibi ötürüb özü xal-xal pişiyini qucağına aldı və bağı gəzməyə başladı. Çəpərin qırağı ilə gedərkənQaraca qızgördü ki, Ağca xanım da bonası ilə iskamyanın üstündə oturub kitab oxuyur. Görünürdü ki, Ağca xanım kitabı fikirlə oxumur və oxuduğunu da sevmirdi. Bu halda gözəl kəpənək uçaraq gəlib Ağca xanım oturduğu iskamyanın başına qondu. Ağca xanım gizlincə əlini atdı ki, kəpənəyi dutsun. Amma bacarmadı. Bunu bona görüb çox acığı dutdu və hirsli Ağca xanımın əlindən dutub evə apardı. Qaraca qız bir müddət dayandı ki, görsün Ağca xanım yenə bağçaya çıxacaqmı? Bir azdan sonra bona yalnızca gəlib

iskamyanın üstündə əyləşdi və kitab oxumağa məşğul oldu. Qaraca qız duydu ki, bona Ağca xanımı evə salıb dustaq etdi. Bu işdən rəhmdil Qaraca qız nə qədər Ağca xanıma yürəgi yanıb yazığı gəldisə də, bir o qədər bonaya düşmənçiliyi artdı.

Ağalıq evi taza qayda ilə tikilmiş iki mərtəbə, gen-bol bir imarət idi. Bundan başqa evin baş tərəfində üç balaca otaqdan ibarət bir qədim tikili də vardı. Bu, Hüseynqulu ağanın babasından qalma köhnə bir təmir idi. Bu evin pəncərələri xırda və rəngbərəng şüşələrdən ibarət idi. Bu evlərdə heç kəs olmurdu. Həmişə iki otağın ağzı bağlı olardu. Orada Hüseynqulu ağanın babadan qalma əntiq şeyləri saxlanırdı. Ancaq üçüncü otaq qədim yaraqlar və zinətli şeylər ilə bəzənib, Hüseynqulu ağa üçün açıq saxlanırdı. Burada Hüseynqulu ağa nahardan sonra uzanıb bir az rahətlik edərdi. Bu otağın bircə danə pəncərəsi vardı. O da qeyr pəncərələr kibi, yana açılmayıb yuxarı çəkilirdi. Onun xırda və rəngbərəng şüşələri içəriyə bir o qədər işıq buraxmazdı, ona görə də otağın içi qaranlıq idi. Bu otaq ağalıqda "baba otağı" adı ilə məşhur idi. Axır vəqtlarda Ağca xanım müqəssir olduqda onu tənbih üçün bu otağa salırlardı.

Qaraca qız çəpər uzunu gəlib evin başına çatdıqda gözləri nağıl etdigimiz "baba otağı"na sataşdı. Pəncərənin abı, yaşıl, qırmızı, sarı və qeyri rəngli şişələri Qaraca qızın diqqətini cəlb etdi. Çəpər hündür olduğundan Qaraca qızbu otağı yaxşı görə bilmədi, ona görə bir ağacın başına çıxdı ki, oradan baxsın; bunu Ağca xanım içəridən görürdü. Barmağı ilə şüşəni dögdü ki, özünün orada olduğunu Qaraca qıza bildirsin; birdən şüşənin cırıltı ilə sınıb yerə töküldü. Bundan hər ikisi qorxuya düşdü. Qaraca qız ağacdan yerə düşmədisə də, yapraqların qalın yerlərində özünü gizlətdi. Bir azdan sonra Ağca xanım sınan şüşənin yerindən baxıb yavaşcadan Qaraca qızı çağırdı. O da özünü ona göstərib dedi:

- Ağca xanım, səni orada rus arvadımı dustaq etdi?

- Bəli, onu sən haradan bildin?

- Mən bayaq çəpərin arasından güllü bağçaya baxırdım, sən də kitab oxuyurdun, istəyirdin kəpənəyi dutasan, rus arvadının sənə acığı dutdu, dustaq etdi.

- Doğru deyirsən, anamın və bonam Mariya İvanovna acığı dutanda bəni buraya salırlar. Ah! Sən nə xoşbəxt uşaq-san! Mənim kibi dustaq olmayıb özün üçün bağda azad gəzir-sən!

- Sən də həmişə dustaq olmursan ki, qeyr vəqtlərdə bənim kibi azad gəzirsən!...

- Yox, məni heç kəs ilə oynamağa qoymayırlar, gəzəndə həmişə Mariya İvanovna yanımda olur. Mən onun ilə gəzməyi sevməyirəm.

Qaraca qız dedi:

- Nə etməli, xanım, səni mənimlə oynamağa qoymurlar.

- O qucağındakı nədir? – deyə Ağca xanım soruşdu.

Qaraca qız xallı pişiyi ona göstərib dedi:

- Bu pişik balasını bu sabah bağdan tapmışam!

- Ah! Nə gözəl pişikdir!.. – deyə Ağca xanım köksünü ötürdü.

- İstəyirsən, sənə bağışlayım?

- Çox yaxşı, gətir bu deşikdən ver!

- Oraya nə tövr gəlim? Qapıdan gəlsəm, məni görərlər və qoymazlar!..

- Gör çəpərdən keçə bilərsənmi?

- Yaxşı, görüm keçə bilərəmmi? – deyə Qaraca qız ağacdan düşüb çəpərdən keçməyə bir yer aramağa başladı. Gəzərkən çəpərin altından su arxının yolunu gördü; bu deşikdən Qaraca qızxeyli çətinlik ilə evin dal həyətinə çıxdı. Sonra gizlincə gəlib pəncərənin qabağına çıxdı. Ağca xanım sevinə-sevinə dedi:

- Haradan keçdin?

- Su arxının deşiyindən! Al, gör nə yaxşı pişikdir! Ağca xanım pişigi alıb bağrına basdı. Qaraca qız deşikdən içəri baxıb dedi:

- Nə gözəl otaqdıır!? Nə çoxlu yaraq asılmışdır?!

Ağca xanım dedi:

- Mən buranı sevmirəm, özüm də qorxuram. Pəncərəni aça bilsəydim, sən də gələrdin, burada söhbət edərdik. Ancaq onu yuxarı qalxızmaq lazımdır, bənim də gücüm çatmır. Qoy görüm Mariya İvanovna qapını daldan bağlamış, ya yox? - bunu deyə Ağca xanım qapını çəkdi, o da açıldı.

- Ah! Nə yaxşı oldu! Tez ol, gəl!

Qaraca qız ətrafına baxa-baxa cəld içəri girdi. Hər ikisi sevinərək biri-birini qucaqladı. Sonra da şirin söhbət etməyə başladılar. Bu vəqt Mariya İvanovnanın oxuduğu kitab xeyli maraqlı olduğundan başı qarışıb Ağca xanımı bir saət əvəzinə iki saatdan artıq dustaq etdiyindən xəbəri yox idi.Lakin bu unudulmağa Ağca xanım çox şad idi. O Qaraca qızı vaxtında qaçırmaq üçün tez-tez qapıya çıxıb baxırdı ki, görsün bonası gəlirmi? Bir dəfə dəçıxanda anasını yanında hazır gördü. Bu ittifaqdan Ağca xanımın rəngi qaçıb bədəninə titrətmə düşdü. Özünü öylə itirmişdi ki, anasının sualına cavab verə bilmirdi. Pəricahan xanım baba otağını açıq görüb fikir etdi ki, Hüseynqulu ağa içəridə olar, bu qəsd ilə də oraya girmək istədikdə Ağca xanım lap özünü itirib onun qabağını kəsdi:

– Ana, buraya girmə, girmə!- deyəözü də ağlamağa başladı. Pəricahan xanım təəccübdə ikən Mariya İvanovna gəlib çıxdı və ondan qızının dustaq olmağını bildi. Pəricahan xanım, bona və onların arxasınca Ağca xanım otağa girdilər. Pəricahan xanım pişigi görüb soruşdu:

- Bundan ötrümü qorxurdun?Nə gözəl pişikdir! Bunu saxlamağa sənə izn verirəm. Ağca xanım Qaraca qızı içəridə görməyib bir qədər yürəkləndi. Qaraca qız isə divanın altına

girib gizlənmişdi. Hər üçü otaqdan çıxıb qapını bağladılar və nahar yeməgə getdilər. Qaraca qız qapısı bağlı evində qaldı.

***

Xanımlar gedəndən sonra Qaraca qız cəld divanın altından çıxıb qapıya tərəf yügürdü ki, bir kəs gəlməmiş buradan getsin. Lakin qapını daldan cəftələnmişgörüb məyus qaldı. Sonra pəncərəni çəkmək fikrinə düşdü, amma nə qədər çalışdısa, bir şey bacarmadı; çünki pəncərənin yuxarıda iki nazikdəmir mil ilə bağlı olduğunu anlamayıb, ancaq var gücü ilə onu yuxarı qaldırırdı. Xeyli çalışdıqdan sonra Qaraca qız ümidsiz divanın üstündə oturdu. O, xeyli təşvişdə idi; çünki bilirdi ki, bu sirrin üstü açılsa, Pəricahan xanım onu buradan qovub, qızını da böyük tənbih edəcəkdir. Bir az sakit oturandan sonra Qaraca qız yenə pəncərəni çəkmək fikrinə düşdü. Bu səfər diqqət yetirdikdə nəzəri dəmir millərə sataşdı. Dərhal qalxıb onları çıxartdı və sonra pəncərəni çəkməyə başladı. Pəncərə hərçənd ağır idi, amma Qaraca qız da qüvvətli idi. O, pəncərəni qaldırıb altından cəftə ilə bənd etdi. Sonra pəncərədən çıxıb qapını açdı. Pəncərəni saldı, bayıra çıxıb qapını bağladı. Gəldiyi deşikdən bağa girib komalarına getdi.

Bu vəxt Ağca xanım Qaraca qız tərəfdən artıq dərəcədə iztirabda qalıb boğazından əsla çörək keçmirdi; fikri müdam Qaraca qızın yanında idi. Hətta şorbanı qəsdən süfrəyə tökdü ki, bəlkə onu tənbeh edib yenə baba otağına salalar, lakin bu hiylə onu muradına çatdırmadı;çünki Pəricahan xanım qızının rəngi qaçdığını görüb təşvişə düşdü:

- Qorxma, qızım, eybi yoxdur, xörəyi süfrəyə qəsdən dökmədin ki. Özü töküldü. Yoxsa, qızım, azarlamısan? - Bunu deyə Pəricahan xanım əlini qızının alnına qoydu:

- Doğrudan da, qızdırman var!Bir az şorba iç, sonra yatacaqsan, daha bu gün heç yerə çıxmayacaqsan.

Bu əhvalatdan Ağca xanım daha da artıq təşvişə düşüb cəld dedi:

- Yox, ana, mən azarlı degiləm. Məni yatacaq otağına göndərmə!

Hüseynqulu ağa yüzünü arvadına tərəf çevirib dedi:

- İmdi sapsağlam qızı azarlı edəcəksən?!

-Rica edirəm, mənim tərbiyə verməgimə qarışmayasan!

- Nə üçün? Mən ata deyiləm?

- Atasan, ancaq nadansan! Nadan atadan qız nə tərbiyə götürə bilər?!

Hüseynqulu ağa cəld yerindən qalxıb acıqlı yumruğunu nasaya öylə bərk vurdu ki, boşqablar biri-birinə dəgdi:

- Sus! Tezlik ilə sənə göstərərəm ki; bu evin sahibi mənəm!... – bunu deyə Hüseynqulu ağa qabağındakı boşqabı yerə çaxdı və hirsli yemək otağından çıxdı.

- Get, piyan soldat! - deyə Pəricahan xanım bağırdı. Bu hadisədən zavallı Ağca xanım titrəyərək göz yaşını tökməyə başladı. Pəricahan xanım bonaya dedi:

- Bu qızı otağına apar; soyundurub rahət et. Sonra geyinib şəhrə gedəcəyiz. Bir neçə almalı şey lazımdır.

Bona Ağca xanım ilə getdilər. Pəricahan xanım otağına girdi.

Bir azdan sonra Pəricahan xanım bona ilə faytona minib yola düşdü..

Anası gedəndən sonra Ağca xanım bir müddət otağında qalıb pəncərədən baxdı; oradan dəmir yol stansiyası görünürdü. Vağzal Hüseynqulu ağanın mülkündə tikilmişdi. Hərdən bir Ağca xanım da öz bonası ilə oraya gəzməyə gedərdi.

Birdən vaqon fit verdi.

- Hə, anamgil getdi. Bir də axşamçağı gələcəklər. İmdi gedim Qaraca qızı dustaqdan xilas edim.”- bunu deyə Ağca xanım geyindi və cəld baba otağına tərəf getdi. Oraya yetişdiyində gördü ki, otağın qapısı cəftəsizdir. Yavaşca qapını

açıb içəri girdi. Gördü ki, atası divanın üstündə uzanıb siqara çəkir və ondan başqa da içəridə kimsə yoxdur. Bu ittifaqa Ağca xanım həm şad, həm də təəccüb etdi. Bu vəqt atası onu gördü:

- Ha, qızım, dustaqdan qaçmısan! Çox da yaxşı eləmisən. O dəli anana qulaq asma. Gəl bir az ata-bala söhbət edək.

Ağca xanım atasının böylə mehriban rəftarından istifadə edərək onun qucağına atıldı. Sonra başını əgib divanın altına baxdı və Qaraca qızı orada görməyib mat qaldı. Hüseynqulu ağa soruşdu:

- Qızım, nə üçün mat qalmışsan? Söhbət elə görək nə var, nə yox!

Ağca xanım soruşdu:

- Ata, sən çoxdanmı buradasan?

- Nahardan sonra gələnəm, qızım!

- Sən gələndə qapı açıq idimi?

- Yox, mən özüm açdım!

- İçəridə kim vardı?

- İçəridə bax bu xallı pişik vardı! – bunu deyə Hüseynqulu ağa dal tərəfində qıvrılıb yatan pişigi ona göstərdi. – Qızım, bundan ötrümü soruşurdun?

Ağca xanım pişigi alıb dedi:

- Yox, ata bundan ötrü soruşmuram.

- Bəs kimdən ötrü soruşursan?Ağca xanım cavab verməyib fikrəgetdi.

- Qızıım, nə üçün fikrə getdin? Uşaq atasından söz gizlətməz!

Ağca xanım bilirdi ki, arvadının acığına o, qadağan edən şeyləri qızına rəva görürdü və bir də Qaraca qız ilə oynamağa izn verirdi, ona görə sirri açmaq istədi. Atasının boyununu qucaqlayıb dedi:

- Ata, anama deməzsən ki, söyləyim?

- Dedərəm, qızım, söylə!

Ağca xanım əhvaları ona söyləyib, soruşdu:

- Ata, bəs Qaraca qız buradan necə çıxmışdır?

- İmdi, qızım, bağımıza gedərik, mənim Piri kişi ilə işim var. Sən də mənimlə gedərsən, orada Qaraca qız ilə oynarsan və həm də onun buradan necə çıxmasını özündən soruşarsan!- bunu deyə Hüseynqulu ağa divanın üstündən qalxdı. Ağca xanım şadlığından bilməyirdi ki, nə etsin?!

Hüseynqulu ağa qızı ilə bağı gəzərkən gəlib Piri kişinin daxmasına çatdı. O vəqt Piri kişi qapısında oturub səbət örürdü. Qaraca qız da arxda qabları yuyub daxmaya gətirirdi. Qaraca qız Hüseynqulu ağanı görüb qorxuya düşdü. Amma onun çox mehriban bir tərzdə:

- Keyfin necədir, Qaraca qız? – soruşmasından yürəgi sakit olub, - "Ağam sağ olsun" – deyə cavab verdi. Piri kişi ayağa qalxıb, dedi:

- Əziz qonaqlar, mənim bu daxmama siz xoş gəlmisiniz! Qaraca qız, tez komadan döşək gətir, ağaların altına sal!

Qaraca qız tez içəridən döşək gətirib gök otun üstə saldı. Hüseynqulu ağa əyləşdi və yüzünü qızlara dutub dedi:

- Siz də gedin bağda oynayın!

Qaraca qız qavalını götürüb Ağca xanım ilə gəzməgə və oynamağa getdilər. Ağca xanım və Qaraca qız əl-ələ verib bağda qaçmağa və oynamağa başladılar. Ağca xanım başına gələni Qaraca qıza nağıl etdi; o da baba otağından necə çıxdığını ona söylədi. Bunlar öz aralarında söz qoydular ki, mümkün olduqca baba otağında görüşsünlər. Qaraca qız Ağca xanıma qaval çalıb, mahnı oxumağı və oynamağı öyrədirdi. Axırda hər ikisi göy otun üstündə oturub söhbət etməgə başladılar. Ağca xanım bu hala çox şad idi, ancaq anasının bir-iki saatdan sonra qayıtması yadına düşdükcə yürəgi sıxılırdı.

Bir azdan sonra Hüseynqulu ağa Piri kişi ilə gəlib qızlar oturan yerə çıxdılar. Bunlar qızları götürüb arı pətəklərinin

tamaşasına getdilər. Qızlar arıların işləməsinə çox həvəslə baxırdılar. Piri kişi bir pətəgə çatdıqda dedi:

- Bu pətəgin arıları çox vurağandırlar. Qızlarım! Bunlardan özününzü gözləyin!

Bir başqa pətəyə çatdıqda gördülər ki, buranın arıları pətəgin ağzında qarışqa kibi qaynaşırlar. Bunu gördükdə, Piri kişi dedi:

- "Yaxşı vəqt gəlmişik. Bu saət buranın arısı beçə verəcəkdir." Sonra yüzünü Qaraca qıza tərəf dutub, dedi:

- Qızım, qaçaraq get evimizdən, o günü sənə göstərdigim ağ torbanı götür gəl.

Qaraca qız yügürərək getdi; bir azdan sonra arılar pətəkdən dəstə-dəstə çıxıb uçmağa başladı. Piri kişi onların dalınca düşdü. Axırda arılar bir gilas ağacının budağına qondular. Bir dəqiqə keçmədi ki, biri-birinin üstünə qonaraq, üzüm salxımı kibi ağacdan sallandılar. Bu halda Qaraca qız torbanı gətirdi. Hamı ağacın altında hazır oldu. Piri kişi Ağca xanıma dedi:

- Ağca xanım, hər yuvada bircə dişi arı olar, ona şah deyərlər. Bir yuvada iki şah olanda aralarında dava olur. Yeni doğmuş şah məcbur olur ki, uçub başqa yuva arasın. O vəqt onun dalınca yeni törənmiş arılar düşürlər. Bax, gör yeni şahın qoşunları onu necə əhatə etmişlər? İmdi biz onu dutub taza arı səbətinə salmalıyıq. Onda arılar da onun başına cəm olacaqlar.

Bu sözlərdən sonra Piri kişi yüzünü Qaraca qıza tərəf dutub, dedi:

- Qızım, çıx ağaca və bu sallanan arıları torbanın içinə salıb ağzını da büz.

Qaraca qız pişik kibi ağaca dırmaşmağa başladı. Ağca xanım Piri kişidən soruşdu:

- Baba, o arılar Qaraca qızı sancmazlarmı?

- Yox, xanım, arını incitməsən və onlardan qorxmasan, adamı sancmazlar.

Qaraca qız arı dəstəsini torbaya salıb ağzını büzdü. Piri kişi dedi: - İmdi, qızım, budağı silkələ ki, arılar torbaya tökülsün, ya da budağı sındır, torbanın içində qalsın.

Qaraca qız budağı sındırdı və aşağı endi. Piri kişi torbanı ondan aldı. Hamı arılığa getdilər. Piri kişi torbadakı arıları bir boş pətəgə boşaltdı.

- Ağca xanım, bu pətəyi sənin adına saxlayacağam və balı da öz ixtiyarında olacaqdır. Haçan könlün bal istədi, gələrsən, kəsib verərəm.

Bundan Ağca xanım çox xoşhal oldu. Hüseynqulu ağa dedi:

- Qızım, bu da sənin arın, imdi gəl gedək, anan bir azdan sonra gələcəkdir!

Bunlar sağollaşıb evə qayıtdılar.

***

Axşamçağı Pəricahan xanım Mariya İvanovna ilə şəhərdən gəlib çıxdı. Pəricahan xanım Ağca xanımı çox şad və yanaqları qızarmış görüb dedi:

- Bax, qızım, mənə qulaq asıb evdən bayıra çıxmadın, ona görə də sağalıb, rəngin özünə gəldi. Gör, qızım, sənə nə qədər şeylər gətirmişəm!

Ağca xanım anasının gətirdiyi gözəl kuklalara, başqa oyun şeylərinə və yeməli şeylərə baxıb, çox şad oldu. Bu vəqt Ağca xanımın arzu etdiyi bir şey var idisə, o da bu şeyləri Qaraca qıza göstərib, onun ilə bölüşmək idi. Bu da ancaq baba otağında mümkün idi. Ağca xanımın təbiəti çox həlim idi, özü də sözə baxan bir qız idi. Lakin Qaraca qız ilə görüşmək arzusu onda o qədər artıq idi, bonasının əmrindən qəsdən çıxıb tez-tez özünü baba otağına saldırırdı.

Ağca xanımın gündən-günə sağlam olmağı anasını nə qədər şad edirdisə də, bir o qədər də bonasının əmrindən çıxıb özünə tənbih etdirməyi onu qəmgin edirdi.

Bu barədə Pəricahan xanım ərinə şikayət edəndə, Hüseynqulu ağa rişxənd ilə deyirdi:

- İki böyük arvad bir balaca uşağı düzəldə bilmirsiniz-mi? Mən sizə məsləhət görürəm ki, onu tez-tez baba otağına salıb dustaq edəsiniz!

Hər böylə ittifaqda Hüseynqulu qızına acıqlanıb baba otağına göndərərdi və gizli Qaraca xəbər verirdi.

***

Piri kişi balaca qızın Ağca xanım ilə gizli görüşüb ülfət dutmağına əsla razı deyildi. O, bilirdi ki, təkəbbür bəyzadə-lərdən başqa qeyrilərini insan dərəcəsinə qoymayan Hüseynqulu ağa bu yetim qızı arvadının acığına Ağca xanı-mın yanına buraxır. O biri tərəfdən, Piri kişi düşünürdü ki, bu sirr açıldıqda Pəricahan xanım Qaraca qızı qovacaqdır. Piri kişinin bir də narazılığı onda idi ki, Hüseynqulu ağa zinətli qaraçı libası tikdirib Qaraca qıza geyindirirdi və öz qonaqlıqlarında oynadırdı. Bunun üstündə Piri kişinin Hüseynqulu ağaya çox acığı duturdu. Lakin qızı onun əlindən almaqdan aciz idi. Piri kişinin fikri yanlış deyildi. Böylə ki, bir dəfə Hüseynqulu ağa böyük qonaqlıq edib çox adam çağırmışdı. Bu qonaqlıqda oxuyub çalan dəstəsi də vardı. Hüseynqulu ağa Qaraca qızın dalınca nökər göndərdi ki, gəlib oynasın. Bu vəqt Qaraca qıza souğ dəydiyinə görə yerdə yatırdı. Piri qızı qoymadı. Bu ittifaqdan sərxoş ağa artıq dərəcədə qəzəbnak olub dübarə nökəri göndərdi ki, qızı yerdən qaldırıb gətirsin. Piri kişi naçar qaldıqda Qaraca qız qalxıb qaraçı paltarını geydi və qavalını əlinə alıb yola düşdü.

Qaraca qızın oynamağa meyli çox idi, yürəyində rəqs etmək həsrəti artıq idi. O idiki məclisə mübarizə istəyən

pəhləvan kibi atıldı. Bir məharətlə oynamağa başladı ki, bütün danışıq və səs kəsildi: Uşaqdan böylə fövqəladə oynamaq görünməmişdi. Qaraca qız böylə eşqə gəlmiş ki, orada olan adamlar gözündən itmişdi. Ancaq öz ustadı olan Yasəmən gözünün önündə durmuşdu. Birdən Qaraca qız öylə bir tərzdə fırlandı ki baxanların nəzərində bir şar kibi görünürdü. Qəflətən Qaraca qız bir dizi üstə çökdü, əlinin birini qaval ilə yuxarı dutub, o birini də belinə qoyub durdu. Rəqsi böylə bitirmək Qaraca qızın adəti idi.Qaraca qız qonaqlar tərəfindən gurultulu alqışlandı. Sonra hamı rica etdilər ki, bu oyunu təkrar etsin, amma Qaraca qız qəbul etmədi, hətta Hüseynqulu ağanın da sözünə baxmadı. Hamının ümidi kəsilmişdi ki, birdən Ağca xanım ortaya çıxıb çalğıçılarla haman rəngi çalmağa əmr etdi. Hamı təəccüb ilə ona baxırdı. Çalğıçılar çaldılar, Ağca xanım da oynamağa başladı. Bunun oynamağı gözəl və qaidəli idi. Hər hərəkətindən məlum edirdi ki, bu, Qaraca qızın şagirdidir. Bir-iki dövrə vurandan sonra Qaraca qızı çağırdı, o da dərhal sıçrayıb ortalığa girdi və hər ikisi qabaq-qabağa oynamağa başladı. Bu xəbər bir anda ağalıq xidmətçilərinə yayıldı, onlar dəstə ilə yügürüb qapının ağzından tamaşa etməyə başladılar. Bu xəbər Pəricahan xanıma da çatdı. O da tamaşaya gəldi, ancaq o, qızının oynamağına əsla şad olmayıb, acığından bilmirdi ki, nə etsin. Qızlar oynamaqlarını bitirdilər. Hər tərəfdən onları alqışladılar. Hüseynqulu ağa fərəhlənib qızını bağrına basdı. Bəylər onu tərif edib başını sığalladılar.

***

Bir azdan sonra Pəricahan xanım qulluqçusunu göndərib Ağca xanımı yanına çağırtdı. Hüseynqulu ağa duydu ki, arvadı qızını tənbeh etmək üçün çağırır. Bu fikir düz də çıxdı: o biri otaqdan Pəricahan xanımın hayqırtısı Hüseynqulu ağanın qulağına gəlirdi. Hüseynqulu ağa səbr edə bilmıəyib

qonaqlardan üzr istədi və Pəricahan xanımın yanına getdi.Gördü ki, Ağca xanım hönkürtü ilə ağlayır və Pəricahan xanım da qışqırır:

- De görüm, bu oynamağı sənə kim öyrətmişdir?

Hüseynqulu ağa dedi:

- Buyur, cavabını mən verim, bunu Qaraca qız öyrətmişdir, sözün nədir?

- Qaraca qzı onu harada görürdü ki, öyrətsin? Mən onunla görüşməyi qadağan etməmişdimmi?

- Sən etmişdin, mən etməmişəm! Bu evin sahibi mənəm, yoxsa sən? Kimin həddi var bundan sonra bənim əmrimdən çıxsın?

Pəricahan xanım imdiyə kibi ərini bu dərəcədə hirsli görməmişdir.

- İmdi ki böylədir, daha mən bu evdə nə üçün oturmuşam?

- İstəyirsən otur, istəmirsən, get, lakin onu bil ki, bundan sonra mən öz ixtiyarımdan keçəsi deyiləm!

O biri otaqdan bəylər onun səsini eşidirdilər. Rəhim bəy və Səlim bəy onun ailəsinəməhrəm olduqları üçün gəlib onu və arvadını sakit etməyəçalışdılar və sonra Hüseynqulu ağanı çəkib o biri otağa apardılar. Bu ittifaqdan qonaqlar pərişan olub bir-bir dağılmağa başladılar; ancaq Rəhim bəy ilə Səlim bəy qaldılar ki, ər ilə arvadı barışdırıb getsinlər; bunlar istədiklərinə çatdılar: Hüseynqulu ağanın hirsi yatıb arvadına deyirdi:

- De görüm, oynamaqda nə qəbih şey var ki, Ağca xanım onu bilməsin?

Səlim bəy dedi:

- Pəricahan xanım, mənim qızım Ağca xanım kibi oynamaq bilsəydi, onun başına dolanardım! Amma nə etməli ki, atası kimi şüursuz çıxıb, ayaq atmağı da bilmir!

Rəhim bəy dedi:

- Uşaq tayfəsi Ağca xanım kibi oynayıb oxumağa, gülməyə yaranmışdır. Yoxsa mənim qızım kibi qaradinməzdən nə fayda?

Pəricahan xanım onun sözünü kəsərək dedi:

- Mən demirəm ki, qızım oynamaq bilməsin, lakin bən deyirəm ki, Mehdi ağanın nəvəsi Ağca xanıma qaraçı qız ilə yoldaş olub, oturub-durmaq yaraşmaz. Bu ittifaqdan sonra mən Ağca xanımı burada qoya bilməyəcəyəm. Mən irəliki kibi şəhərə köçəcəyəm və qızımı da pansiona verəcəyəm. Hüseynqulu ağa burada qalsın, çünki şəhərdə yaşamağı sevmir.

Hüseynqulu ağa buna razı oldu.

***

Sabahı gün Ağca xanım anası ilə şəhərə köçdü. Yazıq qızcığaz istəkli dostu Qaraca qız ilə görüşə bilmədi. Ağca xanımın şəhərə köçməsi Qaraca qıza böyük təsir etdi. Bir tərəfdən Ağca xcanımın ayrılıq həsrəti, o bir tərəfdən də onun ata-anasının arasına ədavət düşməsi Qaraca qızı çox qəmgin edirdi. Onu şad edən bir şey varsa da, o da qonaqlıqda zühur edən ittifaqdan sonra Hüseynqulu ağa günlərini dostu Səlim bəy və Rəhim bəygildə keçirib, öz evində az görünməsi idi. Və Qaraca qızı da oynamağa çağırmırdı. Bundan əlavə Qaraca qız özü də oynamağı tərk etmişdi. O günlərini bağda keçirirdi, yoldaşı da Qaraca köpək idi. Bu it Qaraca qızla öylə üns dutmuşdu ki, yanından iraq olmaq istəmirdi. Qaraca qız da itə öylə öyrəşmişdi ki, hər istədiyini əmələ gətirə bilirdi. Piri kişi həmişə bunları bir yerdə görəndə deyirdi:

- İki qaralar yaxşı tapışmışsınız!

Bu ittifaqdan sonra Qaraca qızın Qara köpəyə məhəbbəti daha da artdı. Böylə ki, bir gün Qaraca qız moruq yığmaq qəsdi ilə cəvərənini götürüb meşəyə getmişdi, Qara köpək də yanında idi. Meşə Hüseynqulu ağanın mülkündə idi. Qaraca

qzı azmağından və meşə heyvanlarından qorxmayırdı. Çünki hər iki halda Qara köpəyin onu xilas edə biləcəyini anlayırdı. Meşədə cəvərənini moruq ilə doldurub evə tərəf yüz qoydu. Meşənin içindən dəmir yol keçirdi. Qaraca qız yolu keçdiyi zaman ayağı büdrəyib yıxıldı və moruğu yerə töküldü. Bunu yığan vəqt vaqon qətarı göründü. Ancaq Qaraca qızın başı moruğu yığmağa qarışıb vaqonun gəlməsindən xəbəri yox idi. O vəqt Qara köpək meşədən yola çıxdı və Qaraca qızı başıaşağı moruq yığan vəqatarı iti gələn görüb ildırım kibi götürüldü və Qaraca qıza öylə döş vurdu ki, o da, özü də dərəyə uçdular. Qaraca qızın sağ ayağı kolailişib qanadı, bunun ağrısından və Qara köpəyin böylə hərəkətindən acıqlanıb qışqırdı. Amma başını yuxarı qaldırdıqda vaqon qatarının keçdiyini gördü. Qaraca qız anladı ki, ağıllı köpək onu bu zor ölümdən qurtarmışdır, ona görə də dərhal acığı yatdı və qaraca köpəyin başını sığallayıb onu əzizlədi. Sonra yola çıxdı ki, görsün, cəvərəni necə olmuşdur. Gördü ki, ondan ancaq qırılıb yerə tökülmüş çöplər qalmışdır. Qaraca qız ölümdən qurtarmasına çox şad olub cəvərənin tələf olmasına bir o qədər yanmadı. Bu ittifaqdan sonra Qara köpəyin hörməti ağalıq qapısında daha  artmışdı. Bu xəbər gedib şəhərə də çatmışdı. Ağca xanım dostu Qaraca qızın ölümdən xilas olmasına çox şad olub atasına yazdığı məktubun içində bir şahı iriliyində zərli bir kağız da qoymuşdu ki, bu da mən tərəfindən Qara köpəyə qızıl medal olsun!

***

Payızın axır günləri idi. Ağca xanımın pansiona girməsinə az qalmışdı. O, anasından rica etdi ki, bu axır günlərini kəndlərində keçirməyə izn versin. Pəricahan xanım razı olub dedi:

- Yaxşı, qızım, bən özüm də sən ilə bərabər oraya gedəcəyəm ki, bir az rahat olaq. Yoxsa burada gedib-gələnlərin

əlindən bir dəqiqə asudə deyiləm. Ancaq, Ağca! şərtim budur ki, bilmərrə o qaraçı qızı ilə əlaqən olmamalıdır. Sən bəy qızısan, öylə rəiyyət qızı ilə oturub-durmaq sənə yaraşmaz. O günü atan şəhərə gəlmişdi. Öz tutduğu əməldən peşiman olmuşdu. O deyirdi ki, mən arvadımın acığına Ağcanı Qaraca qız ilə görüşdürürdüm. Yoxsa, mən də razı deyiləm ki, öz qarabaşı ilə dost olsun. Və bənə də deyirdi ki, bağın meyvəsi dərildikdən sonra Piri kişini də, Qaraca qızı da qovacam.

Bu xəbərdən Ağca xanım qəmgin və pərişan oldu. O, imdi kəndə getməyinə şad deyildi. O idi ki, səhərisi günü anası onu yuxudan qaldırdıqda dedi:

- Ana, mən kəndə getmək istəmirəm.

- Nə üçün? Dünən sən özün demirdinmi? Qalx, tənbəllik etmə!

Ağca xanım istər-istəməz qalxıb geyindi. Pəricahan xanım kəndə gələcəklərini teleqrafla Hüseynqulu ağaya xəbər verdi. Vaqon qatarı stansiyada dayandıqda Ağca xanım pəncərədən atasını görüb çağırdı. Vaqondan endikdə Ağca xanım Qaraca qızı kənarda durmuş gördü. Pəricahan xanımın başı şeylərinə qarışmışdı. Nökərlər şeyləri alıb faytona yığırdılar. Bundan Ağca xanım istifadə edərək gizlicə Qaraca qızın yanına qaçdı. Onunla görüşdü.

- Tez ol, get, Pəricahan xanım bizi burada görməsin, yoxsa yenə acığı dutar, - deyə Qaraca qız Ağca xanımı tələsdirdi.

- Doğru deyirsən, sonra görüşərik, - deyə Ağca xanım ata-anasına yanaşdı və faytona minib yola düşdülər.

Ağalar qapıya çatdıqda xidmətçilər həyətdə cərgə ilə düzülüb – Xanımlar, xoş gəlmisiniz!- deyə baş endirdilər. Bunların içində Piri kişi də var idi. Pəricahan xanım Qaraca qızı orada görməyib qızının yürəyini ondan soutmaq üçün rişxənd ilə dedi:

- Qızım, bu da dostun Qaraca qızın vəfası!Gör səni necə tez yadından çıxarmışdı!

Ağca xanım anasının bu tənəsinə səbr edib, sirrin üstünü açmadı. Sabahı gün Mariya İvanovna da gəlib çıxdı. Ağca xanımın buraya gəlməkdən məqsədi Qaraca qız ilə gün keçirmək idi. O da mümkün olmadığından çox bikef və qəmgin idi.

***

Qaraca qız da qəmgin idi. Komadan çıxmaq istəmirdi. Gün çıxıb xeyli qalxmışdı. Qaraca qız oyanmışdı isə də, hələ yerindən qalxmamışdı.

- Qızım, nə çox yatmışsan, sən heç böylə gecikməzsən. Azarlı deyilsən ki? – deyə Piri kişi sordu.

- Yox, baba, azarlı deyiləma, amma heç durmağa könlüm yoxdur.

Piri kişi komanın qapısını açıb dedi:

- Qızım, bax gör, günəş nə gözəl çıxmışdır! Böylə havada ancaq tənbəl yerdə yatar!

Qaraca qız qalxıb aram ilə geyinməyə başladı. Sonra əl-yüzünü yuyub, çay içməyə məşğul oldu. Çaydan sonra bayıra çıxdı. Həqiqətdə, günəş xeyli parlaq idi. Bağı gəzərkən Qaraca qızın gözünə qarınca yuvası sataşdı; Bu qarışqaların içində qanadlıları da var idi. Onlar qalxıb havada uçurdular. Gah da yuvanın ağzında qaynaşırdılar. Piri kişi Qaraca qıza yaxınlaşıb dedi:

- Nəyə baxırsan, qızım?

- Qarıncalara baxıram, baba!

- Bunların içində qanadlıları da var, baba! Baba, bu nə üçün?

- Qızım, onların qanadları həmişəlik deyildir: Onlar töküləcəkdirlər. Bu gün bu qarıncaların toy günüdür. Onların

dişiləri erkəklərindən maya dutandan sonra qanadları quruyub düşəcəklər.

Qaraca qız babasından qarınca toyu eşidən kibi əllərini biri-birinə vurub şaqqıltı ilə gülməyə başladı. Piri kişi də ona qoşulub gülməyə başladı:

- Bəli, qızım, qarıncaların toyudur! Get qavalını gətir, bir az çal, onlar da səndən razı qalsınlar!

Piri babanın bu fikri Qaraca qıza xoş gəldi. O qaçaraq komaya gedib qavalını gətirdi və çalmağa başladı. Piri kişi Qaraca qızın könlü açılmağına şad olub, özü də odun doğramaağa başladı.

Bu vəqt Ağca xanım bonası ilə bağçada oturmuşdular. Mariya İvanovna kitab oxuyurdu. Ağca xanım da evcik tikirdi. Çiçəklər dərib onu bəzəyirdi. Bu zaman onun qulağına Qaraca qızın oxumağı gəldi. Çəpərin qırağına gəldi ki, görsün onu görə bilərmi. Ağca xanımın fikri Qaraca qızın çalma və oxumasında olub, çəpərin yanında qıvrılıb özünü günəşə verən ilan atlanıb Ağca xanımın çıplaq qolundan sancdı. Ağca xanım qışqırıb özünü bonanın üstünə atdı. Bunun qışqırığına anası və xidmətçilər töküldülər. Bona Mariya İvanovna özünü itirib Ağca xanımı bağçada tək qoyub evə su gətirməyə qaçdı. Ağca xanım da qışqıra-qışqıra onun dalınca yügürməyə başladı.

- Qızım, qavalını çalma, görək oağalıqdan gələn səs nədir? – deyə Piri baba Qaraca qızı dayandırdı.

- Baba, bu səs Pəricahan xanımın səsidir!- deyə Qaraca qız yıldırım kibi götürüldü. Həyətə çatdıqda gördü ki, Ağca xanımın biləyindən qan axır və Pəricahan xanım da ağlayaraq xidmətçilərəyalvarır:

- Aman, sizə qurban olum, tezcə biriniz Ağcanın yarasını sorub ilanın zəhərini yerə tökünüz!

Lakin heç kəs bu qorxulu işə cürət edib qədəm qoymurdu. Qaraca qız Pəricahan xanımdan bunu eşitcək

Ağcaxanımın qolundan zəhəri sorub yerə tökməyə başladı. Hamı qorxulu bir halda buna təəccüb edirdi. Pəricahan xanım Qaraca qızın saçlarını öpərkən deyirdi:

- Ah, gözəl yürəkli Qaraca qızım, bəni əfv et! Sənin yanında xəcalətliyəm! Mənə rəhmin gəlsin, qızımı ölməyə qoyma. Səni Ağcadan artıq sevməyə söz verirəm.

Qaraca qız isə Pəricahan xanımın naləsinə əsla fikir verməyib, öz istəkli dostunu ölümdən xilas etməyə səy edirdi. Bir azdan sonra Qaraca qız nə qədər sordu isə, daha yaradan qan gəlmədi. Ağca xanım yaradan bir o qədər şikayət etmirdi, nə qədər ki yaradan yuxarı qaytan ilə möhkəm bağlanmış yerdən çox şikayət eidrdi.

- Ana, qaytanı aç, qolumu kəsir!

- Yox, qızım, olmaz, onda zəhər bədəninə yayılıb səni öldürər. Səbr et, bu saət şəhərə telqraf vuracağam, atan həkim gətirib gəlsin. Bunu deyib Pəricahan xanım bir telqram yazdı və nökərə verdi ki, aparıb stansiyadan vursun. Ağca xanımın qolunu bağlayan zamanı Piri kişi gəlib çıxdı. Əhvalatdan xəbərdar olub xeyli iztirab ilə Qaraca qızın yüzünə baxdı.

- Baba, gördünmü başımıza nə gəldi?! – deyə Pəricahan xanım şikayətləndi.

- Bəli, gördüm! Onu da görürəm ki, öz balanı ölümdən xilas etmək üçün bu atasız, bu anasız yetimi bəlaya salmısan!.. – deyə Piri kişi sərt nəzər ilə onun yüzünə baxdı.

- Baba, nə deyirsən? Qaraca qıza heç şey olmamış!

- Yaxşı bax, xanım!

Bu vəqt Qaraca qız dedi:

- Baba, içərim yanır, mənə su ver, içim!

- Gəl, qızım, gedək. Görüm sənə nə çarə edə bilərəm. Sonra yüzünü xidmətçilərə tutub dedi:

- Cəld gedib mənim komama, qatıq gətirin, ayran edim, qıza içirim.

- Baba, bu saət, - deyə xidmətçilər yüyürüşdülər.

- Baba, sənə yalvarıram, Qaraca qızı aparma. Qoy burada yatsın. Teleqram vurmuşam, Hüseynqulu ağa şəhərdən həkim gətirəcəkdir. – Bunu deyərək Pəricahan xanım onun qabağını kəsdi.

- Çəkil, sən imdiyə kibi bu qızı ağalığın ətrafına dolanmağa qoymamısan ki, bəyzadə qızına fəna təsir edər. İmdi də mən qoymuram ki, bu zülm yuvasında qızım qalsın,- bunu deyərək Piri baba Qaraca qızın əlindən tutub apardı.

***

Piri kişi Qaraca qızı soyundurub rahət etdi. Ona tez-tez ayran verirdi. Lakin yaranı sorduqda zəhər tüpürcək vasitəsilə Qaraca qızın bədəninə yerimişdi. Bununla belə, Piri baba Qaraca qızdan ümidini kəsməmişdi. Lakin öz canını özgə uğrunda fəda etmiş qızcığazın vəqti tamam idi.

- Baba, mən ölsəm, məni o bağımızın yanındakı Göy təpədə basdırınız. Oranı mən çox sevirəm. Oradan hər yer görünür. Orada hər cür çiçək var.

- Qorxma, qızım, həkim gəlib sənə dərman verəcək. Sən də sağalacaqsan, uzun yaşayacaqsan. Mən qoca babanı o dediyin Göy təpədə basdıracaqsan.

Hüseynqulu ağa həkim ilə gəlib çıxdı. Həkim Ağca xanıma baxdıqdan sonra dedi:

- Ağca xanımın heç bir qorxusu yoxdur. İlanın zəhəri bədəninə yayılmamış rədd etməyə görə ölümdən xilas olunmuşdur. Bir qədər hərarəti var. Ona da dərman verərəm, yaxşı olar.

Bu xəbərdən ata və ana çox şad oldular. Sonra həkim ilə bərabər Piri babanın daxmasına getdilər. Qaraca qızın qan ilə dolmuş gözləri yumulmuşdu. Həkim ona baxdıqdan sonra dedi:

- Xəstənin halı çox fənadır, çünki soran zamanı zəhəri udmuşdur, o qanına qarışıb bədəninə yayılmışdır. Sağalması müşküldür.

Bu xəbərdən Piri kişi məyus olub dedi:

- Həkim, öz balasını ölümdən xilas etmək üçün başqa bir balanı ölümə verən qadına nə deyərlər?

- Sus, qoca köpək, mənim qızımı bir qaraçı qızına taymı edirsən, - deyə Hüseynqulu ağa hayqırdı.

Həkim onları sakit edib gətirdiyi dərmanı Qaraca qıza içdirdi və Piri kişiyə tapşırdı ki, bundan xəstəyə tez-tez versin.

- Baba, məyus olma. Qız çox sağlamdır. Ümidvaram ki, sağalar, - deyə həkim ağalar ilə bərabər getdi.

***

Piri baba daxmanın qapısını açıb Qaraca qızın başı tərəfində oturdu. Sonsuz qoca Qaraca qıza artıq dərəcədə məhəbbət bağlamışdı. Qaraca qız onun əski komasına yeni bir həyat, yeni bir şölə gətirmişdi. İndi o şölə sönür... Ona da səbəb tam çocuqluğundan zülmünü çəkdiyi ağalar olmuşdu.

Qaraca qız qan ilə dolmuş gözlərini açdı, axır nəfəsində günəşin şöləsinə bir müddət baxdı, sonra gülümsündü, gözlərini yenə yumdu. Qaraca qız öldü!

-Daxmanın bülbülü uçub getdi, - deyə Piri baba göz yaşını tökdü.


S. AXUNDOV
QARAQA
QЬZ
AZƏRNƏŞR
Tədris-Pedaq. şə'bəsi
Бакь—1934

## QARACA QIZ
## (S. Axundov. Qaraca qız. Bakı, Azərnəşr, Tədris-Proqram şöbəsi, 1934)

Qafqaz şəhərlərinin birində usta Zeynal adlı bir sərrac öz arvadı Şərəfnisa ilə yaşıyırdı. Bunlar İran əhli idilər, öz vilayətlərində məişətləri məşəqqət ilə keçməyə görə vətənlərini buraxıb buraya gəlmişdilər. Usta Zeynal sərraclıq etməklə külfətini birtəhər dolandırırdı.

Usta Zeynalın övladdan yalnız altı yaşında Tutu adlı bircə qızı var idi. Tutu çox qara və çirkin idi. Anası ona körpə vaxtından "Qaraca qız" deyib çağırdığına görə əsl adı unudulub, hər kəs onu bu ad ilə çağırırdı. Qaraca qız çox nadinc idi və özü qız tayfası ikən qızlar ilə oynamağı sevməzdi; həmişə oğlan uşaqları ilə oynayardı. Uşaqlar Qaraca qızdan qorxardılar, çünki o, çox cürətli idi və yumruğunun da qabağında heç kəs dura bilməzdi. Qaraca qız həmişə zəifin tərəfini dutardı. Qaraca qız çox nadinc idi, anası ondan qonşulara şikayət edib deyərdi:

- "Qaraca qızı su batırmaz, od yandırmaz".

Bununla belə, Qaraca qız çox rəhimli, səxavətli qız idi: hər nə əlinə düşsəydi, yoldaşları ilə bölüşərdi.

Usta Zeynal sakin olduğu şəhərdə tez-tez zəlzələ olardı. Bir qış haman şəhərdə böyük zəlzələ olub, çox ev uçurdu. Bir dəfə zəlzələ gecə yarısı, xalq şirin yatan zaman ittifaq düşdüyünə görə çox adam çökmüş evlərin altında qalıb tələf oldu. Səhər açıldıqda ətrafdan xalq tökülüb şəhərə köməyə gəldi. Adamlar dəstə-dəstə olub əllərində kürək, bel, külüng uçuqları qazımağa başladılar. Ata oğulu, oğul ananı, qardaş bacını səsləyə-səsləyə daş torpağı ayırırdılar. Bir dəstə də usta Zeynal olan evi qazıyırdı. Əvvəlcə Şərəf Nisanın, bunun dalınca usta Zeynalın meyiti çıxdı. Bir az da qazıyandan sonra bir deşik açıldı, buradan çıplaq balaca birqız sıçrayıb çıxdı.

Bu qız haman Qaraca qız idi. O, ata-anasının meyitlərini görüb ağlamağa başladı. Hər kəs öz qohum əqrabasını aramağa məşğul olub, Qaraca qızın qeydinə qalan yox idi.



Zəlzələdən iki gün qabaq bir dəstə qaraçı bu şəhərin kənarında çadır qurub düşmüşdü. O dəstədən bir qaraçı arvadının Qaraca qıza yazığı gəlib çadırlarına apardı və orada ona yemək və paltar verib ocağın qırağında oturtdu. Qaraçılar Qaraca qızın yetim qalmağını və onun burada heç bir kəsi olmayıb qərib olduğunu bilib öz yanlarında saxlamağa naçar qaldılar.

Qaraca qızı qızlığa götürən qaraçı arvadı Yasəmən iyirmi yaşında gözəl surətli, yumşaq təbiətli, şad ürəkli bir qadın idi. Xasiyyətinin yaxşılığına görə Yasəməni hamı sevərdi; amma onun əri Yusifi heç kəs sevməzdi, çünki o, çox bədxasiyyət, tündməcaz, zalim bir şəxs idi. Yasəmən qaval çalıb oxumaq və oynamaq ilə pul qazanıb dəstəyə çox mənfəət verərdi. Onun əri Yusif də qapı-qapı gəzib ayı oynadardı.

Yasəmən Qaraca qızı çadıra gətirən zaman əri Yusif orada yox idi, çünki dəstənin bir hissəsi onunla bərabər sübh tezdən buradan çıxıb yola düşmüşdü. Yerdə qalanı da getməyə yığışırdı. Yasəmən ərindən çox qorxurdu, ona görə bilmirdi ki, o, Qaraca qızı qəbul edəcək, ya yox. Bunun üçün Yasəmən iztirabda idi.



Qaraçı dəstəsinin yerdə qalanı da yola düşdü.

Yasəmənin iztirabı bihudə deyil imiş, çünki geridə qalmış dəstə gəlib yoldaşlarına çatdıqda Yusif bu işdən xəbər dutub çox acıqlandı və bir kəndə çatan kibi Qaraca qızı orada qoyub gedəcəyini söylədi. Yasəmən ərinə yalvardı ki, o, belə iş etməsin, lakin Yusif onu dinləmək belə istəmədi. Qaraca qız isə yürəgində bu işə şad idi, o, Yusifdən qorxurdu və qorxmağa da haqlı idi: Yusifin heybətli sifəti, hələ qara və pərtlək gözləri nəinki uşağı, hətta böyük adamı da qorxuya salırdı.



Yasəmən ərinin tamahkarlığını bilirdi, ona görə Qaraca qızın gələcəkdə onlara böyük mənfəət verməyini söylədi:

- Yusif, bilirsənmi mən nə fikirdəyəm? Mən Qaraca qıza mahnı oxumaq, özüm kibi oynamaq öyrədəcəyəm və üst-başını bəzəyib, kəndlərdə, şəhərlərdə oynadacağam. Sənin üçün pul yığacağam.

Bu fikri Yusif bəyənib, Qaraca qızın dəstədə qalmasına razı oldu.

***

Qaraçıların məişətini Qaraca qız çox bəyənirdi və bu gün burada, sabah bir təzə yerdə, çay qırağında, meşə kənarında mənzil edib çadır qurma, ocaq çatıb xörək bişirmə, bir yerdə mahnı oxuma, nağıl söyləmə - bunların hamısı Qaraca qıza çox xoş gəlirdi. Əvvəl vaxtlar Qaraca qız Yusifin ayısından qorxurdu, amma sonralar öyrəşib, onunla çox dost olmuşdu. Ayı da onun ilə oynamağı sevirdi, Yasəmən Qaraca

qızı, ərinə söz verdiyi kibi, yaxşı geyindirib, oxumaq və oynamaq öyrətmişdi. Tamaşaçılar Qaraca qızın gözəl səsinə və oynamağına təəccüb edib heyrətdə qalırdılar. Qaraca qız balaca qavalını açıb tamaşaçılara tərəf tutanda dərhal onun üçün pul ilə dolurdu. Bu isə Yasəməni artıq şad edirdi. Yusif bu barədə arvadından və Qaraca qızdan razı idisə də, yenə hər ikisini xasiyyətinin pisliyindən çox incidərdi.

Qaraca qızın təbiətində inadcıllıq vardı. Bu xasiyyətinə görə Yusifdən nə qədər kötək yeyirdisə də, yenə tərsliyindən əl götürməzdi. Qaraca qız ancaq Yasəmənin sözündən çıxmazdı, çünki Yasəmən onunla çox mehriban dolanardu. Yusif Qaraca qızın tərsliyinə təəccüb edib arvadına diyərdi:

- Bu zorbalıqda ayı mənim qamçımın qorxusundan hər cür oyun çıxardır, amma bu balacalıqda qızın əlində aciz qalmışam!Yasəmən ona böylə cavab verərdi:Bunun səbəbi odur ki, ayı heyvandır, bu isə insandır. Heyvan ilə edilən rəftar insan ilə edilməz. Heyvana yoğun çubuq lazım isə, insana mehriban rəftar, mülayim söz lazımdır.

Yusif arvadının bu doğru sözünə inanmayıb deyərdu:

- Yox, bu bir səbəb deyildir, sən olmasan, bən onu iki günün ərzində mum kibi edərəm!

Ər ilə arvadın arasında olan belə söhbətin nəticəsi o olardı ki, Yusif Qaraca qızı daha da artıq kötəklərdi.Qaraca qız bu zülmdən xilas olmaq üçün neçə dəfə qaçmaq fikrinə düşmüşdüsə dəlakin qaçmağa heç vəch ilə imkan tapa bilməmişdi.

İki ildən artıq idi ki, Qaraca qız qaraçı dəstəsində yaşayıb, mahnı oxumağı və oynamağilə ətrafda məşhur olmuşdu. Hər kəs Qaraca qızın oxumaq və oynamasını bəyənib, tərif edərdi. Yusif Qaraca qızı çox incidəndə Yasəmən onu qorxudub deyərdi:

- Bu zavallı qıza nə çox əziyyət verirsən?! Axırda bu qız səni qoyub qaçar və sənin də əlin böylə böyük mənfəətdən çıxar.

Bu sözlər həmişə Yusifə təsir edib Qaraca qızı döyülməkdən bir müddət çəkinərdi.

***

Yayın orta ayı idi. Günün istisində insanlar, heyvanlar, quşlar kölgə yer və sərin su arayırdı. Qaraçı dəstəsi bir dağ üzərindən axan çayın kənarında çadırlarını qurub mənzil etmişdi. Günorta vaxtı idi. Qaraçılar hərəsi bir işə məşğul idi. Yusif ayısını götürüb yaxın kəndə getmişdi. Yasəmən çayın qırağında su qızdırıb, paltar yuyurdu. Qaraca qız da çayda çimirdi. Çay dağ döşündən gəldiyinə görə xeyli iti və xarıldaya-xarıldaya axırdı; amma suyu az olduğundan Qaraca qız üçün qorxusu yox idi. Yasəmən paltarı yuyub kolların üstünə qurumaqçün sərmişdi. Özü də başını yumaq fikri ilə uzun və qara saçlarını hörükdən açıb döşünə tökdü. Yasəmən Qaraca qızı səslədi ki, gəlib onun başına su töksün. Qaraca qız iki arşın yucalıqdan tökülən şəlalənin altında durub çimdiyinə görə Yasəmənin səsini eşitmədi. Bir azdan sonra Yasəmən Qaraca qızı çağırdı, bu dəfə də cavab almadı, Yasəmən saçlarını döşündən yığıb belinə atdı; bu halda qulağına çay tərəfdən sel gurultusu gəldi. Bunu eşitcək Yasəmən dik atılıb çaya tərəf yüyürdü. O vaxt Qaraca qız şəlalənin altında idı. Yasəmən çayın yuxarısından daşları və kolları yumalaya-yumalaya, gurultu və nərilti ilə gələn seli görüb, var gücilə qışqırdı:

- Qızım, tez ol qaç, sel gəlir!



Qaraca qız Yasəmənin səsini eşidib, şəlalənin altından çıxdı, ancaq bir neçə addım atmamışdı ki, sel onun üstünü cəllad kibi aldı. Yasəmən işi belə gördükdə alıcı quş kibi özünü çaya atdı. Yasəmən özünü Qaraca qıza yetirincə sel qızı götürdü və bir neçə saniyə suda itirdi.



Bir az sonra qızın başı göründü. Yasəmən özü də bir neçə dəfə suya batıb çıxandan sonra, üzüb Qaraca qıza çatdı və saçlarından dutub çiyninə aldı. Hərçənd Yasəmən çox yüzücü idi, amma bu iti axan, daşları, böyük kolları yumalayan seldəüzmək mümkün deyildi. Qaraçılar Yasəmənin qışqırığını eşidib köməyə töküldülər; sel getdikcə artırdı. Axırda sel bunları bir böyük daşa çırpdı. Qaraca qız Yasəmənin əlindən çıxıb daşın üstündə qaldı, amma onun özünü sel götürüb üzü aşağı axıtdı. Qaraçılar çaya tökülüb hər ikisini sudan kənara çıxartdılar. Bunların ikisi də bihuş qalıb, yerə sərilmişdi. Üzlərinin rəngi ölü rəngi kibi idi. Qaraçılar xeyli çalışdıqdan sonra hər ikisini huşa gətirdilər. Qaraca qızın bədəni bir neçə yerdən daşlara dəyib qaralmışdı, amma

bir qorxusu yox idi. Zavallı Yasəmənə gəldikdə başı bir neçə yerdən yaralanmışdı. Lakin rəhmdil arvad özünə gələn kibi yaralarını unudub tez zəif səslə Qaraca qızı soruşdu. Qaraçılardan biri Qaraca qızı qucağına götürüb Yasəmənə göstərdi.

- Bax, Yasəmən, budur Qaraca qız sağdır, arxayın ol. Yasəmən bir qədər ona baxdı. Sonra yenə bihuş olub, gözləri yumuldu. Qaraçılar Yasəmənin yaralarını bağlayıb Qaraca qız ilə bir yerdə çadırlarına apardılar və hər ikisinə yer salıb rahat etdilər. Axşamçağı Yusif gəlib evə çıxdı və yoldaşlarından bu xəbəri eşidib çox qəzəbləndi və dedi:

- Mən bilirdim ki, bu, uçuqdan çıxmış qız axırda bizim başımıza bəla gətirəcəkdir!

Qaraçılar Yusifi sakit edib dedilər:

- Qorxma, heç bir şey olmaz. İndi hər ikisinə rahatlıq lazımdır; durun bayıra çıxalım, səs-küy olmasın. Burada yalnız Yasəmənin dostu Hüsniyə qalar, ona qulluq edər. Qaraçıların hamısı Yusif ilə bərabər bayıra çıxdılar, çadırda ancaq Hüsniyə qaldı.

Qaraca qız tamam gecəni ufultu və zarıltı ilə keçirib sübhə yavuq yuxuya getdi, amma Yasəmən qızdırma içində bir dəqiqə rahat olmadı.Vəfalı Hüsniyə rəfiqəsinin yanını kəsdirib səhərə kibi gözlərini yummadı. Yasəmənin qız dırması getdikcə artırdı. Səhər açıldıqda hərarəti 40 dərəcəyə çatdı.



Yazıq Yasəmən qızdırmanın əsərindən tora düşmüş quş kibi yerində çabalayırdı. Onun gözləri həmişə yumulu idi. Gecə yağış yağdığına görə səhərin havası çox saf və təmiz idi. Dünənki bəlanı törədən çaylağın suyu indi enib

əvvəlki həddinə düşmüşdü. Onun həzin şırıltısı, quşların cəh-cəh və nəğməsinə qarışmışdı. Qaraca qızın sevgili şəlaləsi günün qırmızı şöləsindən parıldayırdı. Axırda Yasəmən gözlərini açdı. Biçarənin lalə kibi yanaqları solub zənbəq rənginə dönmüşdü. Yasəmən Hüsniyəni tanıdı. Zəif səs ilə ona dedi:

- Hüsniyə, Yusif haradadır?

- Bayırdadır, bacım, çağırımmı?

- Çağır, hamını çağlr... Ölürəm...

- Qorxma, bacım, ölməzsən. Bu gün haradan olmuş olsa sənin üçün həkim tapıb gətirdəcəyəm! – bunu deyib Hüsniyə bayıra çıxdı və bir azdan Yusif başqa qaraçılar ilə barabar içəri girdi. Qaraçılar Yasəmənə yürək verirdilər, Yasəmən dedi:

- Yox, əzizlərim, mən ölürəm!.. Yusif, əlini mənə ver!.. Vəsiyyətimə qulaq as... Əmələ gətirməyə söz ver!.. Bir az dayanıb, yenə təzədən başladı:

- Yusif, budur, dört ildir ki, sənə arvadam! Bu vaxta kibi səndən döyüşdən, söyüşdən başqa bir şey görmədim. Cavan ömrümü çürütdün... Mənə min cür zülm və cəfa etdim, bunların hamısını bağışlayıram! Ancaq sən də mənə söz ver ki, bundan sonra Qaraca qız ilə mehriban rəftar edib onu incitməyəcəksən!....

Yasəmən səsini kəsdi. Çadırda bir müddət sakitlik oldu. Sonra Yusif dedi:

- Yoldaşlarımın hüzurunda vəsiyyətini əmələ gətirməgə söz verirəm!

Yasəmənin üzündən şadlıq zühur etdi və Hüsniyəyə dedi:

- Bacım, Qaraca qızı sənə tapşırıram. Ondan muqayat ol!..Ah! Gözlərimə qaranlıq çökür!.. Boğurlar... Yusif.. Hüsniyə... Qaraca qız!... - deyə Yasəmən sayıqlaya-sayıqlaya vəfat etdi.

***

Yasəmənin vəfatından sonra Yusif verdiyi əhdə bir müddət vəfa etdi, lakin sonralar təbiətində qoyulmuş fəna sifətləri yenə aşkar olmağa başladı. Hüsniyə bacardığı qədər Qaraca qızı Yusifin zülmündən mühafizə edirdi. Ancaq iş orasında idi ki, Yusif Yasəmənin vəfatından sonra Qaraca qız ilə pul qazanmaq üçün hər gün səhər mənzildən çıxıb bir də axşam qayıdırdı. Hüsniyə zavallı yetimin üzünə baxanda sualsız da anlayırdı ki, o biçarə Yusifdən nə zülm və əziyyətlər çəkir.

Axır vaxtlarda Yusif bir fəna əmələ də mürtəkib olmuşdu: belə ki, əlinə düşən pulu içkiyə verib tez-tez məst olurdu.

Yusifin belə vaxtlarında Qaraca qızın günü daha da qara olurdu. Bir dəfə Yusif və Qaraca qız yol ilə gedirdilər. Bunlar bir dəstə atlı cavan oğlanlara rast gəldilər. Bu cavanlar şəhərə toya gedirdilər. Bunlar Yusifgilə təklif etdilər ki, bir az çalıb oxusunlar. Yusif razı oldu. Qaraca qızın oxuyub oynamağı cavanlara çox xoş gəldi. Onlar biri-birinin bəhsinə Qaraca qızın qavalını ağ və qara pul ilə doldurdular.

- Sağ ol, çox yaşa, Qaraca qız! – deyə cavanlar atlarını sürdülər.

Yusif sevincək  Qaraca qızdan pulları alıb cibinə tökdü və dedi:

- Gəl, qızım, sən ayı ilə o kolluqda otur, dincini al, mən də gedim o görünən kəntdən, çörək və sənin üçün də fındıq və kişmiş alım.



Bu sözdən Qaraca qız əsla şad olmadı, çünki bilirdi ki, oraya içməyə gedir, amma bununla belə bir söz demədi.

Bunlar yoldan kənara çıxıb kolluğa tərəf üz qoydular.

Yusif bir böyük kol seçib ayını oraya bağladı və Qaraca qıza dedi:

-Ağıllı qızım, burada otur! Bu saat gələcəgəm.

Yusif getdi. Qarca qız da kölgədə uzandı və bir azdan sonra şirin yuxuya getdi, ayı bir müddət sakit uzandı. Sonra durub zəncirini dartmağa başladı. Kolun budağı ayının gücünə dəvam etməyib, qopdu. Ayı özünü asudə görüb bir müddət kolluqda gəzdi,sonra üzünü meşəyə tərəf dutub getdi.

Yusif iki saatdan çox idi ki, kəndə getmişdi. Qaraca qız yuxudan hələ oyanmamışdı,axırda Yusif məst halında o tərəf və bu tərəfə yırğalana-yırğalana gəlib çıxdı. Yusif Qaraca qızı yatmış görüb və ayını öz yerində tapmayıb ayağı ilə qızı elə bərk vurdu ki, biçarə dik atıldı.

- De görüm, ayı hanı? Mürtəd qızı, mürtəd!

Qaraca qızın qorxudan dili dutulub cavab verə bilmədi.

- Hələ dayan! Qoy ayını tapım, Sənin payını sonra verəcəyəm! Yusif kola diqqət ilə baxıb gördü ki, ayını bağladığı budaq qopubdur və özü də yoxdur. Bundan anladı ki, ayını oğurlamamışlar, özü kolu qoparıb meşəyə qaçmışdır.

- Düş qabağıma, ayı meşəyə qaçmışdır, gedək tapaq!

Qaraca qız titrəyə-titrəyə yola düşdü.Yusif yol uzunu gah Qaraca qızı söyüb qorxudurdu, gah da özü –özünə danı-

şırdı. Bunlar meşəni xeyli dolandılar, amma ayıdan bir əsər görmədilər. Birdən Qaraca qızın qulağına ayının bağırtısı gəldi.

- Eşidirsənmi, əmi, bu tərəfdən ayının bağırtısı gəlir!

- Heç zad eşitməyirəm, yalan deyirsən!

- Bax! Bax! Yenə bağırır!Bu dəfə Yusifin özü də eşitdi.

- Doğru deyirsən, bağıran ayıdır!

Hər ikisi səs gələn tərəfəüz qoydular. Ancaq səs meşəyə düşdüyünə görə ayının yeri yavuq görünürdü, amma həqiqətdə xeyli uzaqda idi. Axırda gəlib ayını tapdılar. Ayı zənciri ilə ağaca dolaşıb dartınırdı və bağırırdı. Yusif ona çatan kibi hirsindən və acığından ayını azad etmədən əvvəl əlindəki ağac ilə onu döyməgə başladı. Ayının bağırtısı meşəni başına götürmüşdü. Axırda ayı dartınıb xaltanı başından çıxartdı və ildırım kibi özünü Yusifin üstünə atdı. Bir dəqiqə keçmədi ki, qızmış ayı sahibini parçaladı.



Qaraca qız bunu gördükdə dəhşətli bir hal ilə qaçmağa başladı. Ancaq qorxudan özünü itirib yol əvəzinə meşənin ortasına tərəf qaçdı. Bir azdan sonra ayı Yusifin meyitini

buraxıb Qaraca qızın dalına düşdü. Bunu gördükdə zavallı qızın bədəninə titrəmə düşdü və var gücilə qaçmağa başladı. Getdikcə ayı Qaraca qıza yaxınlaşırdı.Bu halda Qaraca qızın qabağına bir uçurum dərə çıxdı. Qaraca qız dərədən endikdə ayı özünü ona çatdırdı. Ancaq o, enişi aşağı qaça bilmədigindən dərənin içinə yumbalandı. Qaraca qız firsət tapıb özünü dərənin döşündəki mağaraya saldı. Bu mağaranın ağzı enli idi, amma içəri getdikcə daralırdı. Ayı dərənin dibinə kibi yumbalandı. Sonra ayağa qalxıb üzü yuxarı dırmaşmağa başladı. Bəllidir ki, ayının dal ayaqları qısa olduğu üçün enişi pis və yoxuşu asan dırmaşa bilir. Ayı axtarıb mağaranı taparaq içəriyə soxuldu. Qaraca qız sürünə-sürünə özünü mağaranın dar yerinə yetirdi. Ayı isə dar yerə soxula bilmədi və bir az donquldanıb mağaranın ağzında yatdı. Qaraca qız tərpənməgə də qorxurdu, ancaq onun qorxusu nahaq idi, çünki indi ayının hirsi yatmışdı, ona dəyməzdi və bəlkə də, onun orada olmasına şad olardı.

***

İki saatdən artıq idi ki, Qaraca qız mağaranın içində uzanıb qalmışdı. Biçarə qız ayının qorxusundan özünü mağaranın deşiginə elə pərçim etmişdi ki, tərpənməgə də imkanı yox idi. Bir tərəfdən mağaranın içindəki havanın azlığı, digər tərəfdən də ayının vahiməsi yazıq qızı bihuşluq halına salmışdı. Ayı isə fısıldaya-fısaldaya yatmışdı. Birdən ayı oyanıb donquldamağa başladı, bu halda Qaraca qızın qulağına çoxlu it səsi gəldi. Ayının da donqultusu artdı. Çox çəkmədi ki, itlər hürə-hürə mağaranın ağzını aldılar. Ancaq cürət edib içəri girə bilmədilər. Bir azdan sonra at üstündə avçılar qışqıra-qışqıra gəlib çıxdılar. Bunlar mağaranın içindən ayının nəriltisini eşidib tüfənglərini hazırladılar və itləri içəri qısqırtdılar. İtlərin bir neçəsi cürətlənib mağaranın içinə soxuldu.



Ancaq çox çəkmədi ki, yenə zingildəyə-zingildəyə geri qayıtdılar. Onlardan bir-ikisi yaralanmışdı. Bu halda avçılar bayırdan:

- Axdar, bas! Xallı, bas! Gümüş, bas! – deyə itləri qısqırtdılar. İtlər cürətlənib özlərini yenə içəri soxdular və ayı ilə dutaşdılar. Ayı bir müddət onlar ilə boğuşandan sonra mağaradan sıçrayıb çıxdı. Bu halda üç güllə birdən onun üzərinə açıldı. Bunların zərbindən biçarə ayı boğanaqdan yıxılan ağac kibi yerə sərildi. Avçıların biri:

- Afərin mənim gülləm!

- Xeyr, Hüseynqulu ağa, səhv edirsən, ayını öldürən mənim gülləmdir!

- Bağışla, Səlim bəy, mən ayını başından atmışım, yəqin ki, onu yıxan mənim gülləmdir.

- Səbr edin, əzizlərim! Bu saat məlum olar - bunu deyib, əvvəlki adam atdan düşdü və nökərlərin köməgilə ayının cəmdəgini o yan-bu yana çevirib diqqət ilə baxmağa başladı.

- Əzizlərim, heç bəhs etməyin, üçümüzün də gülləsi ayıya dəymişdir.

Sonra üzünü nökərlərə tərəf dutub dedi:

- Cəld ayının dərisini soyun! Rəhim bəy, sənə demədimmi ki, ayısız bu avdan qayıtmayacağam? Hələ öz meşənizi tərif edib məni məsxərə edirdin ki, sizin meşənizdə davşan da tapılmaz! Bəs bu nədir?

Bu halda Rəhim bəy ayıya diqqət ilə baxıb dedi:

- Yenə də, Hüseynqulu ağa, öz fikrimdə möhkəm durmuşam! Bu ayı meşə ayısı deyil, əldə bəslənmiş ayıdır.

- Elə iş ola bilməz! Onu haradan bildin?

- Budur bax, ayının boyun tüklərini zəncir aparmışdır, Səlim bəy, gör doğrumu deyirəm?!

Səlim bəy baxıb Rəhim bəyin sözünü təsdiq etdi. Bundan sonra bəylər qaqqıltı ilə gülməyə başıladılar. Hüseynqulu ağa əvvəl dostlarının sözünü zərafət hesab etdi, amma sonra özü də diqqət ilə baxdıqda şəkkə düşdü. Bu halda həvəslənib av tulalarına qoşulmuş Qara köpək mağaraya girdi Bunun dalınca başqa itlər də getdilər və yenə içəridə hürüşmə başlandı. Bunu gördükdə Hüseynqulu ağa dedi:

-Deyəsən, mağarada yenə ayı var?

Bəylər tüfənglərini hazırlayıb mağaranın ağzını kəsdirdilər. Bu zaman Qara köpək Qaraca qızın ayağından dutub itlərin arasından sürüyə-sürüyə onu mağaradan bayıra çıxartdı. Bəylər bunu gördükdə təəccüb edib heyrətdə qaldılar. Qara köpək Qaraca qızı buraxdı, amma o, hərəkətsiz qalıb ayağa qalxmadı. Bəylər Qaraca qızın üstünü aldılar. O, zəif bir hal ilə gözlərini açdı, lakin harada olduğunu anlamadı. Hüseynqulu ağa ondan soruşdu:



- Qız, sən kimsən? Bu mağarada nə qayırırdın? Qaraca qız cavab vermədi. Rəhim bəy dedi:

- Hüseynqulu ağa, görmürsənmi, qız hələ lazımınca özünə gəlməmişdir? Nə sual edirsən? Mən əhvalatı onsuz da anlayıram. Qızın sifətindən və libasından qaraçı qızı olmağını duymursanmı? Bu av etdiyimiz ayı da əldə bəslənmiş qaraçı

ayısıdır. Ancaq sahibi harada qalmış, burası mənim üçün aşkar deyildir.

Səlim bəy qıza diqqət ilə baxıb dedi:

- Ha, bu qızı mən görmüşəm. Məşhur oxuyan və oynayan Qaraca qızdır, sahibi də qaraçı Yusifdir. Üç ay bundan qabaq ona nə qədər pul və xələt vəd etdimsə də, bu qızı mənı satmadı, indi yaxşı əlimə düşübdür! Siz öləsiniz, gündə qonaqlıq edib sizə böyük keyf verəcəgəm.

Hüseynqulu ağa bunu eşitdikdə dedi:

- Deməк, o keyfi mən verə bilmərəm? Əslinə baxsan, qız mənə çatar, çünkü mənim köpəgim tapmışdır.

Bəylərin arasında bəhs düşdü. Səlim bəy dedi:

- Hüseynqulu ağa, özün yaxşıca bilirsən ki, arvadın Pəricahan xanım qaraçı qızını evinə qoymaz, nə üçün bəhs edirsən?

- Nə üçün qoymur? Ev sahibi odur, yoxsa mən? Bundan ilavə, qızı Piri kişiyə verəcəgəm ki, o saxlasın.

Bəylər buna razı oldular.Hüseynqulu ağa qızı nökərlərinə tapşırdı. Bəylər yenə av etməgə başladılar, lakin dört saata qədər meşəni dolanıb bir tülkü və üç doşandan başqa əllərinə bir av keçirə bilmədilər, ona görə avı tərk edərək yola düşdülər. Qaraca qız özünə gəlib yol uzunu başına gələn əhvalatı alayarımçıq nağıl etdi. Hüseynqulu ağa onun atasız-anasız yetim olmağını eşidib dedi:

- Çox gözəl oldu, indi heç kəs qızı məndən ala bilməz.

***

Axşam vaxtı Hüseynqulu ağa öz dostları Rəhim bəy və Səlim bəy ilə barabar evlərinə gəldilər. İtlərin hürməgi, avçıların səsləri, nökər və mehtərlərin qışqırığı biri-birinə qarışmışdı. Ağca xanım bu səs və küyə mürəbbiyəsindən iznsiz evdən bayıra çıxdı. Kənarda durmuş Qaraca qızı görüb ona yaxınlaşdı. Qaraca qız və Ağca xanım nəzərlərini biri-

birinə salıb bir müddət diqqət ilə baxışdılar. Bu iki uşağın arasında böyük fərq vardı: birinin ata-anası bəyzadə, o birinin yoxsul idi. Biri zəif, zərif, hər bir şeydə özgəyə möhtac olduğu kibi, o biri isə polad kibi sağlam bədənli, az yaşında çox görmüş, öz zəhməti ilə məişət edən bir çocuq! Birinin baxışı sanki özgələri köməyə, o birinin nəzəri isə hamını qovğaya çağırırdı. Ağca xanım zərif əlini Qaraca qıza uzatdı, o da kobud barmaqları ilə onun əlini sıxdı.

Ağca xanım bu sıxmağa davam etməyib qışqırdı, sonra güldü. Bir az çəkmədi ki, şirin söhbətə başladılar. Bu vaxt Hüseynqulu ağa Qaraca qızı unudub otaqda bəylər ilə av bəhsinə girmişdi. Ağca xanım ilə Qaraca qızın söhbəti çox çəkmədi. Pəricahan xanım otağından həyətə endi və qızını Qaraca qız ilə şirin söhbət edən görüb çox bərk acıqlandı və mürəbbiyəsini çağırıb dedi:



- Nə üçün öz vəzifənizi unudursunuz, xanım? Baxın tərbiyə verdiyiniz qız kimin ilə dostluq etmişdir? Otağına aparın!Bu gecə şamsız qalacaqdır.

Mürəbbiyə gözü yaşlı zavallı Ağca xanımın əlindən dutub otağına apardı. Qaraca qıza da Pəricahan xanım – Dalımca gəl, qaraçı qızı! – deyib Hüseynqulu ağanın otağına apardı və rişxənd ilə dedi:

- Bu şahzadə qızını haradan tapıb gətimisən? Qızın ilə də tanış olub çox şirin söhbət edirdilər.

Hüseynqulu ağa əhvalatı ona nağıl edib dedi:

- Pəricahan! Qızına yazığın gəlsin, gör yoldaşsızlıq, onu nə hala salmışdır? Qoy bu qız ilə oynasın, atlansın, qol-qanadı açılsın, bədəni bərkisin, keyfi açılsın! Bu qız qaraçı qızı deyildir, və olsa da nə eybi vardır? Xanımın yanında qarabaşı olmazmı? Mürəbbiyəsi yanında olacaqdır. Bir fəna iş edərlərsə, tərbiyə edib qoymaz.

Bu sözlər Pəricahan xanıma əsla təsir etmədi.

- Sən mənə söz vermişdin ki, tərbiyə məsələsinə qarışmayacaqsan, indi nə üçün sözündə dəvam etmirsən? Bu qız buradan gedəsidir! Artıq söz lazım deyil.

- Xayr. Bu qız burada qalasıdır, - deyə Hüseynqulu səsini yücaltdı.

- Sənə deyirəm, bu qız bu saat buradan gedəsidir, yoxsa mən burada qalmaram, - deyə Pəricahan xanım qəzəbləndi.

Səlim bəy fürsəti fotə verməyib dedi:

- Onda verin mən aparım.

Hüseynqulu ağa dedi:

- Səlim bəy! Heç vaxt ona razı olmaram! Necə ki, sizə demişdim, elə də edəcəgəm. Qaraca qız bağbanım Piri babanın yanında olacaqdır.

Pəricahan xanım dedi:

- Bu şərtə mən də razıyam, ancaq Ağca xanım ilə bilmərrə əlaqəsi olmayacaqdır. Çünki ondan pis xasiyyət götürər.

Bu şərt ilə Qaraca qızı aparıb Piri kişiyə tapşırdılar. Piri kişinin daxması ağalığın böyük meyvə bağının içində idi. Piri kişi yetmiş yaşında bir qoca idi. Heç bir kəsi yox idi, özü də Hüseynqulu ağanın rəiyyəti olub onun atası zamanından bu bağa bağbanlıq edirdi. Piri kişi həmişə bağda ömür sürüb işi düşməsə ağalıq qapısına, gəlməzdi. Xidmətçilər Hüseynqulu ağadan qorxub hüzurunda titrəyirdilər. Lakin Piri kişi kimsədən qorxmazdı və bacardığı qədər qulluqçuları ağaların zülmündən mühafizə edərdi. Ona görə onu başqa nökərlər

sevirdi. Qaraca qızın saxlanmaq üçün Piri kişiyə verilməsi onu çox şad etdi. Öz komasında Qaraca qız üçün yer hazırladı. Onu yedirib rahat etdi.

Qaraca qız yatağına girib bir müddət yata bilmədi. Sonra Piri kişidən soruşdu:

- Baba, o xanım, qızını nə üçün mənimlə oynamağa və söhbət etməgə qoymayır?



- Qızım, onlar bəydirlər, biz rəiyyət, onlar ağadırlar, biz nökər! Bizim ilə onların nə yoldaşlığı. Qızım, sən Ağca xanımı yadından çıxart. O sənə yoldaş deyildir.

Qaraca qız bu sözlər ilə sakit olmayıb düşünürdü:

- Mən Ağca xanıma nə etdim ki, anasının mənə acığı dutdu? Bu gecə ona yemək verməyəcəklər. Yazıq ac qalacaqdır! Anam sağ olanda məni də naharsız qoyardu, ancaq mən nadinclik edərdim. Bu ki heç zad etməmişdi.

Qaraca qız fikrini bir yerə çıxarmamış yuxuya getdi.

O gecəsi haman fikirlər Ağca xanımı da sakit etməyirdi. Nə anasının, nə mürəbbiyəsinin nəsihətini anlamayırdı.



-Nə səbəbə mən o qız ilə oynayıb danışa bilmərəm? Mən bəy qızı olanda nə olar? Məni nə üçün şamsız qoydular? Qaraca qız çox təəccüblü sözlər danışırdı. O deyirdi ki, sənə qaval çalmaq, oynamaq öyrədəcəgəm. Ah! Nə üçün

anam məni qoymadı ki, onunla çoxluca danışam?

Ağca xanım yorğanı başına çəkib, gizlincə ağlamağa başladı və bir azdan sonra yuxuya getdi.

***

Piri kişi hələ uşaqlıqdan gün çıxmamış yuxudan durmağı adət etmişdi. Indi də qalxıb ocağı qaladı, özü kibi ömrü keçmiş hisdən qaralmış çaydanı su ilə doldurub ocağa qoydu və daxmadan çıxdı ki, bağı dolansın. Piri kişi bu bəslədigi bağı çox sevirdi. Buradakı ağacların çoxunu özü öz əlilə əkib becərmişdi. O ətrafda bitən bir meyvə ağacı yox idi ki, bu bağda olmasın. Hüseynqulu ağanın bu bağı mülkədarlar arasında xeyli şöhrət qazanmışdı. Hüseynqulu ağaya bir qonaq gələndə o öz qonaqlarını bağına tamaşa etməyə apa-rardı. Bağı oğrudan qorumağa Piri kişinin bircə köməkçisi vardı, o da Qaraca qızı mağaradan çəkib çıxaran Qara köpək idi. Qara köpək qayət heybətli və hünərli bir it idi. Onun qorxusunda heç kəs bağa dolana bilməzdi. Bu köpəkdə bir qəribə hal vardı: Hər kəs ki Piri kişiyə düşman idi, Qara köpək onu sevməyib yaxına qoymazdı. Piri kişi bir yeni şəxs ilə tanış olanda Qara köpək o adama quyruq bulayıb yaxınlaşsaydı, Piri kişi onu özünə dost hesab edərdi. Əksinə o adama dişlərini ağardıb mırıldasaydı, onu özünə düşman bilərdi. Qara köpəyin bu hissini Piri kişi dəfələrlə imtəhan etdigi üçün belə deyirdi:

- Dost-düşmənimi Qara köpək ilə tanıyırım.

Piri kişi Qara köpəgi heç vaxt zəncirləmirdi. Gecə və gündüz Qara köpək asudə idi. Bununla belə Qara köpək, bağdan kənara çıxmazdı. Ancaq bəzi vaxt Hüseynqulu ağa ava getdikdə o da həvəslənib av tulalarına qoşulardı; bu vaxt onu geri qaytarmaq üçün gərək Piri kişi özü gələydi, yoxsa kimsəyə qulaq asmazdı.

Piri kişi komadan çıxdıqda qapını açıq qoymuşdu. Bu halda qara köpək içəri girib evdə bir adamı yatmış gördü, qulaqlarını şəklədib heybətli bir halət ilə ona tərəf yönəldi. Sonra Qaraca qızı tanıyıb quyruğunu buladı və irəli gəlib yanında uzandı, əlini yalamağa başladı. Bu vaxt Qaraca qız gözlərini açdı və hələ yuxulu olduğu üçün qara köpəyi tanımayıb qışqırdı. Bunun səsinə Piri kişi cəld içəri girib dedi:

- Qızım, nə üçün qışqırdın? Kimdən qorxdun?

- Baba, burada ayı var!

- Yox, qızım, qara köpəkdir, qorxma burada ayının nə işi var?!

Sonra Qara köpəyə:

- Çəkil!... deyə onu bayıra qovladı.

- Yat, qızım, hələ tezdir!

- Yox, baba, daha yuxum gəlmir, mən həmişə tez dururam.

- Çox yaxşı edirsən, qızım, adam gərək səhər tezdən dura ki, bədəni sağlam ola.

Qaraca qız paltarını geyib dedi:

- Baba, əl-üzümü harada yuyum?

- Budur daxmamızın yanında su axır, get orada yu!

Qaraca qız üzünü yumağa getdi. Piri kişi də süfrəni salıb pənir, çörək və yağ qoydu, sonra çaydandan iki fincan çay töküb süfrəyə qoydu. Və özü də əyləşdi. Bu vaxt Qaraca qız üzünü yuyub içəri girdi.

- Al, qızım, üzünü sil, otur çay içək, - Piri kişi Qaraca qıza dəstmal verdi. Qaraca qız da əl-üzünü qurudub süfrəyə oturdu. Hər ikisi yeyib-içməgə məşğul oldu.

Çaydan sonra Piri kişi Qaraca qıza dedi:

- Dur, qızım, gün qızmamış həm bağımızı gəzək, həm də ağalar üçün meyvə dərək. Piri kişi özü bir səbət götürdü və Qaraca qıza da bir cəvərən verdi. Evdən bayıra çıxdıqda qara

köpək də onlara qarışdı. O quyruğunu bulaya-bulaya Qaraca qıza yanaşdı. Qaraca qız onun başını sığallayıb cəvərəni boynundan asdı. Qara köpək başını bulayıb cəvərəni yerə saldı. Qaraca qız götürüb yenə boynuna keçirtdi. Qara köpək bu dəfə də başını əyib cəvərəni yerə saldı. Piri kişi dedi:

- Qızım, zəhmət çəkmə, qara köpək azadəligə öyrənmişdir, o təlimə yatmaz.

- Yox, baba, yatar, bir gör onu necə öyrədəcəyəm! – bunu deyə Qaraca qız qara köpəyin qabağında çömbəldi və onun gözlərinə baxarkən, dedi:

- Qaraca köpəyim, ağıllı köpəyim, cəvərəni götür! – bunu deyə Qaraca qız cəvərəni yenə onun boynuna saldı. Bu dəfə qara köpək cəvərəni yerə salmayıb Qaraca qızın yüzünə baxa-baxa yanınca getdi.



O da sevincək dedi:

- Afərin, qaraca köpəyim! Baba, gördünmü?

- Görürəm, qızım və çox da təəccüb edirəm: qara köpək indiyə qədər məndən başqasının əmrinə tabe olmamışdı. İndi isə hətta cəvərəni də aparır.

- Hələ bu nədir ki, baba, gör ona nələr öyrədəcəyəm! Mən qaraçı dəstəsində olan zaman ayını, meymunu və qeyri

heyvanları öyrədəndə görmüşəm, ancaq, baba, heyvanı əzizləyə-əzizləyə öyrətməlidir, yoxsa döymək ilə bir şey olmaz; amma qorxutmağın eybi yoxdur. Bax, Yusif ayını döydü, o da onu parçaladı. Piri kişi Qaraca qızın əhvalatını müxtəsər eşitmişdi.

İndi isə Qaraca qızın kim olduğunu, bu vaxta qədər necə yaşadığını ona ətraflı nağıl etdirdi. Qaraca qızın ürəkyandırıcı faciəsindən rəhmdil Piri kişi xeyli qəmgin oldu vəürəyində bu yetim çocuğa məhubbəti artdı. Səhərin saf və gözəl havası, kolların və meyvələrin ətri, quşların nəğmələri insana zövq-səfa verirdi. Belə təbiət içində yaşamış Piri kişiyə baxanda adam onun yetmiş yaşında olduğuna inanmayırdı.

Bunlar gəlib almalığa çatdılar. Qırmızı ətirli almaları gördükdə Qaraca qızın gözləri parladı.

- Baba, nə gözəl almalardır!

- Qızım, bağımızda hər cür meyvə var, dərib yeməkligi qadağan etmirəm, ancaq ac qarına yeməyəsən, yoxsa azarlarsan. İndi sən ağaca çıx, almaları dər, mən də səbətə yığım.

Qaraca qız çabuk ağaca dırmaşdı, almaları dərib yerə tökməyə başladı. Ağzını da bikar qoymayırdı. Bir azdan sonra Piri baba dedi:

- Qızım, daha bəsdir, düş gedək bir qədər armud, hulu yığaq.

Qaraca qız düşdü. Almalardan cəvərənə qoyub yenə qara köpəyin boynundan asdı. Armudluğa gedərkən birdən qara köpək cəvərəni yerə atıb ildırım kibi götürüldü. Qaraca qız tökülmüş almaları yığarkən baxıb gördü ki. bir balaca pişik qaçır, qara köpək də istəyir onu dutsun. Bunu görcək Qaraca qız cəld qalxıb yüyürə-yüyürə qara köpəyi geri çağırdı. Lakin nə qədər qışqırdısa, o, bişikdən əl çəkmədi. Piri baba da çağırdı qara köpək onun sözünə də qulaq asmadı. Qara köpək az qalmışdı ki onu dutsun - bişik cəld armud ağacına dırmaşıb özünü qızmış qara köpəkdən xilas edə bildi.

Qaraca qız bu işdən xeyli şad olub əllərini biri-birinə vura-vura qaqqıltı ilə gülməyə başladı.

- Dızz, Qara köpək, dızz! Necəsən, duta bildinmi? – deyib Qara köpəyə yanıq verdi.

Qara köpək isə işi belə gördükdə ağacın dibində elə həşir etməyə başladı ki, sanki bu saat bişiyi səsi ilə qorxudub yerə salacaqdır. Yazıq bişik hərçənd hündürdə və əl çatan yerdə deyildi; lakin bununla belə titrəyə-titrəyə gözlərini qara köpəkdən çəkə bilmirdi. Qaraca qız özünü ağaca yetirib oraya dırmaşmağa başladı. Bişik bunu görüb oturduğu budaqdan yuxarı çıxmadı. Qaraca qız ona yaxınlaşıb gördü ki, xallıcabir gözəl bişik balasıdır. Piri kişi də Qaraca qızın almalarını cəvərənə doldurub armud ağacının dibinə gəldi. Bu halda qara köpək bir qədər sakit olmuşdu. Amma yenə də gözləri ağacda idi.

- Baba, bax, nə gözəl bişik balasıdır. Bunu evimizə aparıb saxlayacağam.

- Çox yaxşı, qızım apar. İndi o armudlardan dər sonra düş! Qaraca qız armudları dərib, bişiyi qucağına alaraq yerə düşdü. Qara köpək əvvəl özünü bir qədər rahatsız saxladı, sonra Qaraca qızın sə`yi ilə bilmərrə sakit oldu və axırda bişiyə də dəyməyib, onun ilə dostluq binasını qoydu. Meyvələr hazır olduqda Piri baba dedi:

- İmdi bunları ağalığa aparmaq lazımdır. Qapıya kibi mənə kömək et, sonra mən özüm apararam.

- Baba, məgər mən ağalığa gedə bilmərəm?

- Yox, qızım, getsən Pəricahan xanıma xoş gəlməz, elə bilər ki, onun əmrindən çıxırıq.

Qaraca qız Piri kişini bağın qapısına kibi ötürüb özü xal-xal pişiyi qucağına aldı bağı gəzməyə başladı. Çəpərin qırağı ilə gedərkən Qaraca qız gördü ki, Ağca xanım da mürəbbiyəsi ilə iskamyanın üstündə oturub kitab oxuyur. Görünürdü ki, Ağca xanım kitabı fikirlə oxumur və oxuduğu-

nu da sevmirdi. Bu halda bir gözəl kəpənək gəlib Ağca xanımın oturduğu iskamiyanın başına qondu. Ağca xanım gizlicə kəpənəyi dutmaq istədisə lakin duta bilmədi. Bunu mürəbbiyə görüb çox acığı dutdu və hirsli Ağca xanımın əlindən dutub evə apardı. Qaraca qız bir müddət dayandı ki, görsün Ağca xanım yenə bağçaya çıxacaqmı. Bir azdan sonra mürəbbiyə yalınızca gəlib iskamyanın üstündə əyləşdi və kitab oxumağa məşğul oldu. Qaraca qız duydu ki, bu Ağca xanımı evə salıb dustaq etdi. Bu işdən rəhmdil Qaraca qız nə qədər Ağca xanıma ürəyi yanıb yazığı gəldisə də bir o qədər mürəbbiyəyə düşmənçiliyi artdı.

Ağalıq evi təzə qayda ilə tikilmiş, iki mərtəbə, gen-bol bir imarət idi. Bundan başqa evin baş tərəfində üç balaca otaqdan ibarət bir qədim tikili də vardı. Bu, Hüseynqulu ağanın babasından qalma köhnə bir imarət idi. Bu evin pəncərələri xırda və rəng-bə-rəng şişələrdən ibarət idi. Bu evlərdə heç kəs olmurdu. Həmişə iki otağın ağzı bağlı olardu. Orada Hüseynqulu ağanın babadan qalma əntiq şeyləri saxlanırdı. Ancaq üçüncü otaq qədim yaraqlar və zinətli şeylər ilə bəzənib Hüseynqulu ağa üçün açıq saxlanırdı. Burada Hüseynqulu ağa nahardan sonra uzanıb bir az rahətlik edərdi. Bu otağın bircə dənə pəncərəsi vardı, o da qeyri pəncərələr kibi yana açılmayıb, yuxarı çəkilirdi. Onun xırda rəng-bərəng şişələri içəriyə bir o qədər işıq buraxmazdı və ona görə də otağın içi qaranlıq idi. Bu otaq ağalıqda "baba otağı" adı ilə məşhur idi. Axır vaxtlarda Ağca xanım müqəssir olduqda onu tərbiyə üçün bu otağa salırdılar.

Qaraca qız çəpər uzunu gəlib evin başına çatdıqda, gözləri nağıl etdiyimiz "baba otağı"na sataşdı. Pəncərənin abı, yaşıl, qırmızı, sarı və qeyri rəngli şişələri Qaraca qızın diqqətini cəlb etdi. Çəpər hündür olduğundan Qaraca qız bu evi yaxşı görə bilmirdi, ona görə bir ağacın başına çıxdı ki, oradan baxsın. Bunu Ağca xanım içəridən görürdü. Barmağı ilə

şüşəni döydü ki, özünün orada olduğunu Qaraca qıza bildirsin; birdən şüşə cırıltı ilə sınıb yerə töküldü. Bundan hər ikisi qorxuya düşdü. Qaraca qız ağacdan yerə düşmədisə də, yarpaqların qalın yerlərində özünü gizlətdi. Bir azdan sonra Ağca xanım sınan şüşənin yerindən baxıb yavaşcadan Qaraca qızı çağırdı. O da özünü ona göstərib dedi:

- Ağca xanım, səni orada mürəbbiyənmi dustaq eləmiş?

- Bəli, onu sən haradan bildin?

- Bən bayaq çəpərin arasından güllü bağçaya baxırdım, sən də kitab oxuyurdun. İstəyirdin kəpənəyi dutasan, mürəbbiyənin sənə acığı dutdu, dustaq etdi.

- Doğru deyirsən, anamın və mürəbbiyəm Mariya İvanovnanın acığı dutanda, məni buraya salırlar. Ah! Sən nə xoşbəxt uşaqsan! Mənim kibi dustaq olmayıb özün üçün bağda azad gəzirsən!

- Sən də həmişə dustaq olmursan ki, qeyri vaxtlarda bənim kibi gəzirsən!...

- Yox, məni heç kəs ilə oynamağa qoymurlar, gəzəndə həmişə Mariya İvanovna yanımda olur. Mən onunla gəzməyi sevmirəm.

Qaraca qız dedi:

- Nə etməli, səni mənimlə oynamağa qoymurlar.

- O, qucağındakı nədir? – deyə Ağca xanım soruşdu.

Qaraca qız xallı bişigi göstərib dedi:

- Bu bişik balasını bu sabah bağdan tapmışam!

- Ah! Nə gözəl bişikdir!.. – deyə Ağca xanım köksünü ötürdü.

- İstəyirsən sənə bağışlayım?

- Çox yaxşı, gətir bu deşikdən ver!



-Oraya nə tövr gəlim? Qapıdan gəlsəm məni görərlər və qoymazlar.

- Gör çəpərdən keçə bilərsənmi?

- Yaxşı, görüm keçə bilərəmmi? – deyə Qaraca qız ağacdan düşüb çəpərdən keçməyə yol aramağa başladı. Gəzərkən çəpərin altından su arxının yolunu gördü: bu deşikdən Qaraca qız xeyli çətinlik ilə evin dal həyətinə çıxdı. Sonra gizlincə gəlib pəncərənin qabağına çıxdı. Ağca xanım səvinə-səvinə dedi:

- Haradan keçdin?

- Su arxının deşigindən Al, gör nə yaxşı bişikdir? Ağca xanım bişigi alıb bağrına basdı. Qaraca qız deşikdən içəri baxıb dedi:

- Nə gözəl otaqdıır? Nə çox yaraq asılmışdır?!

Ağca xanım dedi:

- Mən buranı sevmirəm, özüm də qorxuram. Pəncərəni aça bilsəydim, sən də gələrdin, burada söhbət edərdik. Ancaq onu yuxarı qaldırmaq lazımdır, mənim də gücüm çatmır. Qoy görüm Mariya İvanovna qapını daldan bağlamışdır, ya yox? – bunu deyə Ağca xanım qapını çəkdi, o da açıldı.

- Ah nə yaxşı oldu! Tez ol, gəl.

Qaraca qız ətrafına baxa-baxa cəld içəri girdi. Hər ikisi sevinərək biri-birini qucaqladı. Sonra şirin söhbət etməyə başladılar.



Bu vaxt Mariya İvanovnanın oxuduğu kitab xeyli maraqlı olduğundan başı qarışıb Ağca xanımı bir saat əvəzinə, iki saatdan artıq dustaq etdiyindən xəbəri yox idi. Lakin bu unudulmağa Ağca xanım çox şad idi. O, Qaraca qızı vaxtında qaçırmaq üçün tez-tez qapıya çıxıb baxırdı ki, görsün mürəbbiyəsi gəlirmi? Bir dəfə də çıxanda anasını yanında hazır gördü. Bu ittifaqdan Ağca xanımın rəngi qaçıb bədəninə titrətmə düşdü. Özünü elə itirmişdi ki, anasının sualına cavab verə bilmirdi. Pəricahan xanım baba otağını açıq görüb fikir etdi ki, Hüseynqulu ağa içəridə olar, bu qəsd ilə də içəri girmək istədikdə Ağca xanım lap özünü itirib onun qabağını kəsdi:

– Ana, buraya girmə, girmə!- deyə özü də ağlamağa başladı. Pəricahan xanım təəccübdə ikən Mariya İvanovna gəlib çıxdı və ondan qızının dustaq olmağını bildi. Pəricahan xanım mürəbbiyə və onların arxasınca Ağca xanım otağa girdilər. Pəricahan xanım bişigi görüb soruşdu:

- Bundan ötrümü qorxdun? Nə gözəl bişikdir! Bunu saxlamağa sənə izn verirəm. Ağca xanım Qaraca qızı içəridə görməyib bir qədər yürəkləndi. Qaraca qız isə divanın altına girib gizlənmişdi. Hər üçü otaqdan çıxıb qapını bağladılar

vəsəhər yeməgə getdilər. Qaraca qız da qapısı bağlı evin içində qaldı.

Xanımlar gedəndən sonra Qaraca qız cəld divanın altından çıxıb qapıya tərəf yüyürdü ki, bir kəs gəlməmiş buradan getsin. Lakin qapını daldan cəftələnmiş görüb, məyus qaldı. Sonra pəncərəni çəkmək fikrinə düşdü, amma nə qədər çalışdısa, bir şey bacarmadı, çünki pəncərəni yuxarıda iki nazik dəmir mil ilə bağlı olduğunu anlamayıb, ancaq var gücilə onu yuxarı qaldırırdı. Xeyli çalışdıqdan sonra Qaraca qız ümidsiz divanın üstündə oturdu. O, xeyli təşvişdə idi, çünki bilirdi ki, bu sirrin üstü açılsa, Pəricahan xanım onu buradan qovub, qızına da böyük tənbeh edəcəkdir. Bir az sakit oturandan sonra Qaraca qız yenə pəncərəni çəkmək fikrinə düşdü. Bu dəfə diqqət yetirdikdə, nəzəri dəmir millərə sataşdı. Dərhal onları çəkib çıxartdı və sonra pəncərəni çəkməyə başladı. Pəncərə hərçənd ağır idi, amma Qaraca qız da qüvvətli idi. Pəncərəni qalxızıb altından cəftə ilə bənd elədi. Sonra pəncərədən çıxıb qapını açdı. Pəncərəni saldı, bayıra çıxıb qapını bağladı, gəldiyi deşikdən bağa girib komalarına getdi.

Bu vaxt Ağca xanım Qaraca qız tərəfdən artıq dərəcə iztirabda qalıb boğazından əsla çörək getmirdi; fikri müdam Qaraca qızın yanında idi. Hətta qəsdən şorbanı süfrəyə tökdü ki, bəlkə ona tənbeh edib yenə baba otağına salalar, lakin bu hilə onu muradına çatdırmadı, çünki Pəricahan xanım qızının rəngi qaçdığını görüb təşvişə düşdü:

- Qorxma, qızım eybi yoxdur, xörəyi süfrəyə qəsdən dağıtmadın ki, özü töküldü. Yoxsa, qızım, azarlamısan? – bunu deyə Pəricahan xanım əlini qızının alnına qoydu:

- Doğrudan da qızdırman var. Bir az şorba iç, sonra yatacaqsan daha bu gün heç yerə çıxmayacaqsan.

Bu əhvalatdan Ağca xanım daha da artıq təşvişə düşüb cəld dedi:

- Yox, ana, mən azarlı deyiləm, məni yatacaq otağına göndərmə!

Hüseynqulu ağa üzünü arvadına tərəf çevirib dedi:

- İndi sapsağ qızı azarlı edəcəksən?!

-Rica edirəm, mənim tərbiyə verməgimə qarışmayasan!

- Nə üçün? Mən ata deyiləm?

- Atasan, ancaq nadansan! Nadan atadan qız nə tərbiyə götürə bilər?

Hüseynqulu ağa cəld yerindən qalxıb acıqlı yumruğunu masaya elə bərk vurdu ki, boşqablar biri-birinə dəydi:

- Sus! Tezlik ilə sənə göstərərəm ki, bu evin sahibi mənəm!... – bunu deyə Hüseynqulu ağa qabağındakı boşqabı yerə çaxdı və hirsli yemək otağından çıxdı.

- Get, piyan soldat - deyə Pəricahan xanım bağırdı. Bu hadisədən zavallı Ağca xanım titrəyərək göz yaşı tökməgə başladı. Pəricahan xanım mürəbbiyəyə dedi:

- Bu qızı otağına apar, soyundurub rahat et. Sonra geyinin bəzi şeylər almaq üçün şəhərə gedəcəgiz.

Dayə Ağca xanımla getdilər. Pəricahan xanım öz otağına girdi.

Bir azdan sonra Pəricahan xanım mürəbbiyyə ilə faytona minib yola düşdü..

Anası gedəndən sonra Ağca xanım bir müddət otaqda qalıb pəncərədən baxdı, oradan dəmir yol stansiyası görünürdü. Vağzal Hüseynqulu ağanın mülkündə tikilmişdi. Hərdən bir Ağca xanım da öz mürəbbiyyəsi ilə oraya gəzməyə gedirdi.

Birdən vaqon fit verdi.

“Hə... Anamgil getdi. Bir də axşamçağı gələcəklər, indi gedim Qaraca qızı dustaqdan xilas edim”- bunu deyə Ağca xanım cəld geyindi və çıxıb baba otağına tərəf getdi. Oraya yetişdikdə gördü ki, otağın qapısı cəftəsizdir. Yavaşca qapını açıb içəri girdi. Gördü ki, atası divanın üstündə uzanıb siqara

çəkir və ondan başqa da içəridə kimsə yoxdur. Bu ittifaqa Ağca xanım həm şad və həm də təəccüb etdi. Bu vaxt atası onu gördü:

- Ha, qızım dustaqdan qaçmısan! Çox da yaxşı etmisən. O dəli ananın sözlərinə qulaq asma! Gəl bir az ata-bala söhbət edək.

Ağca xanım atasının belə mehriban rəftarından istifadə edərək onun qucağına atıldı. Sonra başını əyib divanın altına baxdı və Qaraca qızı orada görməyib mat qaldı. Hüseynqulu ağa soruşdu:

- Qızım, nə üçün mat qalmışsan? Söhbət elə görək nə var, nə yox.

Ağca xanım sordu:

- Ata, sən çoxdanmı buradasan?

- Nahardan sonra gəldim, qızım!

- Sən gələndə qapı açıq idimi?

- Yox, mən özüm açdım!

- İçəridə kim vardı?

- İçəridə bax bu xallı pişik vardı! – bunu deyə Hüseynqulu ağanın dal tərəfində qıvrılıb yatmış pişiyi ona göstərdi. – Qızım, bundan ötrümü soruşdun?

Ağca xanım bişigi alıb dedi:

- Yox, ata bundan ötrü soruçmuram.

- Bəs kimdən ötrü soruşursan?

Ağca xanım cavab verməyib fikrə getdi.

- Qızıım, nə üçün fikrə getdin? Uşaq atasından söz gizlətməz.

Ağca xanım bilirdi ki, atası arvadının acığına Qaraca qız ilə oynamağa ona izn verirdi.Ona görə sirri açmaq istədi. Atasının boynunu qucaqlayıb dedi:

- Ata, anama deməzsən ki, söyləyim.

- Demərəm, qızım, söylə!

Ağca xanım əhvalatı ona söyləyib soruşdu:



- Ata, bəs Qaraca qız buradan necə çıxmışdır?

- İndi, qızım, bağımıza gedərik, mənim Piri kişi ilə işim var. Sən də mənimlə gedərsən, orada Qaraca qız ilə oynarsan və həm də onun buradan necə çıxmasını özündən soruşarsan - bunu deyə Hüseynqulu ağa divanın üstündən qalxdı. Ağca xanım şadlığından bilmirdi ki, nə etsin?

Hüseynqulu ağa qızı ilə bağı gəzərkən gəlib Piri kişinin daxmasına çatdı. O vaxt Piri kişi qapısında oturub səbət örürdü. Qaraca qız da arxda qabları yuyub daxmaya gətirirdi. Qaraca qız Hüseynqulu ağanı görüb qorxuya düşdü.O içəridən döşək gətirib  yaşıl otların üzərinə saldı. Hüseynqulu ağa oturdu vəüzünü qızlara tərəf dutub dedi:

- Siz də gedin bağda oynayın!



Qaraca qız qavalını götürüb Ağca xanım ilə gəzməgə və oynamağa getdilər. Ağca xanım və Qaraca qız əl-ələ verib bağda qaçmağa və oynamağa başladılar. Ağca xanım başına gələni Qaraca qıza nağıl etdi; o da baba otağından necə

çıxdığını ona söylədi. Bunlar öz aralarında söz qoydular ki, mümkün olduqca baba otağında görüşsünlər. Qaraca qız Ağca xanıma qaval çalıb, mahnı oxumağı və oynamağı öyrədirdi. Axırda hər ikisi göy otun üstündə oturub söhbət etməyə başladılar.Ağca xanım bu hala çox şad idi.

Ancaq anasının bir-iki saatdan sonra qayıtması yadına düşdükcə yürəyi sıxılırdı.

Bir azdan Hüseynqulu ağa Piri kişi ilə gəlib qızlar oturan yerə çıxdılar. Bunlar qızları götürüb arı pətəklərinə tamaşaya getdilər. Qızlar arıların işləməsinə çox həvəs ilə baxırdılar. Piri kişi bir pətəyə çatdıqda, dedi:



- Bu pətəyin arıları çox vurağandırlar, qızlarım! Bunlardan özünüzü gözləyin.

Bir başqa pətəyə çatdıqda, gördülər ki, buranın arıları pətəyin ağzında qarışqa kibi qaynaşırlar. Bunu gördükdə Piri kişi dedi: - "Yaxşı vaxtda gəlmişik, bu saat buranın arısı beçə verəcəkdir."

Sonra üzünü Qaraca qıza tərəf dutub dedi:

- Qızım, qaçaraq get, evimizdən o günü sənə göstərdiyim ağ torbanı götür gəl.

Qaraca qız yüyürərək getdi, bir azdan sonra arılar pətəkdən dəstə-dəstə çıxıb uçmağa başladı. Piri kişi onların dalına düşdü. Axırda arılar bir gilas ağacının budağına qondular. Bir dəqiqə keçmədi ki, biri-birinin üstünə qonaraq üzüm salxumu kibi ağacdan sallandılar. Bu zaman Qaraca qız buna torbanı gətirdi. Hamı ağacın altında hazır oldu. Piri kişi Ağca xanıma dedi:

- Ağca xanım, hər yuvada bircə dişi arı olar, ona şah deyərlər. Bir yuvada iki şah olanda aralarında dava olur. Yeni doğmuş şah məcbur olur, uçub başqa yuva arasın. O vaxt

onun dalına yeni törəmiş arılar düşürlər. Bax, gör yeni şahın qoşunları onu necə ihatə etmişlər? İndi biz onu dutub təzə arı səbətinə salmalıyıq. Onda arılar da onun başına cəm olacaqlar.

Bu sözlərdən sonra, Piri kişi yüzünü Qaraca qıza tərəf dutub, dedi:

- Qızım, çıx ağaca və bu sallanan arıları torbanın içinə salıb ağzını büz.

Qaraca qız pişik kibi ağaca dırmaşmağa başladı. Ağca xanım Piri kişidən soruşdu:

- Baba, o arılar Qaraca qızı sancmazlarmı?

- Yox, xanım, arını incitməsən və onlardan qorxmasan, adamı sancmazlar.

Qaraca qız arı dəstəsini torbaya salıb ağzını büzdü. Piri kişi dedi: İndi, qızım, budağı silkələ, arılar torbaya tökülsün, ya da budağı sındır, torbanın içində qalsın. Qaraca qız budağı sındırdı və aşağı endi. Piri kişi torbanı ondan aldı. Hamı arılığa gəldi. Piri kişi torbadakı arıları bir boş pətəyə boşaltdı.

- Ağca xanım, bu pətəyi sənin adına saxlayacağam və balı da öz ixtiyarında olacaqdır. Haçan könlün bal istədi gələrsən, kəsib verərəm. Bundan Ağca xanım çox şad oldu. Hüseynqulu ağa dedi:

- Qızım, bu da sənin arın, imdi gəl gedək, anan bir azdan sonra gələcəkdir.

Bunlar sələmətləşib evə qayıtdılar.

***

Axşamçağı Pəricahan xanım Mariya İvanovna ilə şəhərdən gəlib çıxdı. Pəricahan xanım Ağca xanımı çox şad və yanaqları qızarmış görüb dedi:

- Bax, qızım mənə qulaq asıb evdən bayıra çıxmadın, ona görə də sağalıb rəngin özünə gəldi. Gör, qızım, sənə nə qədər şeylər gətirmişəm!

Ağca xanım anasının gətirdiyi gözəl kuklalara, başqa oyun şeylərinə və şirin yeməli şeylərə baxıb, çox şad oldu. Bu vaxt Ağca xanımın arzu etdiyi bir şey var idisə, o da bu şeyləri Qaraca qıza göstərib onun ilə bölüşmək idi. Bu da ancaq baba otağında mümkün idi. Ağca xanımın təbiəti çox həlim idi, özü də sözə baxan bir qız idi. Lakin Qaraca qız ilə görüşmək arzusu onda o qədər artıq idi ki, mürəbbiyəsinin əmrindən qəsdən çıxıb tez-tez özünü baba otağına saldırırdı.

Ağca xanımın gündən-günə sağlam olmağı anasını nə qədər şad edirdisə, bir o qədər də mürəbbiyəsinin əmrindən çıxıb özünə tənbeh etdirməyi onu qəmgin edirdi.

Bu barədə Pəricahan xanım ərinə şikayət edəndə, Hüseynqulu ağa rişxənd ilə deyirdi:

- İki böyük arvat bir balaca uşağı tərbiyələndirə bilmirsinizmi? Mən sizə məsləhət görürəm ki, onu tez-tez baba otağına salıb dustaq edəsiniz!

Bu kibi hallarda Hüseynqulu qızına acıqlanıb baba otağına göndərərdi və gizli Qaraca xəbər verirdi.

***

Piri kişi balaca qızın Ağca xanım ilə gizli görüşüb dostluq etməsinə əsla razı deyildi. O, bilirdi ki, quduz bəyzadələrdən başqa qeyrilərini insan dərəcəsinə qoymayan Hüseynqulu ağa bu yetim qızı arvadının acığına Ağca xanımın yanına buraxırdı. O biri tərəfdən piri kişi düşünürdü ki, bu sirr açıldıqda Pəricahan xanım Qaraca qızı qovacaqdır. Piri kişinin bir də narazılığı onda idi ki, Hüseynqulu ağa zinətli qaraçı libası tikdirib Qaraca qıza geyindirirdi və öz qonaqlıqlarında oynadırdı. Bunun üstündə Piri kişinin Hüseynqulu ağaya çox acığı duturdu,lakin qızı onun əlindən almaqdan aciz idi. Piri kişinin fikri yanlış deyildi. Belə ki, bir dəfə Hüseynqulu ağa böyük qonaqlıq edib çox adam çağırmışdı. Bu qonaqlıqda oxuyub çalan dəstəsi də vardı.

Hüseynqulu ağa Qaraca qızın dalınca nökər göndərdi ki, gəlib oynasın. Bu vaxt Qaraca qıza soyuq dəydiyinə görə yerdə yatırdı. Piri qızı getməyə qoymadı. Bu ittifaqdan sərxoş ağa artıq dərəcədə qəzəbnak olaraq ikinci dəfə nökəri göndərdi ki, qızı yerdən qaldırıb gətirsin. Piri kişi əlacsız qaldıqda Qaraca qız qalxıb qaraçı paltarını geydi və qavalını əlinə alıb yola düşdü.



Qaraca qızın oynamağa özünün də meyli çox idi, o rəqs etməyi olduqca sevərdi: odur ki, məclisə mübarizə istəyən pəhləvan kibi atıldı. Bir məharətlə oynamağa başladı ki, bütün danışıq və səs kəsildi: Qaraca qız elə coşmuşdu ki, orada olan adamlar onun gözündən itmişdi. Ancaq öz ustadı olan Yasəmən gözünün önündə durmuşdu. Birdən Qaraca qız elə bir tərzdə fırlandı ki baxanların nəzərində bir şar kibi görünürdü. Qəflətən Qaraca qız bir dizi üstə çökərək əlinin birini qaval ilə yuxarı dutub, o birini də belinə qoydu. Rəqsi belə bitirmək Qaraca qızın adəti idi. Qaraca qız qonaqlar tərəfindən gurultulu alqışlandı. Sonra hamı rica etdilər ki, bu oyunu təkrar etsin, Qaraca qız qəbul etmədi. Hətta Hüseynqulu ağanın da sözünə baxmadı. Hamının ümidi kəsilmişdi ki, birdən Ağca xanım ortaya çıxıb, çalğıçılara haman rəngi çalmağa əmr etdi. Hamı təəccüb ilə ona baxırdı. Çalğıçılar

çaldılar, Ağca xanım da oynamağa başladı. Bunun oynamağı gözəl və qaidəli idi. Hər hərəkətindən məlum edirdi ki, bu Qaraca qızın şeyirdidir. Bir-iki devrə vurandan sonra Qaraca qızı çağırdı, o da dərhal sıçrayıb ortalığa girdi və hər ikisi qabaq-qabağa oynamağa başladı. Bu xəbər bir anda ağalıq xidmətçilərinə yayıldı. Onlar dəstə ilə yügürüb qapının ağzından tamaşa etməyə başladılar. Bu xəbər Pəricahan xanıma da çatdı. O da tamaşaya gəldi. Ancaq o, qızının oynamağına əsla şad olmayıb acığından bilmirdi ki, nə etsin!

Qızlar oynamaqlarını bitirdilər. Hər tərəfdən onları alqışladılar. Hüseynqulu ağa fərəhlənib qızını bağrına basdı. Bəylər onu tərif edib başını sığalladılar.

Bir azdan sonra Pəricahan xanım qulluqçusunu göndərib Ağca xanımı yanına çağırtdı. Hüseynqulu ağa duydu ki, arvadı qızını tənbih etmək üçün çağırır. Bu fikir düz də çıxdı: o biri otaqdan Pəricahan xanımın hayqırtısı gəlirdi. Hüseynqulu ağa səbr edə bilmıəyib qonaqlardan üzr istədi və Pəricahan xanımın yanına getdi. Gördü ki, Ağca xanım hönkürtü ilə ağlayır və Pəricahan xanım da qışqırır:

-De görüm, bu oynamağı sənə kim öyrətmişdir?

Hüseynqulu ağa dedi:

- Buyur, cavabını mən verim, bunu Qaraca qız öyrətmişdir, sözün nədir?

- Qaraca qız onu harada görürdü ki, öyrətsin? Mən onunla görüşməgi qədəğən etməmişdimmi?

- Sən etmişdin, lakin mən etməmişdim! Bu evin sahibi mənəm, yoxsa sən? Kimin həddi var, bundan sonra bənim əmrimdən çıxsın?!..

Pəricahan xanım indiyə qədər ərini bu dərəcədə hirsli görməmişdir.

- İmdi ki, belədir, daha mən bu evdə nə üçün oturmuşam?

- Özün bilərsən! Oturursan, otur, gedirsən get, bunu bilməlisən ki, bundan sonra mən öz istədiyim kibi davranacağam.



O biri otaqdan bəylər onun səsini eşitdilər. Rəhim bəy və Səlim bəy onun ayiləsinə məhrəm olduqları üçün onları sakit etməyə gəldilər. Hüseynqulu ağanı çəkib o biri otağa apardılar. Bu ittifaqdan qonaqlar pərişan olub, bir-bir dağılmağa başladılar, ancaq Rəhim bəy ilə Səlim bəy qaldılar ki, ər ilə arvadı barışdırıb getsinlər. Bunlar istədiklərinə çatdılar: Hüseynqulu ağanın hirsi yatıb arvadına deyirdi:

- Neçin razı olmayırsan Ağca xanım oynasın, oynamağın nə zərəri var ki?

Səlim bəy dedi:

- Pəricahan xanım, mənim qızım Ağca xanım kibi oynamaq bilsəydi, onun başına dolanardım! Amma nə etməli ki, atası kibi şüursuz çıxıb ayaq atmağı da bilmir!

Rəhim bəy dedi:

- Uşaq tayfası Ağca xanım kibi oynamağa, gülməyə yaranmışdır. Yoxsa mənim qızım kibi qaradinməzdən nə fayda?

Pəricahan xanım onun sözünü kəsərək dedi:

- Mən demirəm ki, qızım oynamaq bilməsin, lakin mən deyirəm ki, Mehdi ağanın nəvəsi Ağca xanıma bir qaraçı qızı ilə yoldaş olub oturmaq, durmaq yaraşmaz. Bu ittifaqdan sonra mən Ağca xanımı burada qoya bilməyəcəgəm. Mən irəliki kibi şəhərə köçəcəgəm və qızımı da pansiona

verəcəgəm; Hüseynqulu ağa burada qalsın, çünki şəhərdə yaşamağı sevmir.

Hüseynqulu ağa buna razı oldu.

***

Sabahı günü Ağca xanım anası ilə şəhərə köçdü. Yazıq qızcığaz istəkli dostu Qaraca qız ilə görüşə bilmədi. Ağca xanımın şəhərə köçməsi Qaraca qıza böyük təsir etdi. Bir tərəfdən Ağca xanımın ayrılıq həsrəti, o bir tərəfdən də onun ata-anasının arasına ədavət düşməsi Qaraca qızı çox qəmgin edirdi. Onu şad edən bir şey varsa, o da qonaqlıqda zühur edən ittifaqdan sonra Hüseynqulu ağa günlərini dostu Səlim bəy və Rəhim bəygildə keçirib öz evində az görünməsi idi ki, beləliklə Qaraca qızı da oynamağa çağırmırdı. Bundan ilavə Qaraca qız özü də oynamağı tərk etmişdi. O, günlərini bağda keçirirdi, yoldaşı da qaraca köpək idi. Bu it Qaraca qızla elə dost olmuşdu ki, yanından iraq olmaq istəmirdi. Qaraca qız da itə elə öyrətmişdi ki, hər istədiyini əmələ gətirə bilirdi. Piri kişi həmişə bunları bir yerdə görəndə deyirdi:

- İki qara yaxşı tapışmışsınız!

Bu ittifaqdan sonra Qaraca qızın Qara köpəyə məhəbbəti daha da artmışdı. Belə ki, bir gün Qaraca qız morux yığmaq qəsdi ilə cəvərənini götürüb meşəyə getmişdi; Qara köpək də yanında idi. Meşə Hüseynqulu ağanın mülkündə idi. Qaraca qız azmaxdan və meşə heyvanlarından qorxmudı, çünki hər iki halda Qara köpək onu xilas edə biləcəgini anlayırdı. Meşədə cəvərənini morux ilə doldurub evə tərəf üz qoydu. Meşənin içindən dəmir yol gedirdi. Qaraca qız yolu keçdiyi zaman, ayağı büdrəyib yıxıldı və moruğu yola töküldü. Bunu yığan vaxt vaqon qatarı göründü. Qaraca qızın başı moruğunu yığmağa qarışıb qatarın gəlməsindən xəbəri yox idi. O vaxt Qara köpək meşədən yola çıxdı və Qaraca qızı başı aşağı morux yığan və qatarı iti gələn görüb ildırım kibi

götürüldü və Qaraca qıza elə döş vurdu ki, o da, özü də dərəyə uçdular.

Qaraca qızın sağ ayağı kola ilişib qanadı. Bunun ağrısından və Qara köpəyin belə hərəkətindən acıqlanıb qışqır-dı. Amma başını yuxarı qaldırdıqda vaqon qatarının keçdiyini gördü. Qaraca qız anladı ki, ağıllı köpək onu bu tövr ölümdən qurtarmışdır, ona görə də dərhal acığı yatdı vəqara köpəyin başını sığallayıb onu əzizlədi. Sonra yola çıxdı ki, görsün cəvərəni necə olmuşdur. Gördü ki, ondan ancaq qırılıb yerə tökülmüş çöplər qalmışdır. Qaraca qız ölümdən qurtarmasına çox şad olub cəvərənin tələf olmasına bir o qədər yanmadı.



Bu xəbər gedib şəhərə də çatmışdı. Ağca xanım dostu Qaraca qızın ölümdən xilas olmasına çox şad olub atasına yazdığı məktubun içində bir şahı iriliyində zərli bir kağız da qoymuşdu ki, bu da mənin tərəfimdən Qara köpəyə bəxşiş olsun.

***

Yayın axır günləri idi. Ağca xanımın pansiona girməsinə az qalmışdı. O, anasından rəca etdi ki, bu axır günlərini kəndlərində keçirməyə izn versin.. Pəricahan xanım razı olub dedi:

- Yaxşı, qızım mən özüm də səninlə bərabər oraya gedəcəyəm ki, bir az rahat olaq. Yoxsa burada gedib-gələnlərin əlindən bir dəqiqə asudə deyiləm, ancaq, Ağca! Şərtim budur

ki, o qaraçı qızı ilə tamamilə əlaqəni kəsməlisən. Sən bəy qızısan, elə rəiyyət qızı ilə oturub-durmaq sənə yaraşmaz. O günü atan şəhərə gəlmişdi. Özü dutduğu əməldən peşiman olmuşdur. O deyirdi ki, mən arvadımın acığına Ağcanı Qaraca qız ilə görüşdürürdüm, yoxsa qızımın öz qaravaşilə dostluq etməsinə heç mən də razı deyiləm. Bağın meyvəsi dərildikdən sonra Piri kişini də, Qaraca qızı da qovacağam.

Bu xəbərdən Ağca xanım qəmgin və pərişan oldu. O indi kəndə getməyinə şad deyildi. O idi ki, səhəri günü anası onu yuxudan qaldırdıqda dedi:

- Ana, mən kəndə getmək istəmirəm!

- Nə üçün? Dünən sən özün demirdinmi? Qalx, tənbəllik etmə!

Ağca xanım istər-istəməz qalxıb geyindi. Pəricahan xanım kəndə gələcəklərini teleqraf ilə Hüseynqulu ağaya xəbər verdi. Vaqon qatarı stansiyada dayandıqda Ağca xanım pəncərədən atasını görüb çağırdı. Vaqondan endikdə Ağca xanım Qaraca qızı kənarda durmuş gördü. Pəricahan xanımın başı şeylərinə qarışmışdı. Nökərlər şeyləri alıb faytona yığırdılar. Bundan Ağca xanım istifadə edərək gizlicə Qaraca qızın yanına qaçdı. Onunla görüşdü.

- Tez ol get, Pəricahan xanım bizi burada görməsin, yoxsa yenə acığı dutar, - deyə Qaraca qız Ağca xanımı tələsdirdi.

- Doğru deyirsən, sonra görüşərik - deyə Ağca xanım ata-anasına yanaşdı və faytona minib yola düşdülər.

Ağalar qapıya çatdıqda xidmətçilər həyətdə cərgə ilə düzülüb zalım xanımın qorxusundan tir-tir əsirdilər. Bunların içində Piri kişi də var idi. Pəricahan xanım Qaraca qızı orada görməyib qızının ürəyini ondan soyutmaq üçün rişxənd ilə dedi: “Qızım, bu da dostun Qaraca qızın vəfası! Gör səni necə tez yadından çıxarmış!”

Ağca xanım anasının bu tənəsinə səbr edib sirrin üstünü açmadı. Sabahı günü Mariya İvanovna da gəlib çıxdı. Ağca xanımın buraya gəlməkdən məqsədi Qaraca qız ilə gün keçirmək idi. O da mümkün olmadığından çox bikef və qəmgin idi.

***

Qaraca qız da qəmgin idi. Komadan çıxmaq istəmirdi. Gün çıxıb xeyli qalxmışdı. Qaraca qız oyanmışdısa da, hələ yerindən qalxmamışdı.

- Qızım, nə çox yatmısan, sən heç belə gecikməzsən. Azarlı deyilsən ki? – deyə Piri kişi sordu.

- Yox baba, azarlı deyiləm, əmma heç durmağa heç könlüm yoxdur.

Piri kişi komanın qapısını açıb dedi:

- Qızım bax gör nə gözəl günəş çıxmış! Belə havalarda ancaq tənbəllər yatar.

Qaraca qız qalxıb aram ilə geyinməyə başladı. Sonra əl üzünü yuyub çay içməyə məşğul oldu. Çaydan sonra bayıra çıxdı. Həqiqətdə günəş xeyli parlaq idi. Bağı gəzərkən Qaraca qızın gözünə qarınca yuvası sataşdı. Bu qarıncaların içində qanadlıları da vardı. Onlar qalxıb havada uçurdular. Gah bu yuvan, gah o yuvanın ağzında qaynaşırdılar. Piri kişi Qaraca qıza yaxınlaşıb dedi:

- Qızım nəyə baxırsan?

- Qarıncalara baxıram, baba!Bunların içində qanadlıları da var. Baba bu nə üçün?

- Qızım onların qanadları həmişəlik deyil, onlar töküləcəklər. Bu gün bu qarışqaların toy günüdür. Maya dutandan sonra onların dişilərinin qanadı quruyub düşəcək.

Qaraca qız babasından qarışqa toyu eşitcək əllərini biri-birinə vurub şaqqıltı ilə gülməyə başladı. Piri kişi də ona qoşulub gülməyə başladı:



- Bəli, qızım, qarışqaların toyudur! Get qavalını gətir, çal, onlar da səndən razı qalsınlar.

Piri babanın bu fikri Qaraca qıza xoş gəldi. O qaçaraq komaya gedib qavalını gətirdi, çalıb oynamağa başladı. Piri kişi bu işdən şad oldu.

Bu vaxt Ağca xanım mürəbbiyyəsi ilə bağçada otururmuşdular. Mariya İvanovna kitab oxuyurdu. Ağca xanım da evcik tikirdi. Çiçəkləri dərib onu bəzəyirdi. Bu zaman onun qulağına Qaraca qızın nəğməsinin səsi gəldi. Onu görmək üçün çəpərin qırağına gəldi. Ağca xanım Qaraca qızın çəpərin yanında oxuduğu mahnını dinləyərkən qıvrılıb özünü günəşə verən zəhərli bir ilan atlanıb Ağca xanımın çıplaq qolundan sancdı. Ağca xanım qışqırıb özünü mürəbbiyəsinin üstünə atdı. Bunun qışqırığına anası və xidmətçilər töküldülər. Mariya İvanovna özünü itirib Ağca xanımı bağçada tək qoyub evə su gətirməyə qaçdı. Ağca xanım da qışqıra-qışqıra onun dalınca yüyürməyə başladı.

- Qızım qavalını çalma, görək o ağalıqdan gələn səs nədir? – deyə Piri baba Qaraca qızı dayandırdı.

- Baba, bu səs Pəricahan xanımın səsidir,- deyə Qaraca qız ildırım kibi götürüldü. Həyətə çatdıqda gördü ki, Ağca xanımın biləyindən qan axır və Pəricahan xanım da ağlayaraq xidmətçilərə yalvarır:

- Aman, sizə qurban olum! Tezcə bir Ağcanın yarasını sorub ilanın zəhərini yerə tökünüz!

Lakin heç kəs bu qorxulu işə cürət edib qədəm qoymudu...

Qaraca qız Pəricahan xanımdan bunu eşitcək Ağca xanımın qolundan zəhəri sorub yerə tökməyə başladı. Hamı qorxulu bir halda buna təəccüb edirdi. Pəricahan xanım Qaraca qızın saçlarını öpərkən deyirdi:

- Qaraca qız! Mənə rəhmin gəlsin, qızımı ölməyə qoyma. Qaraca qız isə Pəricahan xanımın naləsinə əsla fikir verməyib öz istəkli dostunu ölümdən xilas etməyə səy edirdi. Bir azdan sonra Qaraca qız nə qədər sordusa, daha yaradan qan gəlmədi. Ağca xanım yaradan bir o qədər şikayət etmirdi, ondan artıq yaradan yuxarıda qaytan ilə möhkəm bağlanmış yerdən şikayət eidrdi:

- Ana, qaytanı aç, qolumu kəsir!

- Yox qızım, olmaz, onda zəhər bədədninə yayılıb səni öldürər, səbr et bu saat şəhərə teleqram vuracağam. Atan həkim gətirsin - bunu deyə Pəricahan xanım bir teleqram yazdı və nökərə verdi ki, aparıb stansiyadan vursun. Ağca xanımın qolunu bağlayan zaman Piri kişi gəlib çıxdı. Əhvalatdan xəbərdar olub xeyli iztirab ilə Qaraca qızın üzünə baxdı.

- Baba, gördünmü başımıza nə gəldi?! – deyə Pəricahan xanım şikayətləndi.

- Bəli, gördüm. Onu da görürəm ki, öz balanı ölümdən xilas etmək üçün bu atasız, bu anasız yetimi bəlaya salmısan– deyə Piri kişi sərt nəzər ilə onun üzünə baxdı.

- Baba, nə deyirsən? Qaraca qıza heç bir şey olmamış!

- Yaxşı bax, xanım!

Bu vəqt Qaraca qız dedi:

- Baba, içərim yanır, mənə su ver, içim!

- Gəl qızım, gedək, görüm sənə nə çarə edə bilərəm! Sonra üzünü xidmətçilərə tutub dedi:

- Cəld gedib mənim komamdan qatıq gətirin, ayran edib qıza içirdim!

- Baba, bu saat - deyə xidmətçilər yüyürüşdülər.

- Baba, sənə yalvarıram! Qaraca qızı aparma, qoy burada yatsın, teleqram vurmuşam. Hüseynqulu ağa şəhərdən həkim gətirəcəkdir, – bunu deyə Pəricahan xanım onun qabağını kəsdi.

- Çəkil! Sən indiyə kibi bu qızı ağalığın ətrafına dolanmağa qoymamısan ki, bəyzadə qızına fəna xasiyyətləri təsir edər. İndi də mən onun bu zülm yuvasında qalmasına razı deyiləm,- bunu deyə Piri baba Qaraca qızın əlindən dutub apardı.

***

Piri kişi Qaraca qızı soyundurub rahat etdi. Ona tez-tez ayran verirdi. Lakin yaranı sorduqda zəhər tüpürcəklə Qaraca qızın bədəninə yerimişdi. Bununla beləPiri baba Qaraca qızdan ümidini kəsməmişdi. Lakin öz canını özgə uğrunda fəda etmiş qızcığazın həyatı bitmək üzrə idi!..

- Baba, mən ölsəm məni o bağmızın yanındakı göy təpədə basdırınız! Oranı mən çox sevirəm, oradan hər yer görünür, orada hər cür çiçək var!

- Qorxma, qızım, həkim gəlib sənə dərman verəcək, sən də sağalacaqsan. Uzun yaşayacaqsan. Mən qoca babanı o dediyin göy təpədə basdıracaqsan.

Hüseynqulu ağa həkim ilə gəlib çıxdı. Həkim Ağca xanıma baxdıqdan sonra dedi:

- Ağca xanımın heç bir qorxusu yoxdur. İlanın zəhəri bədəninə yayılmamış rəf olunmuş, azacıq hərarəti var. Ona da dərman verərəm yaxşı olar.

Bu xəbərdən ata və ana çox şad oldular. Sonra həkim ilə bərabər Piri babanın daxmasına getdilər. Qaraca qızın qan ilə dolmuş gözləri yumulmuşdu. Həkim ona baxdıqdan sonra dedi:



- Xəstənin halı çox ağrdır, çünki sovuran zaman, zəhəri udmuşdur, o qanına qarışıb bədəninə yayılmışdır. Sağalması çətindir.

Bu xəbərdən Piri kişi məyus olub dedi:

- Həkim, öz balasını ölümdən xilas etmək üçün başqa bir balanı ölümə verən qadına nə deyərlər?

- Sus! Qoca köpək, mənim qızımı bir qaraçı qızına taymı edirsən, - deyə Hüseynqulu ağa hayqırdı.

Həkim onları sakit edib gətirdiyi dərmanı Qaraca qıza içdirdi və Piri kişiyə tapşırdı ki, bundan xəstəyə tez-tez versin.

- Baba məyus olma, qız çox sağlamdır. Ümidvaram ki, sağalar, - deyə həkim ağalar ilə bərabər getdi.

***

Piri baba daxmanın qapısını açıb Qaraca qızın başı tərəfində oturdu. Sonsuz qoca Qaraca qıza artıq dərəcədə məhəbbət bağlamışdı. Qaraca qız onun əski komasına yeni bir həyat, yeni bir şölə gətirmişdi. İndi o şölə sönür... Ona da səbəb tam çocuqluğundan zülmünü çəkdiyi ağaları olmuşdu.

Qaraca qız qan ilə dolmuş gözlərini açdı, axır nəfəsində günəşin şəfəqinə bir müddət baxdı, sonra gülümsündü, gözlərini yenə yumdu. Qaraca qız öldü!..



-Daxmanın bülbülü uçub getdi, - deyə Piri baba göz yaşı tökdü.

894·362
A 95

SYLEJMAN SANI AXUNDOV

Книжная Палата АзССР

# ƏSƏRLƏRI

223369

S. HYSEJNIN
redaqtəsilə

M. F. Axundov adına
Azərbaycan Dövlət
KITABXANASI

AZƏRNƏŞR
BƏDII-ƏDƏBIJJAT ŞƏ'BƏSI

AZƏRBAJÇAN ƏDƏBIJJATЬ

# SYLEJMAN SANI AXUNDOV

BAKЬ—1936

# LÜĞƏT

**Bilmərrə** - birdəfəlik

**Bona** – dayə (əski fransızca: “bonna” yazılır, “bona” oxunur)

**Boğanaq – (“Ayı boğanaq qoparan ağac kimi yerə yıxıldı”)** “Azərbaycan folkloru” toplusunda yuxarıda deyilənlərlə səsləşən olduqca maraqlı bir faktla rastlaşırıq: “Taxıl döyümü vaxtı boğanaq qalxarsa, qızlar: “Boğanaq gəlmə, sənə gedəcəyəm”- deyirlər”.

Azərbaycan inancındakı qızların boğanağa ərə getmək istəyi və “Yel baba” mərasim nəğməsinin “Mənim ölüm xəbərim Anama desin yellər” misraları ilə Boreyin ölü qızları qaçırması arasında əlaqə göz qabağındadır. Lakin yunan miflərindən fərqli olaraq Azərbaycan inancında qızlar sağ ikən özləri könüllü surətdə sərt küləyə ərə gedəcəklərini vəd edirlər, bununla da onun könlünü oxşayıb, arzusunun yerinə yetirilməsinə ümid yaradırlar və taxıl döyümündə şiddətli əsməsinin qarşısını alırlar. Başqa sözlə, nəğməni eşidəndən sonra Boğanağa – Boreyə qızların ölməyini gözləmək və oğurluq etmək lazım gəlmir, çünki taxıl döyülüb qurtaran kimi onları öz xoşları ilə qoynuna alıb istədiyi yerə apara biləcək.

**Cəvərən –** ipli, kiçik səbət

**Çərkəsi paltar –** milli kişi üst geyimi

**Kərrat ilə -** dəfələrlə

**Mənzilə** - məna, məqam

**Müqəyyəd –** qeydinə qalma ( ilk variantda doğru verilən bu söz sonrakı variantlarda danışıq dilinə uyğunlaşdırılaraq “muğayət” şəklində təhrif edilib.)

**Mürəbbiyə - dayə** Pişvaz - qarşılamaq

**Sərəskər** - komandan

**Sərrac -** [ər.] Yəhər və sair qoşqu ləvazimatı qayırıb satan adam

**Təvəqqe** – xahiş

# MÜNDƏRİCAT

1.“Qaraca qız”ın taleyi: əsər necə dəyişdirildi? ................... 5

2.“Qaraca qız” əsərinin orta məktəb dərsliklərində tədrisinə dair ......................................................................... 11

3.S.S.Axundovun “Qaraca qız” povestinin nəşr olunan nüsxələri arasındakı fərqlər..................................................19

4.Qaraca qız. ”Məktəb” dərgisi, № -1-22; 2013-cü il ........ 32

5.Qaraca qız. S.S.Axundov. Zərafət. Bakı, Azərnəşr, 1927..80

6.S.S.Axundov. Qaraca qız. Bakı, Azərnəşr, 1934 ........... 122

7.Lüğət ..............................................................................169